RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 31 (9486) 12 FEVRAL 2024-cü il BAZAR ERTƏSİ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Ümumxalq etimadının zəfəri

## Mərkəzi Seçki Komissiyası İlham Əliyevin prezident seçkilərindəki qələbəsini təsdiqlədi

Prezident seçkilərində seçicilər 125 seçki dairəsi üzrə 6537 seçki məntəqəsində öz iradələrini ifadə etdilər. Ən mühümü də odur ki, bu seçkidə seçicilər böyük ruh yüksəkliyi ilə iştirak etdilər. Səsvermədə respublika üzrə qeydə alınmış seçicilərin 76,43 faizi iştirak etdi ki, bu da yüksək seçici fəallığının göstəricisidir.

Qeyd edək ki, hələ seçki kampaniyası zamanı cəmiyyətin siyasi əhvali-ruhiyyəsi, rəy sorğuları təsdiq edirdi ki, xalqın mütləq əksəriyyətinin seçkiqabağı ovqatı bütünlüklə İlham Əliyevin namizədliyinə dəstək üzərində köklənib. Səsvermə günü qeydə alınan nəticələr bunun təsdiqi oldu və beləliklə, 7 fevral seçkisi xalqımızın Prezident İlham Əliyevə yüksək və sonsuz etimadının və ehtiramının növbəti təntənəsinə çevrildi, ümumxalq etimadının zəfəri oldu. Xalq ona zəfər yaşadan, torpaqlarımızı işğaldan azad edən, erməni separatizminə son qoyan, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən siyasətin ətrafında səfərbər olaraq, bütün uğurlarımızın müəllifi olan İlham Əliyevə etimad göstərdi. Seçicilərin 92,12 faizi, yaxud 4 milyon 567 min 458 nəfəri öz səsini İlham Əliyevə verdi. Bu, İlham Əliyevə əvvəlki prezident seçkiləri ilə müqayisədə verilən ən yüksək səsdir. İlham Əliyevlə digər namizədlər arasında səs fərqi isə 40 dəfədən çox oldu.

Budəfəki prezident seçkiləri ilə bağlı maraqlı məqamlardan biri də odur ki, bir sıra seçki məntəqələrində, o cümlədən Qarabağ və Şərqi Zəngəzurdakı seçki məntəqələrində seçicilərin 100 faizi öz səslərini İlham Əliyevə verdilər.

→ 5

# İLHAM ƏLİYEV - 92,12%

# Azərbaycan ilə İran arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir

## İran İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Seyid İbrahim Rəisiyə

Hörmətli cənab Prezident.

İran İslam Respublikasının milli bayramı - İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi çatdırıram.

Tarixən xalqlarımızı birləşdirən dostluq münasibətləri və ortaq mənəvi dəyərlər Azərbaycan-İran dövlətlərarası əlaqələrinin və əməkdaşlığının inkişafı üçün yaxşı zəmindir. Bu gün iqtisadi-ticari, nəqliyyat və digər sahələrdə ölkələrimizin qarşılıqlı fəaliyyəti məmnunluq doğurur.

İnanıram ki, Azərbaycan ilə İran arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı çatdırır, xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 fevral 2024-cü il*



# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi seçkilərdə inamlı qələbəsi münasibətilə təbrik ediblər

İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı parlaq qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Səudiyyə Ərəbistanının SPA xəbər agentliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, Kral Salman bin Əbdüləziz Al Səud Prezident İlham Əliyevə səmimi təbriklərini ifadə edərək uğurlar, Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıb.

Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi seçkilərdə qazandığı inamlı qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Səudiyyə Ərəbistanının SPA agentliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud dövlətimizin başçısına səmimi təbriklərini çatdırıb, ona uğurlar, Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıb.

Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-Sabah Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Küveyt Xəbər Agentliyi (KUNA) məlumat yayıb. Məlumatda bildirilib ki, Küveyt Əmiri Prezident İlham Əliyevə cansağlığı, Azərbaycana və onun dost xalqına sürətli inkişaf və çiçəklənmə arzulayıb.

KUNA-nın digər bir xəbərinə görə, Küveyt Dövlətinin Baş naziri Əlahəzrət Şeyx Məhəmməd Sabah əl-Salim əl-Sabah da dövlətimizin başçısını seçkilərdə qələbəsi münasibətilə təbrik edib.

# Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə yekun vurub

**Məzahir Pənahovun sədrliyi ilə fevralın 11-də Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə yekun vurulması və MSK-nın seçkilərin nəticələrinə dair protokolunun müvafiq sənədlərlə birlikdə Konstitusiya Məhkəməsinə təqdim edilməsi məsələsinə baxılıb.

Namizədi qeydə alınmış siyasi partiyanın səlahiyyətli nümayəndəsi, beynəlxalq müşahidə missiyasının təmsilçisi, məşvərətçi səs hüquqlu komissiya üzvü, xüsusi icazə almış müşahidəçi və media mənsublarının iştirak etdikləri iclasda əvvəlcə seçkilərin hazırlanıb keçirilməsi istiqamətində atılan addımlar və reallaşdırılan layihələr barədə ətraflı məlumat verilib.

Diqqətə çatdırılıb ki, ilk dəfə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuş bir şəraitdə, işğaldan azad edilmiş regionlarımız da daxil olmaqla, respublikanın hər bir bölgəsində prezident seçkiləri yüksək səviyyədə təşkil olunub azad, ədalətli və şəffaf keçirilməklə ölkəmizin ictimai-siyasi həyatında müstəsna əhəmiyyətli tarixi hadisəyə çevrilib. Prezident seçkiləri ilə əlaqədar bütün fəaliyyət Seçki Məcəlləsinin tələbləri əsas götürülməklə MSK tərəfindən hazırlanıb təsdiq edilmiş Təqvim Planına uyğun ardıcıl, sistemli və mütəşəkkil qaydada gerçəkləşdirilib, istər komissiya, istərsə də aidiyyəti qurumlar tərəfindən seçki qanunvericiliyində nəzərdə tutulmuş vəzifə və səlahiyyətlərin dəqiqliklə yerinə yetirilməsinə xüsusi diqqətlə yanaşılıb. Seçki prosesinin mühüm mərhələləri olan seçicilər siyahısının dəqiqləşdirilməsi, seçicilər də daxil olmaqla bütün seçki subyektlərinin maarifləndirilməsi, prezidentliyə namizədlərin irəli sürülməsi və qeydə alınması, bərabər şərtlərə əsaslanan seçkiqabağı təşviqat imkanlarının yaradılması, müşahidəçilər və media nümayəndələrinin fəaliyyəti üçün sərbəst və maneəsiz şəraitin təmin edilməsi, seçki günü səsvermənin təşkili ilə əlaqədar prosedurlara düzgün əməl olunması və digər tədbirlər qanunvericiliklə müəyyənləşdirilmiş qaydada, vaxtında və keyfiyyətlə həyata keçirilib.

Bildirilib ki, MSK seçkilərə start verildikdən sonra seçicilərin məlumatlandırılması, seçki iştirakçılarının maarifləndirilməsi, dairə və məntəqə seçki komissiyaları üzvlərinin bilik, bacarıq və peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi məqsədilə fərqli istiqamətlər üzrə çoxsaylı layihələri əhatə edən genişmiqyaslı kampaniya reallaşdırıb və maarifləndirmə proqramı əlaqədar qurumlarla sıx əməkdaşlıq şəraitində həyata keçirilib.

Qeyd olunub ki, prezident seçkilərində 17 iddiaçı namizəd qismində iştirak etmək üçün müvafiq sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim edib və namizədliklərinin irəli sürülməsi təsdiq olunaraq onlara imza vərəqələri verilib. Namizədliyinin irəli sürülməsi təsdiq edilən 17 iddiaçıdan 10-u imza vərəqələrini ümumiyyətlə geri qaytarmayıb. İmza vərəqələrini və ona əlavə olunmuş sənədləri geri qaytaran 7 iddiaçının hamısının namizədliyi qeydə alınıb ki, onlardan 5-nin namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülüb, 2-si isə öz təşəbbüsü ilə seçkilərə qatılıb. Namizədlərin sənədlərinin yoxlanılması prosesi bütün maraqlı şəxslər üçün şəffaf şəkildə aparılaraq ictimaiyyətə tam açıq həyata keçirilib. Prezidentliyə namizədlərin və siyasi partiyaların səlahiyyətli nümayəndələri, beynəlxalq müşahidə missiyalarının təmsilçiləri və media nümayəndələri istənilən vaxt prosesləri birbaşa izləmək, sənədlərlə yaxından tanışlıq imkanına malik olublar.

Habelə bildirilib ki, qeydə alınmış namizədlərə öz seçkiqabağı platformalarını sərbəst şəkildə seçicilərə çatdırmaq üçün bərabər şərait, hərtərəfli və geniş imkanlar yaradılıb. Mərkəzi Seçki Komissiyasının qərarı ilə İctimai Televiziya və Radio Yayımları Şirkətində qanunvericilikdə nəzərdə tutulandan 2 dəfə artıq - həftəlik 6 saat (3 saat televiziyada, 3 saat radioda) pulsuz efir vaxtı, "Azərbaycan" qəzeti, "Xalq qəzeti", "Respublika" qəzeti və "Bakinski rabоçi" qəzetlərində dərc üçün ödənişsiz yer ayrılıb. Ödənişli təşviqat üçün 44 media qurumundan təklif edilən qiymətlər MSK-ya təqdim olunub, bu məlumatlar namizədlərin tanış olmaları üçün komissiyanın internet səhifəsində yerləşdirilib və bütün namizədlər üçün şərtlərin bərabərliyi prinsipi daim diqqətdə saxlanılıb. Seçki Məcəlləsinin tələblərinə əsasən qeydə alınmış namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşlərinin keçirilməsi üçün ilkin mərhələdə respublikanın şəhər və rayonlarında 125 seçki dairəsi üzrə 139-u açıq, 142-si qapalı olmaqla, ümumilikdə 281 ödənişsiz yer ayrılıb. Ardınca isə daha geniş imkanlar təmin olunması məqsədilə, demək olar ki, respublikanın əksər yaşayış məntəqələrini əhatə edən 4500-ə yaxın əlavə görüş yerləri də təşviqat subyektlərinin sərəncamına verilib. Namizədlər və namizədi qeydə alınmış siyasi partiyalar ödənişsiz və heç bir icazə tələb olunmadan, sadəcə, müvafiq dairə seçki komissiyasını əvvəlcədən məlumatlandırmaqla həmin yerlərdə öz seçiciləri ilə görüşlər keçiriblər. Namizədlərin təşviqatı üçün bütün seçki məntəqələrini əhatə edən 10 mindən çox böyükölçülü lövhələr də quraşdırılıb. Seçkiqabağı təşviqat subyektləri MSK tərəfindən yaradılan bütün bu imkanlar və bərabər şəraitdən azad, sərbəst şəkildə, səmərəli istifadə ediblər. Yanvarın 15-dən start götürən seçkiqabağı təşviqat kampaniyası səsvermənin başlanmasına 24 saat qalanadək davam edib və ümumilikdə müasir tələblərə cavab verən şəraitdə keçirilib.







O da vurğulanıb ki, prezident seçkiləri ilə əlaqədar seçki prosesinin demək olar bütün iştirakçıları ilə yanaşı, seçicilər üçün də geniş maarifləndirmə kampaniyası həyata keçirilib. Seçkilərin keçirilmə tarixi, səsvermə qaydaları, eləcə də istiqamətverici və çağırış xarakterli müxtəlif növdə yüz minlərlə plakat çap edilərək bütün yaşayış məntəqələrinin ərazisində asanlıqla görünə bilən yerlərdə asılıb. MSK tərəfindən səsvermədə iştiraka çağırış, seçki gününün diqqətə çatdırılması, seçici siyahılarında adın yoxlanılması, əlavə seçicilər siyahısı əsasında səsvermə, qeydiyyatdan çıxma vəsiqəsindən istifadə və səsvermə proseduru ilə bağlı hazırlanmış ümumilikdə 8 video və audio çarx televiziya və radio kanallarında, habelə sosial media platformalarında mütəmadi şəkildə nümayiş etdirilib.

İclas iştirakçılarının diqqətinə çatdırılıb ki, seçkilərdə bütün seçici qrupları ilə yanaşı, görmə, eşitmə və hərəkət qabiliyyəti məhdud olan seçicilərin də sərbəst səs vermələrinin təmin olunması üçün müxtəlif layihələr gerçəkləşdirilib. Gözdən əlil seçicilər onlar üçün hazırlanmış və seçki bülletenindəki məlumatların Brayl əlifbası ilə əks olunduğu trafaretdən istifadə etməklə seçki günü öz konstitusion hüquqlarını kimsənin yardımı olmadan reallaşdırıblar. Hərəkət qabiliyyətində məhdudiyyətlər olan seçicilərin sərbəst şəkildə seçki məntəqələrinə gələrək səs verə bilmələri üçün müvafiq binaların müəyyənləşdirilməsi və onlarda panduslar quraşdırılması yolu ilə ehtiyac duyulan 2042 seçki məntəqəsində xüsusilə bu kateqoriyadan olan seçicilər üçün əlverişli şərait yaradılıb. MSK-nın seçici maarifləndirmə proqramı çərçivəsində bütün videoçarxlar alt yazısı ilə hazırlanıb ki, bu da eşitmə qabiliyyəti məhdud olan seçicilərin maarifləndirilməsində əhəmiyyətli rol oynayıb.

İclasda seçkilərin geniş aşkarlıq mühitində keçdiyi də xüsusi qeyd olunub. Prezident seçkilərində şəffaflığın yüksək səviyyədə təmin olunması üçün digər vasitələrlə yanaşı, bütün respublika coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində internet vasitəsilə səsvermə prosesini əvvəldən-axıradək, fasiləsiz və birbaşa izləmək imkanı verən veb-kameralardan danışılıb. Bildirilib ki, bu seçkilərdə veb-kameralar yüksək texniki parametrlərə cavab verməklə, yenilənmiş müşahidə sistemi üzərindən daha yüksək və aydın vizual görüntü effektini təmin edib. Müşahidə sisteminin avadanlıq və proqram təminatı baxımından komponentləri və səsvermə günü seçki məntəqələrindəki prosesləri canlı izləmək üçün internet səhifəsi də tam şəkildə yenilənib. İnternet istifadəçiləri istər ölkə daxilindən, istərsə də xaricdən MSK-nın internet səhifəsinə daxil olaraq heç bir qeydiyyat tələb edilmədən seçki məntəqələrində səsvermə günü baş verən bütün prosesləri real zaman rejimində izləmək imkanına malik olublar.

Eləcə də məlumat verilib ki, prezident seçkilərinin müşahidəsinə 72 nüfuzlu beynəlxalq qurumu və 89 ölkəni təmsil edən 790 beynəlxalq müşahidəçi qatılıb. Eyni zamanda dünyanın 110 aparıcı xarici media subyektindən 217 təmsilçi MSK tərəfindən müvafiq lövhəciklə təmin edilərək seçkiləri izləyib. Respublikada fəaliyyət göstərən yerli media nümayəndələri isə heç bir əlavə akkreditasiya tələb olunmadan, seçki marafonu başlayandan sonadək sərbəst və maneəsiz şəkildə seçkilərin izlənilməsində iştirak ediblər.

Seçkilərin müşahidəsinə, həmçinin çoxsaylı siyasi partiyaları, qeydə alınmış namizədləri, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını və ictimai birlikləri təmsil edən, eyni zamanda öz təşəbbüsləri ilə seçkilərə qatılmış 90 mindən artıq yerli müşahidəçi qatılıb. Qeyd etmək lazımdır ki, siyasi partiyalar bu seçkilərə xüsusilə ciddi maraq göstərib. Prezidentliyə namizədləri qeydə alınan 5 siyasi partiya da daxil olmaqla, 19 siyasi partiyanın və öz təşəbbüsü ilə seçkilərə qatılan namizədlərin ümumilikdə 51 mindən artıq müşahidəçisi seçkilərdə şəffaflığın təmin olunmasında yaxından iştirak ediblər. Prezident seçkilərinin müşahidəsində qeyri-hökumət təşkilatlarının yüksək fəallığı aşkar diqqət çəkib. Belə ki, seçkilərin müşahidəsinə bütövlükdə 83 qeyri-hökumət təşkilatı, vətəndaş cəmiyyəti institutu və ictimai birliklərin 7000-ə yaxın müşahidəçisi də fəal şəkildə qoşulub. Bütün bunlarla yanaşı, ixtisaslaşmış 3 təşkilat tərəfindən seçkilərdə "exit-poll" keçirilib ki, onlardan 1-i öz fəaliyyətini xarici tərəfdaşı ilə birgə təşkil edib. "Exit-poll"ların nəticələri MSK-nın rəsmi nəticələri ilə, demək olar ki, üst-üstə düşüb.

Ümumiyyətlə, seçkilərə hazırlıq, səsvermə günü və ondan sonrakı dövrlərdə istər yerli və beynəlxalq müşahidəçilərə, istərsə də yerli və beynəlxalq media nümayəndələrinə öz fəaliyyətlərini sərbəst və maneəsiz həyata keçirmələri üçün bütün imkanlar yaradılıb. Aparılan müşahidələrə əsasən demək olar ki, on minlərlə müşahidəçinin qatıldığı seçkilər onlar tərəfindən azad, ədalətli və müasir tələblərə cavab verən proses kimi qiymətləndirilib.

Seçkilərdə vətəndaşların konstitusion hüquqlarının daha səmərəli təmin olunması üçün yaradılan imkanlar barədə də ətraflı məlumat verilib. Bildirilib ki, bütün seçki kampaniyası boyunca MSK-ya cəmi 1 şikayət daxil olub və həmin şikayətlə bağlı operativ qaydada müvafiq tədbirlər görülüb. Seçki günü və ondan sonrakı günlər də daxil olmaqla, MSK-ya və aşağı seçki komissiyalarına hər hansı qanun pozuntusu barədə heç bir şikayət daxil olmayıb. Səsvermə günü seçicilər tərəfindən seçki məntəqələrinin ünvanları, seçici siyahıları və digər bu kimi məsələlərlə bağlı komissiyanın 115 saylı və elektron qaynar xətlərinə daxil olmuş sorğu xarakterli müraciətlərə isə dərhal reaksiya verilərək operativ şəkildə lazımi addımlar atılıb.

İclasda habelə diqqətə çatdırılıb ki, prezident seçkiləri 125 seçki dairəsi üzrə 6319-u daimi, 218-i müvəqqəti olmaqla, ümumilikdə 6537 seçki məntəqəsində keçirilib. Bu məntəqələrdən 47-si işğaldan azad olunmuş ərazilərdə, 49-u Azərbaycanın 37 xarici ölkədəki səfirlik, konsulluq və diplomatik nümayəndəliklərində yerləşib. Səsvermə günü seçicilər yüksək fəallıqla, azad və sərbəst şəkildə seçki məntəqələrinə gələrək öz iradələrini ifadə ediblər. Ümumilikdə ölkə üzrə seçicilərin 76,43 faizi səsvermədə iştirak edib. Seçki günü ərzində 5 dəfə seçicilərin fəallığı barədə məlumatlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi üzərindən xüsusi proqram təminatı vasitəsilə birbaşa Mərkəzi Seçki Komissiyasına ötürülərək ictimailəşdirilib və komissiyanın internet səhifəsində yerləşdirilib. Səsvermə günü seçki məntəqələri bağlandıqdan sonra fasiləsiz olaraq səslərin hesablanması həyata keçirilib, məntəqə seçki komissiyalarının ilkin protokol məlumatları operativ şəkildə MSK-nın internet səhifəsinə qoyulub və bir neçə saat ərzində seçki məntəqələrinin mütləq əksəriyyətindən daxil olmuş məlumatlar əsasında səsvermənin ilkin nəticələri ictimaiyyətin diqqətinə çatdırılıb.

Həmçinin qeyd olunub ki, səsvermənin nəticələrinə dair yekun protokollar və digər seçki sənədləri qanunla müəyyənləşdirilmiş müddətdə və qaydada məntəqə seçki komissiyalarından dairə seçki komissiyalarına, oradan isə MSK-ya təqdim edilib. Dairə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları və onlara əlavə edilmiş sənədlər obyektiv və hərtərəfli yoxlanılıb. Eyni zamanda seçki günü müxtəlif mənbələrdə, hətta onlayn platformalarda olan məlumatlar belə fərqli alternativ resurslardan, eləcə də seçki məntəqələrində quraşdırılmış veb-kamera görüntülərindən istifadə edilməklə mümkün qədər geniş və hərtərəfli araşdırılıb.

Komissiya aparılan araşdırmalar nəticəsində seçicilərin iradəsinin müəyyən edilməsinə imkan verməyən qanun pozuntuları aşkarlanan 41 saylı Gəncə-Samux-Goranboy Seçki Dairəsinin 38 saylı, 61 saylı Qusar Seçki Dairəsinin 7 və 27 saylı, 65 saylı Salyan-Biləsuvar-Neftçala Seçki Dairəsinin 9 saylı, 68 saylı Sabirabad-Şirvan Seçki Dairəsinin 2 saylı, 77 saylı Lənkəran şəhər Seçki Dairəsinin 7 və 31 saylı, 92 saylı Göyçay-Ağdaş Seçki Dairəsinin 6 saylı, 99 saylı Bərdə Seçki Dairəsinin 2 saylı, 114 saylı Şəki şəhər Seçki Dairəsinin 1 saylı və 115 saylı Şəki kənd Seçki Dairəsinin 6 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsinə və həmin seçki məntəqələrinin məntəqə seçki komissiyalarının buraxılmasına qərar verib.

İclasda prezident seçkilərinin nəticələri haqqında MSK-nın Protokolu tərtib edilib və bütün komissiya üzvləri tərəfindən imzalanıb təsdiqlənməklə seçkilərə yekun vurulub. Seçki Məcəlləsinin tələbinə uyğun olaraq, MSK-nın Protokolunun müvafiq sənədlərlə birlikdə seçkilərin nəticələrinin təsdiqlənməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməsi, həmçinin dərc olunması qərara alınıb.



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

QƏRAR № 10/36

# 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə yekun vurulması və Mərkəzi Seçki Komissiyasının seçkilərin nəticələrinə dair protokolunun müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2023-cü il tarixli 4193 nömrəli Sərəncamı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilib, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra - Mərkəzi Seçki Komissiyası) Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 179.2-ci maddəsinə və həmin Sərəncama uyğun olaraq 2023-cü il 8 dekabr tarixli 7/15 saylı Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini 2024-cü ilin fevralın 7-nə təyin edib.

Mərkəzi Seçki Komissiyası ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyinin tam bərpa olunduğu bir şəraitdə keçirilən bu ilk seçkilərin yüksək səviyyədə təşkil olunmasına, azad, ədalətli və şəffaf şəkildə gerçəkləşdirilməsinə xüsusi diqqətlə yanaşıb.

Seçki prosesinin mühüm mərhələləri olan seçicilər siyahısının dəqiqləşdirilməsi, seçicilər də daxil olmaqla, bütün seçki subyektlərinin maarifləndirilməsi, prezidentliyə namizədlərin irəli sürülməsi və qeydə alınması, bərabər şərtlərə əsaslanan seçkiqabağı təşviqat imkanlarının yaradılması, müşahidəçilər və media nümayəndələrinin fəaliyyəti üçün sərbəst və maneəsiz şəraitin təmin edilməsi, seçki günü səsvermənin təşkili ilə əlaqədar prosedurlar və digər seçki hərəkətləri Seçki Məcəlləsinin tələbləri əsas götürülməklə ardıcıl, sistemli və mütəşəkkil qaydada həyata keçirilib.

Seçkilərin hazırlanıb keçirilməsi ilə əlaqədar nəzərdə tutulan bütün tədbirlər qanunvericiliklə müəyyən olunmuş qaydada, vaxtında və keyfiyyətlə icra edilib, seçicilər və aşağı seçki komissiyalarının üzvləri də daxil olmaqla, müxtəlif statuslu seçki subyektlərini əhatə edən irimiqyaslı maarifləndirmə layihələri reallaşdırılıb və sözügedən layihələrin icrası zamanı əlaqədar qurumlarla sıx əməkdaşlıq olunub. Mərkəzi Seçki Komissiyası tərəfindən səsvermədə iştiraka çağırış, seçki gününün diqqətə çatdırılması, seçici siyahılarında adın yoxlanılması, əlavə seçicilər siyahısı əsasında səsvermə, qeydiyyatdan çıxma vəsiqəsindən istifadə və səsvermə proseduru ilə bağlı hazırlanmış, ümumilikdə 8 video və audio çarx televiziya və radio kanallarında, habelə sosial media platformalarında mütəmadi şəkildə nümayiş etdirilib.

Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş müddətdə və qaydada seçicilər siyahısının dəqiqləşdirilməsi istiqamətində təkmil fəaliyyət həyata keçirilib. Seçicilərə öz adlarının siyahıda olub-olmadığını Mərkəzi Seçki Komissiyasının internet səhifəsindəki müvafiq sistem vasitəsilə yoxlamaq, hər hansı yanlışlıqla bağlı qaynar xətlərlə əlaqə saxlamaq və ya onlayn ərizə forması ilə müraciət etmək imkanı yaradılıb. Həmçinin birgə layihə çərçivəsində ilk dəfə "ASAN xidmət" mərkəzlərindəki müvafiq smart monitorlarda innovativ həll təmin olunaraq yeni funksional bölmə əlavə edilib ki, bu da vətəndaşların adlarının seçici siyahılarında yoxlanmasında və aid olduqları seçki məntəqələrini müəyyənləşdirməsində əlavə mütərəqqi bir vasitəyə çevrilib.

Seçkilərə start verildikdən sonra 17 nəfərin namizədliyinin irəli sürülməsinin təsdiqi üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilib və namizədliklərinin irəli sürülməsi təsdiq olunaraq onlara imza vərəqələri verilib. Namizədliyinin irəli sürülməsi təsdiq olunanlardan yalnız 7-si imza vərəqələrini və ona əlavə olunmuş sənədləri geri qaytarıb və onların hamısının namizədliyi qeydə alınıb. Qeydə alınmış namizədlərdən 5-nin namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülüb, 2-si isə öz təşəbbüsü ilə seçkilərə qatılıb.

Namizədlərin sənədlərinin yoxlanılması prosesi bütün maraqlı şəxslər üçün şəffaf şəkildə aparılaraq ictimaiyyətə tam açıq həyata keçirilib, siyasi partiyaların, prezidentliyə namizədlərin səlahiyyətli nümayəndələri, beynəlxalq müşahidə missiyalarının təmsilçiləri və media nümayəndələri mütəmadi olaraq bu prosesə dəvət edilib, onlar istənilən vaxt prosesləri birbaşa izləmək və sənədlərlə yaxından tanış olmaq imkanına malik olublar.

Qeydə alınmış namizədlərə öz seçkiqabağı platformalarını sərbəst şəkildə seçicilərə çatdırmaq üçün mediada hərtərəfli, bərabər şərait və geniş imkanlar yaradılıb. Mərkəzi Seçki Komissiyasının qərarı ilə İctimai Televiziya və Radio Yayımları Şirkətində qanunvericilikdə nəzərdə tutulandan 2 dəfə artıq - həftəlik 6 saat ödənişsiz efir vaxtı ayrılıb. "Azərbaycan" qəzeti, "Xalq qəzeti", "Respublika" qəzeti və "Bakinski raboçi" qəzetlərində qanunvericiliyə uyğun həcmdə və qaydada ödənişsiz dərc üçün yer təmin edilib, 44 media qurumunda isə bərabər şərtlərlə ödənişli təşviqat imkanı yaradılıb. Qeydə alınmış namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşlərinin keçirilməsi üçün, ilkin mərhələdə, onlar respublikanın şəhər və rayonlarında 125 seçki dairəsi üzrə 139-u açıq, 142-si qapalı olmaqla, ümumilikdə 281 ödənişsiz yerlə təmin edilib. Bunun ardınca isə, daha geniş imkanların yaradılması məqsədilə, demək olar ki, respublikanın əksər yaşayış məntəqələrini əhatə edən 4 500-ə yaxın əlavə görüş yeri də ayrılıb. Bütün bu yerlərin ünvanlarına dair məlumatlar Mərkəzi Seçki Komissiyasının internet səhifəsi də daxil olmaqla müxtəlif mənbələrdə dərc olunmaqla ictimailəşdirilib. Namizədlər və namizədi qeydə alınmış siyasi partiyalar ödənişsiz və heç bir icazə tələb olunmadan, sadəcə, müvafiq dairə seçki komissiyasına məlumat verməklə sözügedən yerlərdən istifadə edərək seçicilərlə görüşlər keçirirdi. Seçkiqabağı təşviqat subyektləri Mərkəzi Seçki Komissiyası tərəfindən yaradılmış bütün imkanlardan və bərabər şəraitdən azad və sərbəst şəkildə istifadə ediblər.

Seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunmasına xüsusi diqqət yetirilib, respublikanın bütün coğrafiyasını əhatə etməklə, 1 000 seçki məntəqəsində quraşdırılan və yüksək texniki parametrlərə uyğun olmaqla günün tələblərinə cavab verən, yenilənmiş sistem üzərindən daha aydın vizual görüntü təminatına şərait yaradan veb-kameralar vasitəsilə səsvermə prosesini heç bir qeydiyyat tələb olunmadan, əvvəldən axıradək fasiləsiz olaraq onlayn izləmək imkanı təmin edilib. Proseslərin müşahidəsinə 72 nüfuzlu beynəlxalq qurumu və 89 ölkəni təmsil edən 790 beynəlxalq müşahidəçi, dünyanın 110 aparıcı xarici media subyektinin 217 təmsilçisi, eləcə də Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyalarında akkreditasiyadan keçən 90 000-dən artıq yerli müşahidəçi qatılıb. Seçkilərdə öz namizədləri ilə iştirak edən 5 siyasi partiya da daxil olmaqla, 19 siyasi partiyanın və öz təşəbbüsü ilə seçkilərə qatılan namizədlərin ümumilikdə 51 000-dən artıq müşahidəçisi seçkiləri izləyiblər. Bununla yanaşı, seçkilərin müşahidəsinə qoşulan 7 000-ə yaxın müşahidəçi bütövlükdə 83 qeyri-hökumət təşkilatı, vətəndaş cəmiyyəti institutu və ictimai birlikləri əhatə edirdi. Biri xarici partnyorları ilə birgə olmaqla, ümumilikdə 3 ixtisaslaşmış təşkilat Mərkəzi Seçki Komissiyasında qeydə alınaraq səsvermə günü "exit-poll" keçirib. Aparılan müşahidələrə əsasən deyə bilərik ki, on minlərlə müşahidəçinin qatıldığı seçkilər onlar tərəfindən azad, ədalətli və müasir tələblərə cavab verən proses olaraq qiymətləndirilib.

Seçki marafonuna start verildikdən sonra Mərkəzi Seçki Komissiyasına 1 şikayət daxil olub və həmin şikayətlə bağlı operativ qaydada müvafiq tədbir görülüb. Seçicilərin yüksək fəallıq nümayiş etdirdiyi səsvermə günü və seçki prosesində hər hansı qanun pozuntusu ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına digər heç bir şikayət daxil olmayıb. Mərkəzi Seçki Komissiyasının qaynar xətlərinə hər zaman olduğu kimi, seçkilərin hazırlanması və keçirilməsi dövründə müxtəlif məsələlərlə bağlı müraciət edən vətəndaşların sualları operativ şəkildə cavablandırılıb və lazımi tədbirlər görülüb.

Seçki günü saat 08:00-da bütün ölkə üzrə səsvermə başlanıb və 6 319-u daimi, 218-i müvəqqəti əsaslarla fəaliyyət göstərən 6 537 seçki məntəqəsi sərbəst şəkildə öz iradələrini ifadə etmələri üçün seçicilərin ixtiyarında olub. Gün ərzində 5 dəfə seçici fəallığı barədə məlumatlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi üzərindən xüsusi proqram təminatı vasitəsilə birbaşa Mərkəzi Seçki Komissiyasına ötürülərək ictimailəşdirilib və komissiyanın internet səhifəsində yerləşdirilib. Səsvermə günü seçki məntəqələri bağlandıqdan sonra fasiləsiz olaraq səslərin hesablanması həyata keçirilib, məntəqə seçki komissiyalarının ilkin protokol məlumatları operativ şəkildə Mərkəzi Seçki Komissiyasının internet səhifəsində dərc olunub və bir neçə saat ərzində seçki məntəqələrinin mütləq əksəriyyətindən daxil olmuş məlumatlar əsasında səsvermənin ilkin nəticələri ictimaiyyətin diqqətinə çatdırılıb.

Seçkilərdə bütün digər seçicilər kimi, həssas təbəqəyə aid seçicilər də diqqət mərkəzində saxlanılıb və Mərkəzi Seçki Komissiyası tərəfindən bu istiqamətdə bir sıra ənənəvi layihələr reallaşdırılıb. Gözdən əlil seçicilər onlar üçün hazırlanmış və seçki bülletenindəki məlumatların Brayl əlifbası ilə əks olunduğu trafaretdən istifadə etməklə seçki günü öz konstitusion hüquqlarını heç kəsin yardımı olmadan reallaşdırıblar. Hərəkət qabiliyyətində məhdudiyyətlər olan seçicilərin sərbəst şəkildə seçki məntəqələrinə gələrək səs verə bilmələri üçün müvafiq binaların müəyyənləşdirilməsi və onlarda panduslar quraşdırılması yolu ilə 2 042 seçki məntəqəsində xüsusilə bu kateqoriyadan olan seçicilər üçün əlverişli vəziyyət yaradılıb. Mərkəzi Seçki Komissiyasının seçici maarifləndirmə proqramı çərçivəsində bütün video çarxları alt yazısı ilə hazırlanıb ki, bu da eşitmə qabiliyyəti məhdud olan seçicilərin maarifləndirilməsində əhəmiyyətli rol oynayıb.

Seçkilərin nəticələrinin rəsmi qaydada müəyyən edilməsi üçün Seçki Məcəlləsində nəzərdə tutulmuş bütün müvafiq sənədlər aşağı seçki komissiyaları tərəfindən Mərkəzi Seçki Komissiyasına vaxtında təqdim edilib, dairə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları və onlara əlavə edilmiş sənədlər tam, obyektiv və hərtərəfli yoxlanılıb.

Eyni zamanda səsvermə günü müxtəlif mənbələrdə, o cümlədən onlayn platformalarda olan məlumatlar belə fərqli alternativ resurslardan, habelə seçki məntəqələrində quraşdırılmış veb-kamera görüntülərindən istifadə olunmaqla mümkün qədər geniş və hərtərəfli araşdırılıb.

Nəticədə 41 saylı Gəncə-Samux-Goranboy Seçki Dairəsinin 38 saylı, 61 saylı Qusar Seçki Dairəsinin 7 və 27 saylı, 65 saylı Salyan-Biləsuvar-Neftçala Seçki Dairəsinin 9 saylı, 68 saylı Sabirabad-Şirvan Seçki Dairəsinin 2 saylı, 77 saylı Lənkəran şəhər Seçki Dairəsinin 7 və 31 saylı, 92 saylı Göyçay-Ağdaş Seçki Dairəsinin 6 saylı, 99 saylı Bərdə Seçki Dairəsinin 2 saylı, 114 saylı Şəki şəhər Seçki Dairəsinin 1 saylı və 115 saylı Şəki kənd Seçki Dairəsinin 6 saylı seçki məntəqələrində seçicilərin iradəsinin müəyyən edilməsinə imkan verməyən qanun pozuntuları aşkar edildiyindən, həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi və məntəqə seçki komissiyalarının buraxılması üçün əsaslar müəyyən edilib.

Ona görə də seçkilərin nəticələri barədə Mərkəzi Seçki Komissiyasının Protokolu göstərilənlər nəzərə alınmaqla və dairə seçki komissiyalarının protokollarındakı məlumatlar ümumiləşdirilməklə tərtib edilməli, təsdiq edilərək seçkilərə yekun vurulmalı, imzalandıqdan sonra müvafiq sənədlərlə birlikdə Seçki Məcəlləsinin 203.1-ci maddəsinə əsasən seçkilərin nəticələrinin təsdiq olunması üçün Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməlidir.

Seçki Məcəlləsinin 203.5-ci maddəsinə əsasən, prezident seçkilərinin nəticələri haqqında protokol imzalandıqdan sonra 24 saat müddətində dərc edilir.

Mərkəzi Seçki Komissiyası yuxarıda göstərilənləri əsas götürərək Azərbaycan Respublikası Konstitusiyasının 102-ci, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 23.2-ci, 28.2-ci, 28.4-cü, 203.1-ci - 203.3-cü və 203.5-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə yekun vurulması ilə əlaqədar aparılmış araşdırmalar nəticəsində 41 saylı Gəncə-Samux-Goranboy Seçki Dairəsinin 38 saylı, 61 saylı Qusar Seçki Dairəsinin 7 və 27 saylı, 65 saylı Salyan-Biləsuvar-Neftçala Seçki Dairəsinin 9 saylı, 68 saylı Sabirabad-Şirvan Seçki Dairəsinin 2 saylı, 77 saylı Lənkəran şəhər Seçki Dairəsinin 7 və 31 saylı, 92 saylı Göyçay-Ağdaş Seçki Dairəsinin 6 saylı, 99 saylı Bərdə Seçki Dairəsinin 2 saylı, 114 saylı Şəki şəhər Seçki Dairəsinin 1 saylı və 115 saylı Şəki kənd Seçki Dairəsinin 6 saylı seçki məntəqələri üzrə seçicilərin iradəsinin müəyyən olunmasına imkan verməyən qanun pozuntuları aşkar edildiyindən, həmin seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.

2. 41 saylı Gəncə-Samux-Goranboy Seçki Dairəsinin 38 saylı, 61 saylı Qusar Seçki Dairəsinin 7 və 27 saylı, 65 saylı Salyan-Biləsuvar-Neftçala Seçki Dairəsinin 9 saylı, 68 saylı Sabirabad-Şirvan Seçki Dairəsinin 2 saylı, 77 saylı Lənkəran şəhər Seçki Dairəsinin 7 və 31 saylı, 92 saylı Göyçay-Ağdaş Seçki Dairəsinin 6 saylı, 99 saylı Bərdə Seçki Dairəsinin 2 saylı, 114 saylı Şəki şəhər Seçki Dairəsinin 1 saylı və 115 saylı Şəki kənd Seçki Dairəsinin 6 saylı seçki məntəqələri məntəqə seçki komissiyaları buraxılsın.

3. 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələri haqqında Mərkəzi Seçki Komissiyasının protokolu tərtib edilsin.

4. 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələri haqqında Mərkəzi Seçki Komissiyasının Protokolu təsdiq edilməklə seçkilərə yekun vurulsun.

5. 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələri haqqında Mərkəzi Seçki Komissiyasının Protokolu müvafiq sənədlərlə birlikdə seçkilərin nəticələrinin təsdiq olunması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilsin.

6. 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələri haqqında Mərkəzi Seçki Komissiyasının Protokolu imzalandıqdan sonra 24 saat ərzində dərc edilsin (Əlavə edilir).

7. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*11.02.2024*

# NÖVBƏDƏNKƏNAR AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİ

7 fevral 2024-cü il

## SƏSVERMƏNİN NƏTİCƏLƏRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ P R O T O K O L U

Bakı şəhəri

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarındakı bütün məlumatları ümumiləşdirərək respublika üzrə səsvermənin nəticələrini **müəyyən etmişdir:**

Seçki dairələrinin sayı
*Bir yüz iyirmi beş* — 125

Dairə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokolların sayı
*Bir yüz iyirmi beş* — 125

Seçki məntəqələrinin ümumi sayı
*Altı min beş yüz otuz yeddi* — 6 537

Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı
*On bir* — 11

Səsvermənin baş tutmadığı seçki məntəqələrinin sayı
*Sıfır* — 0

1. Seçicilərin ümumi sayı
*Altı milyon beş yüz on dörd min iki yüz iyirmi iki* — 6 514 222

a) seçici siyahılarında olan seçicilərin sayı *
*Altı milyon dörd yüz on doqquz min üç yüz səksən altı* — 6 419 386

b) əlavə seçici siyahısında olan seçicilərin sayı
*Otuz beş min altı yüz yetmiş altı* — 35 676

c) qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin sayı
*Əlli doqquz min yüz altmış* — 59 160

2. Mərkəzi Seçki Komissiyası tərəfindən dairə seçki komissiyalarına verilmiş seçki bülletenlərinin sayı
*Altı milyon beş yüz iyirmi dörd min iki yüz üç* — 6 524 203

3. Seçki bülleteni almış seçicilərin sayı **
*Dörd milyon doqquz yüz yetmiş səkkiz min doqquz yüz əlli* — 4 978 950

4. İstifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin sayı
*Bir milyon beş yüz qırx iki min yeddi yüz səkkiz* — 1 542 708

a) məntəqə seçki komissiyaları tərəfindən
*Bir milyon dörd yüz yetmiş min iki yüz otuz doqquz* — 1 470 239

b) dairə seçki komissiyaları tərəfindən
*Yetmiş iki min dörd yüz altmış doqquz* — 72 469

5. Korlanmış seçki bülletenlərinin sayı
*İki min beş yüz qırx beş* — 2 545

6. Seçki qutularında olan seçki bülletenlərinin sayı
*Dörd milyon doqquz yüz altmış yeddi min yeddi yüz doxsan beş* — 4 967 795

7. Etibarsız hesab edilmiş səslərin sayı
*Doqquz min səkkiz yüz iyirmi səkkiz* — 9 828

8. Etibarlı hesab edilmiş səslərin sayı
*Dörd milyon doqquz yüz əlli yeddi min doqquz yüz altmış yeddi* — 4 957 967

* Qeydiyyatdan çıxma vəsiqəsi alanlar istisna olmaqla
** Seçicilərin fəallığı: 76.43% [seçicilərin ümumi sayına nisbətən faizlə]

9. **Etibarlı hesab edilmiş səslərin prezidentliyə namizədlər arasında bölünməsi:**

| Seçki bülleteninə daxil edilmiş prezidentliyə namizədlərin soyadı, adı, atasının adı (əlifba sırası ilə) | Hər bir namizədin lehinə verilmiş səslərin sayı | | |
|---|---|---|---|
| | sözlə | rəqəmlə | faizlə |
| **ƏLİYEV Fuad Ağası oğlu** | *İyirmi altı min beş yüz on yeddi* | 26 517 | 0.54 |
| **ƏLİYEV İlham Heydər oğlu** | *Dörd milyon beş yüz altmış yeddi min dörd yüz əlli səkkiz* | 4 567 458 | 92.12 |
| **HƏSƏNQULİYEV Qüdrət Müzəffər oğlu** | *Səksən beş min dörd yüz on bir* | 85 411 | 1.72 |
| **MUSAYEV Elşad Nəbi oğlu** | *Otuz iki min səkkiz yüz səksən beş* | 32 885 | 0.66 |
| **MUSTAFA Fazil Qəzənfər oğlu** | *Doxsan səkkiz min dörd yüz iyirmi bir* | 98 421 | 1.99 |
| **NURULLAYEV Razi Qulaməli oğlu** | *Otuz doqquz min altı yüz qırx üç* | 39 643 | 0.80 |
| **ORUC Zahid Məhərrəm oğlu** | *Bir yüz yeddi min altı yüz otuz iki* | 107 632 | 2.17 |
| *Cəmi:* | *Dörd milyon doqquz yüz əlli yeddi min doqquz yüz altmış yeddi* | 4 957 967 | 100.00 |

**Mərkəzi Seçki Komissiyasının sədri** — *PƏNAHOV Məzahir Məhəmməd oğlu* ______

**Komissiya sədrinin müavini** — *QASIMOV Rövzət Afət oğlu* ______

**Komissiyanın katibi** — *MUXTAROVA Arifə Ağaverdi qızı* ______

**Komissiyanın katibi** — *RƏHİMOV Mikayıl Rəhman oğlu* ______

**Komissiyanın üzvləri:**
*CAVADOV Fuad Musa oğlu* ______
*ƏLİYEV Şaitdin Sərdar oğlu* ______
*ƏSGƏROV Bəxşeyiş Məmməd oğlu* ______
*ƏSGƏROVA Nailə Şahmərdan qızı* ______
*HƏSƏNOV Tofiq Eldar oğlu* ______
*İBRAHİMOV Ramiz Hilal oğlu* ______
*KAZIMOVA Validə Faiq qızı* ______
*MƏMMƏDOV İlham Sabir oğlu* ______
**M.Y.** *NADİRXANLI Nizami Hüseyn oğlu* ______
*ORUCOV Qabil Əhməd oğlu* ______
*PAŞAYEV Hüseyn Məmməd oğlu* ______
*QƏHRAMANLI Almas Əlisultan qızı* ______
*QULİYEV Etibar Cəfər oğlu* ______
*ŞAHBAZOV İlkin Zaur oğlu* ______

Protokol 2024-cü il fevralın 11-də saat 17 : 15 -də tərtib edilmişdir.

Komissiyanın həlledici səs hüquqlu üzvünün xüsusi rəyi haqqında qeyd:

______________________________

(soyadı, adı, atasının adı) (imza)

**Q e y d :**
Protokol Mərkəzi Seçki Komissiyasının həlledici səs hüquqlu üzvləri tərəfindən tərtib edilir və imzalanır. Mərkəzi Seçki Komissiyasının protokolla bütövlükdə və ya onun ayrı-ayrı hissələri ilə razılaşmayan üzvü protokola xüsusi rəyini əlavə edə bilər və bu barədə protokolda müvafiq qeyd aparılır.

# Ümumxalq etimadının zəfəri



## Mərkəzi Seçki Komissiyası İlham Əliyevin prezident seçkilərindəki qələbəsini təsdiqlədi

**Mərkəzi Seçki Komissiyasının dünən keçirilən iclasında 7 fevral prezident seçkilərində səsvermənin nəticələrinə dair protokol imzalanıb. Bununla da İlham Əliyevin prezident seçkilərindəki qələbəsi MSK tərəfindən təsdiq edilib.**

Mühüm siyasi kampaniya olan prezident seçkiləri elan olunduğu gündən səsvermə respublikamızın Seçki Məcəlləsinin tələbinə uyğun şəkildə həyata keçirildi. Seçki kampaniyası dövründə bütün hərəkət və tədbirlər MSK-nın təsdiq etdiyi təqvim planı üzrə aparıldı və hər hansı qanun pozuntusu, nöqsan qeydə alınmadı. Bütün parametrləri ilə bu seçki Azərbaycanda bir daha demokratiyanın təntənəsinə çevrildi. Beynəlxalq müşahidəçilər də seçkilərin demokratik keçirildiyini bəyan etdilər.

Bu həm də torpaqlarımızın işğaldan azad edilməsindən və ərazilərimizdə erməni separatçılığına son qoyulmasından sonra Azərbaycanda keçirilən ilk seçki idi. Əvvəlki bütün seçkilərdən fərqli olaraq budəfəki seçkilər bütöv Azərbaycanda keçirildi. Ölkə vətəndaşları həm də Qarabağ və Şərqi Zəngəzurda səs verdilər.

Ümumilikdə isə prezident seçkilərində seçicilər 125 seçki dairəsi üzrə 6537 seçki məntəqəsində öz iradələrini ifadə etdilər. Ən mühümü də odur ki, bu seçkidə seçicilər böyük ruh yüksəkliyi ilə iştirak etdilər. Səsvermədə respublika üzrə qeydə alınmış seçicilərin 76,43 faizi iştirak etdi ki, bu da yüksək seçici fəallığının göstəricisidir.

Qeyd edək ki, hələ seçki kampaniyası zamanı cəmiyyətin siyasi əhvali-ruhiyyəsi, rəy sorğuları təsdiq edirdi ki, xalqın mütləq əksəriyyətinin seçkiqabağı ovqatı bütünlüklə İlham Əliyevin namizədliyinə dəstək üzərində köklənib. Səsvermə günü qeydə alınan nəticələr bunun təsdiqi oldu və beləliklə, 7 fevral seçkisi xalqımızın Prezident İlham Əliyevə yüksək və sonsuz etimadının və ehtiramının növbəti təntənəsinə çevrildi, ümumxalq etimadının zəfəri oldu. Xalq ona zəfər yaşadan, torpaqlarımızı işğaldan azad edən, erməni separatizminə son qoyan, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən siyasətin ətrafında səfərbər olaraq, bütün uğurlarımızın müəllifi olan İlham Əliyevə etimad göstərdi. Seçicilərin 92,12 faizi, yaxud 4 milyon 567 min 458 nəfəri öz səsini İlham Əliyevə verdi. Bu, İlham Əliyevə əvvəlki prezident seçkiləri ilə müqayisədə verilən ən yüksək səsdir. İlham Əliyevlə digər namizədlər arasında səs fərqi isə 40 dəfədən çox oldu.

Budəfəki prezident seçkiləri ilə bağlı maraqlı məqamlardan biri də odur ki, bir sıra seçki məntəqələrində, o cümlədən Qarabağ və Şərqi Zəngəzurdakı seçki məntəqələrində seçicilərin 100 faizi öz səslərini İlham Əliyevə verdilər

Fevralın 7-də keçirilən prezident seçkiləri azad, ədalətli, şəffaf, demokratik meyarlar çərçivəsində keçirilməklə ölkəmizin tarixinə növbəti mühüm siyasi-tarixi hadisə kimi həkk olundu. İlham Əliyevin ətrafında səfərbər olan xalqımız Ulu Öndər Heydər Əliyevin ideyalarının və Azərbaycanın yüksəlişinin davamına səs verdi. Ümumilikdə isə prezident seçkiləri dövlətimizin və xalqımızın maraq və mənafelərini layiqincə təmin edən hazırkı siyasi kursun alternativsizliyini bir daha təsdiq etdi. Seçkinin qalibi olan İlham Əliyevin liderliyi ilə Azərbaycan qarşıdakı mərhələdə öz yüksəlişinin daha möhtəşəm zirvələrinə yuksələcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# "Çoxdandır belə pozitiv situasiya ilə rastlaşmamışdım"

## Bunu beynəlxalq müşahidəçilər seçkilərlə bağlı fikirlərini açıqlayarkən bildirirdilər

Azərbaycan tarixində yeni dövrün başlanğıcı olan, 30 ildən sonra ilk dəfə doğma vətənimizin bütün ərazilərində keçirilən prezident seçkilərinin olduqca yüksək seçici fəallığı şəraitində keçməsi yaddaşlara öz möhürünü vurdu. Bu seçki həm də beynəlxalq müşahidəçilərin yüksək dəyərləndirməsi ilə də yadda qaldı.

Zəfər seçkisi kimi tarixiləşən 7 fevral prezident seçkiləri 90 min 372 müşahidəçi, 190 xarici media qurumunun 200-dən artıq nümayəndəsi, 72 beynəlxalq təşkilatı təmsil edən şəxslərin iştirakı ilə keçirildi. Xaricdə yaşayan soydaşlarımız və ya əcnəbilər 1000 seçki məntəqəsində quraşdırılan veb-kameralar vasitəsilə səsvermə prosesini canlı izləyə bildilər.

Seçkiləri müşahidə edən beynəlxalq təşkilatların nümayəndələri ayrı-ayrı bölgələrdə seçki məntəqələrini gəzərək seçki prosesini müşahidə etdilər. Müşahidəçilər prezident seçkilərinə hazırlığın yüksək səviyyədə təşkil olunduğunu, səsvermənin xüsusi ovqatla, seçici fəallığı ilə keçdiyini açıqlamalarında məmnunluqla qeyd etdilər.

7 fevral prezident seçkilərində Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ABŞ-nin "Oracle Advisory Group" təşkilatı ilə birgə 40 seçki dairəsi üzrə 500 seçki məntəqəsində, Rəy Monitorinq Mərkəzi 33 seçki dairəsi üzrə 200 seçki məntəqəsində, "Sosioloji Tədqiqatlar Mərkəzi" MMC 25 seçki dairəsi üzrə 125 seçki məntəqəsində "exit-poll" keçirib.

Seçkiləri beynəlxalq müşahidəçi qismində izləyən Beynəlxalq Parlamentarilər Konqresinin (BPK) üzvü Soro Fobeh mətbuata verdiyi müsahibəsində deyib ki, müşahidə apardığımız bütün seçki məntəqələrində bizi çox yaxşı qarşıladılar və ünvanladığımız bütün suallara dolğun cavab verdilər. Onun sözlərinə görə, seçki məntəqələrində beynəlxalq müşahidəçilərin fəaliyyəti üçün hər cür şərait yaradılıb.

Beynəlxalq Parlamentarilər Konqresinin müşahidəçisi Barri Asmaou isə açıqlamasanda qeyd edib ki, səsvermə zamanı hansısa bir münaqişəyə rast gəlməyiblər: "Seçkilərdə çox yüksək səviyyədə ictimai iştirakçılıq müşahidə etdik, məntəqələrdə seçicilərin aktivliyini görürük".

ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) və ATƏT-in Parlament Assambleyasının nümayəndə heyəti seçki prosesini Qarabağ və Şərqi Zəngəzurda müşahidə ediblər.

DTİHB-nin Danimarkadan olan müşahidəçisi Larn Nyholm və rusiyalı Yevgeni Luginov Ağdam, Füzuli, Şuşa və Xankəndi şəhərlərində dairə seçki komissiyalarında və məntəqələrdə olublar. ATƏT Parlament Assambleyası nümayəndə heyətinin rəhbəri Artur Gerasimov və ATƏT PA-nın əməkdaşı Tim Knoblau isə Şuşa, Xankəndi və digər ərazilərdə seçki prosesini izləyiblər.

İtaliya parlamentinin üzvü Andreo di Cuzeppe mediaya açıqlamasında xüsusi olaraq vurğulayıb: "Biz şəffaf seçkinin, beynəlxalq standartlara uyğun seçkinin, seçicilərin axınının şahidi olduq".

Seçkiləri izləyən digər avropalı deputat Naiti Buntrioni 7 fevralda keçirilən prezident seçkiləri haqqında fikrini belə ifadə edib: "Çoxdandır belə pozitiv bir situasiya ilə rastlaşmamışdım. Bu, onun göstəricisidir ki, hazırkı hökumət və bundan əvvəlki hökumətlər əhali ilə öz arasında etimad yaratmağı bacarıb. Mən buradakı təcrübəni ölkəmizdə də tətbiq edəcəyəm". Digər avropalı deputat Salvatori Kayata da həmkarlarının fikirləri ilə həmrəy olduğunu bildirib.

GUAM PA-nın bəyanatında isə deyilir ki, seçkidə hər hansı qanun pozuntusu və ya şikayət qeydə alınmayıb.

Seçkiləri müşahidə edən Dayanıqlı İnkişaf Məqsədləri üzrə tanınmış beynəlxalq ekspert, pakistanlı müşahidəçi Qayser Nəvvabın seçkilərə münasibəti belə olub: "Gənclər də daxil olmaqla, xeyli sayda insan ölkənin demokratik ruhunu əks etdirən seçki prosesində fəal iştirak etdi. Müşahidələrimdə diqqətimi çəkən məqamlardan biri də insanların seçkilərə ailəvi gəlmələridir. Valideynlər azyaşlı uşaqları ilə birlikdə seçki məntəqələrinə həvəslə gəlib səs verirlər. Bu fakt erkən yaşlarda demokratiya haqqında məlumatlılığı aşılamaq məqsədi daşıyır. Uşaqların həyəcanına və iştirakına şahidlik etmək ürəkaçan idi. Bu, gələcək nəsillərdə demokratik dəyərlərin təşviqinə sadiqliyi nümayiş etdirir".

Prezident seçkilərini çox əlamətdar hadisə kimi qiymətləndirən ekspert bu seçkilərin nəticələrinin ölkənin gələcək inkişafı üçün uğurlu olacağına inandığını bildirib.

Prezident İlham Əliyevin seçkidə qələbəsi haqqında operativ xəbərlər Türkiyənin "Anadolu" İnformasiya Agentliyində, Macarıstanın ingilisdilli xəbər portalı "Daily News Hungary", "Origo", "Magyar Nemzet", "Demokrata" və digər mətbuat orqanlarında yayılıb. Beynəlxalq internet nəşri olan "Breaking News Network Worldwide" isə "Azərbaycanda seçkidə yüksək seçici fəallığı "Xalq üçün qələbə" sərlövhəsi ilə məqalə dərc edib.

Avropa, ABŞ, həmçinin Yaxın Şərq və Asiyanın, o cümlədən Çin və Pakistanın media orqanları qeyd edirlər ki, seçki ilk dəfə Azərbaycanın müasir tarixində ölkənin öz ərazisi üzərində tam nəzarəti əldə etməsi şəraitində keçirilib. Ölkə ərazisinin təxminən 20 faizi 30 il ərzində işğal altında olub.

"The Washington Post", "Euronews" kimi nüfuzlu media orqanları səsvermə günü seçicilərin yüksək fəallığını və əhvali-ruhiyyəsini qeyd edirlər. "Euronews" yazır ki, Prezident İlham Əliyevin azərbaycanlılar arasında nüfuzu ölkənin Qarabağ üzərində tam nəzarəti bərpa etməsindən sonra daha da artıb. Bu nəşr öz övladlarının xoşbəxt gələcəyini indiki seçkilərlə əlaqələndirən sadə Azərbaycan vətəndaşlarının sözlərini təqdim edib.

"Associated Press" (AP) agentliyinin saytında prezident seçkisinə həsr olunmuş məqalədə də seçkinin vətəndaş fəallığı ilə keçdiyi qeyd edilir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Özəl sektorun ölkə iqtisadiyyatında özəl yeri var

## Sahibkarlar bu mövqelərinin daha da möhkəmlənməsinə səs verdilər

Fevralın 7-də xalqın yekdil səsi ilə İlham Əliyev yenidən Azərbaycan Prezidenti seçildi. Bu, cənab İlham Əliyevin dövlət başçısı kimi indiyədək apardığı siyasətə xalqın bütün təbəqələri tərəfindən verilən qiymət idi.

Digər peşə sahibləri kimi, sahibkarlar da seçkidə mütəşəkkil iştirak etdilər. Özəl sektorun nümayəndələrinin bu fəallığı təsadüfi deyildi. Bu yerdə yaxın tarixə qısa nəzər salaq. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra ilk illər çətin iqtisadi böhranla üzləşmişdi. Əhalinin yaşayışı aşağı düşmüş, iqtisadi fəallığı məlum səbəblərdən zəifləmişdi. Belə vəziyyətdən xilas olmaq üçün uzun və ağrılı yol keçmək lazım idi. Həmin yollardan biri də ölkədə özəl sektorun təşəkkül tapmasına və inkişafına yaşıl işıq yandırmaq idi. Amma bu, asan deyildi. Sovetlər birliyindən bizə inzibati amirlik üsulu miras qalmışdı. Bazar iqtisadiyyatı yolunu tutan ölkəmiz həmin köhnə yolla irəliləyə bilməzdi. Odur ki, Ulu Öndər Heydər Əliyev keçmiş sovetlər birliyində ilk dəfə olaraq geniş iqtisadi islahatların aparılmasına start verdi. Bunun üçün yeni qanunlar qəbul olundu, mütərəqqi təcrübələr tətbiq edildi. Beləliklə, ölkədə tədricən özəl sektor formalaşmağa başladı.

Prezident İlham Əliyev ölkəyə rəhbərlik etməyə başlayandan isə sahibkarlığın inkişafı özünün yeni dövrünə qədəm qoydu. Özəl sektorun inkişafı üçün dövlət dəstəyi daha da artırıldı, yeni fəaliyyətə başlayan sahibkarlara güzəştli şərtlərlə kreditlər verilməklə onların ilkin sərmayə əldə etməsinə imkan yaradıldı. Biznesə dövlət qurumlarının müdaxiləsini azaltmaq üçün bir çox qanuna əlavələr olundu və ən başlıcası, özəl sektor subyektlərində əsassız yoxlamalara son qoyuldu. Bundan əlavə, sahibkarların hüquqları qanunla qarant altına alındı, bir çox sahədə lisenziyaların verilməsi ləğv edildi, lisenziya alınması məcburi olan sahələrdə isə bu prosedurlar sadələşdirildi. Bütün bunlardan sonra sahibkarlar özlərini güvəndə hiss etdilər və ölkə iqtisadiyyatının inkişafında fəal iştirak etməyə başladılar. Bu gün isə Azərbaycanın iş adamları xarici ölkələrdə də çoxsaylı layihələr reallaşdırırlar.

Ölkə üzrə özəl sektorun vəziyyəti barədə son statistikaya baxaq. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ötən il ölkə üzrə qoyulan ümumi sərmayənin 43,9 faizi qeyri-dövlət sektoruna məxsus olub və həmin dövrdə sənayedə qeyri-dövlət sektorunun payı 84,5 faizə çatıb. Bu rəqəmlər bir daha ölkə iqtisadiyyatında özəl sektorun rolunun nə qədər önəmli olduğunu göstərir.



Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sözügedən sahə ilə bağlı icra edilən iqtisadi islahatlar dünyanın nüfuzlu beynəlxalq təşkilatları tərəfindən də yüksək qiymətləndirilir. Biznes və investisiya mühitinin əlverişli olduğunu xarakterizə edən Dünya Bankının və "Doing Business" hesabatının 2008-ci və 2018-ci illərdəki nəşrlərində Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan edilib. 2019-cu ildə isə ölkəmiz ən çox islahat aparan ölkə kimi 190 dövlət arasında 28-ci olub. Qurumun sonuncu hesabatına əsasən, Azərbaycan biznesə başlama indikatoruna görə dünyada 9-cu, kreditlərin əldə olunmasına görə 1-ci sırada dayanıb. Bu da son deyil. Beynəlxalq aləmdə ən nüfuzlu təşkilat sayılan Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatının sonuncu reytinq nəşrində Azərbaycan dünyada reytinq üzrə ən yüksək artım tempinə (11 pillə irəliləyiş) malik ölkə olaraq 58-ci yerdə qərarlaşıb. Hesabata əsasən, Azərbaycan uzunmüddətli strategiya üzrə dünyada 10-cu yerdə, Prezident İlham Əliyevin islahatlara sadiqliyi sayəsində isə 5-ci olub. Dünya İqtisadi Forumunun digər nüfuzlu hesabatı olan "İnklüziv İnkişaf İndeksi"nin sonuncu nəşrinə əsasən, Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında 3-cü yerə yüksəlib. Sözsüz ki, bütün bu uğurlar Prezident İlham Əliyevin apardığı iqtisadi islahatlar və sahibkarlığın inkişafına göstərdiyi dəstək sayəsində mümkün olub.

Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişafı sahəsində görülən tədbirlərin nəticəsində ölkəmizdə iqtisadi aktivliyin bərpası sahibkarlıq subyektlərinin, buna uyğun olaraq yeni iş yerlərinin artımı ilə müşayiət olunur. Odur ki, son illər özəl bölmənin qeyri-neft-qaz sektoru üzrə vergi daxilolmalarında payı 74 faizi ötüb. İqtisadi artım həmçinin işgüzar aktivliyin və sahibkarların sayının ildən-ilə artmasına səbəb olub. Əgər 2002-ci ildə ölkədə 180 minə yaxın sahibkarlıq subyekti fəaliyyət göstərirdisə, 2023-cü ilin əvvəlinə qeydiyyatda olan vergi ödəyicilərinin sayı 1,4 milyondan çox olub, aktiv vergi ödəyicilərinin sayı isə 712 min nəfərə çatıb.

Sahibkarlığın inkişafına dövlət dəstəyi sayəsində Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin verilməsi davam edir. Bu yerdə onu da qeyd edək ki, dövlət büdcəsinə əlavə yük yaratmadan güzəştli kreditlərin verilməsi kreditləşdirmədən geri dönən vəsaitlər hesabına təmin olunur. Məlumat üçün bildirək ki, İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən indiyəcən iqtisadiyyata güzəştli kredit dəstəyi çərçivəsində sahibkarlıq subyektlərinin 42,7 min investisiya layihəsinin maliyyələşdirilməsinə 2,8 milyard manat güzəştli kreditlər verilib. Maliyyələşdirilmiş layihələr hesabına 178 mindən çox yeni iş yerinin açılması imkanı yaranıb ki, bunun da 80 faizdən çoxu regionların payına düşüb. Güzəştli kreditlərdən yararlanan sahibkarlıq subyektlərinin də 75 faizi regionlarda fəaliyyət göstərənlər olub. Bu iki rəqəm isə regionların inkişafına həm də özəl sektorun hesabına nail olmaq məqsədindən xəbər verir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



Fevralın 7-də Azərbaycan tarixinin yeni və möhtəşəm bir səhifəsinə imza atdı. Xalqımız mütəşəkkil şəkildə seçkilərdə iştirak edərək növbəti 7 ildə ölkənin idarə edilməsini yenidən əvəzsiz liderinə - İlham Əliyevə həvalə etdi.

# İlham Əliyevin növbəti zəfəri

## Bu, görülən qlobal işlərə xalq tərəfindən verilən obyektiv qiymətdir

Məlumdur ki, Qərbdəki bəzi bədxahlar, son vaxtlar erməni lobbisinin maliyyəsindən istifadə edən siyasətçilər ölkəmizə və dövlətimizin başçısına olmazın böhtanlar atırlar. Səbəbi məlumdur - Azərbaycanın öz ərazisini erməni separatçılarından təmizləməsi. Amma onlar bu zaman Prezident İlham Əliyevin qətiyyətini və xalqımızın öz liderini birmənalı dəstəkləməsini nəzərə almamışlar. Elə 7 fevral seçkisinin nəticəsi də həmin dəstəyin nümayişi idi. Bununla bədxahlar bir daha xalqın öz Liderinə inamının şahidi oldular.

Şübhəsiz ki, dövlət başçısına olan bu inamın arxasında onun 20 il ərzində gördüyü işlər dayanır. Vaxtilə hətta Qərbdəki beyin mərkəzlərinin Prezident İlham Əliyevi ən islahatçı lider, Azərbaycanı ən sürətli inkişaf edən ölkə kimi dəyərləndirməsi də bu üzdəndir. Yadınızdadırsa, dünya iqtisadiyyatında 2008-ci il qlobal böhranı hökm sürdüyü dövrdə Azərbaycan sayılı ölkələrdən oldu ki, iqtisadiyyatında yüksək faizli artım müşahidə edilirdi.

Ölkəmizin belə uğur qazanmasında şübhəsiz ki, Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə aparılan sosial-iqtisadi islahatlar önəmli rol oynayır. Dövlət başçısı islahatların aparılmasına kompleks yanaşır. O səbəbdən icra edilən islahatlar bütün sahələrdə uğur qazanılmasına imkan verir.

Azərbaycan bu gün Cənubi Qafqaz iqtisadiyyatında 64 faiz paya malikdir. Bu rəqəm onu göstərir ki, ölkəmiz regionun təkcə siyasi deyil, həm də iqtisadi lideridir. Ən önəmlisi isə, dövlət başçısının dəfələrlə vurğuladığı kimi, Azərbaycan siyasi müstəqilliklə yanaşı, iqtisadi müstəqilliyə də malikdir. Hazırda Azərbaycanın 30 il erməni işğalçıları tərəfindən viran qoyulmuş torpaqlarda nəhəng quruculuq-bərpa işlərini aparması həmin iqtisadi müstəqilliyin hesabınadır. Bu işdə Azərbaycan heç bir beynəlxalq maliyyə qurumunun və ya donor təşkilatının qapısını döymür. Əgər döysəydi, Allah bilir ölkəmizin ziyanına hansı şərtlər irəli sürəcəkdilər. Müstəqilliyimizin ilk illərində bunun dəfələrlə şahidi olmuşuq.

Prezident İlham Əliyevin iqtidarda olduğu müddətdə iqtisadi potensialımız dəfələrlə artmışdır - ÜDM-in həcmi 7,3 milyard dollardan 72,4 milyard dollara yüksəlmişdir. Həmin iqtisadi artımdan adambaşına düşən pay da artmışdır - 888,5 dollardan 7126 dollara çatmışdır. Digər faktlar: əgər 2003-cü ildə Azərbaycanın 1,6 milyard dollar valyuta ehtiyatı vardısa, indi bu ehtiyat 43 dəfə artaraq 68,5 milyard dollaracan çatmışdır. Dövlətin büdcə gəlirləri isə 1,2 milyard manatdan 35,6 milyard manata yüksəlmişdir.

Ölkəmizin iqtisadi yüksəlişini sübut edən digər bir göstərici isə xarici ticarət dövriyyəsidir. Ötən illər Azərbaycanın xarici ticarət dövriyyəsinin dəyəri 5,2 milyard dollardan 51,2 milyard dollara yüksəlmişdir. Bu illər ixrac edilən məhsulların dəyərində isə 13,1 dəfə artım olmuşdur.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, onun apardığı siyasətin başlıca məqsədi Azərbaycan vətəndaşının sosial rifahını yaxşılaşdırmaqdır. Bu məqsədlə ölkədə iqtisadi islahatlar sosial islahatlarla paralel aparılır. Dövlət mütəmadi olaraq pensiyaları, sosial müavinətləri, təqaüdləri və digər sosial ödənişləri artırır. Digər tərəfdən vaxtaşırı qəbul edilən sosial paketlərin icrası əhalinin sosial güvənliyini artırır. Dövlət başçısının 5 fevral 2024-cü il tarixli "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" sərəncamı da əhalinin həssas təbəqəsi olan pensiyaçılara göstərdiyi növbəti qayğının təzahürüdür.

Ölkəmizdə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində görülən tədbirlər beynəlxalq təşkilatların da diqqətindən yayınmır. Belə ki, ölkəmizdə yoxsulluğun azaldılması istiqmaətində icra edilən dövlət proqramları təcrübəsi BMT tərəfindən beynəlxalq miqyasda yayılmaq üçün nümunə göstərilmişdir.

Bütün bunlardan və qeyd etmədiyimiz saysız digər faktlardan sonra cənab İlham Əliyevin 7 fevral seçkilərində yüksək səs çoxluğu ilə qalib gəlməsi təbiidir. Bu, görülən qlobal işlərə xalq tərəfindən verilən obyektiv qiymətdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Qələbənin etirafı

## Xarici KİV 7 fevral seçkilərini şərh edir

Azərbaycanda keçirilən prezident seçkiləri hələ də bütün dünyanın diqqətini özünə çəkməkdədir. Dünyada əksər kütləvi informasiya vasitələri bu seçkilər barədə müxtəlif yazılar dərc edir, ekspertlərin şərhlərini oxuculara təqdim edirlər.



Mediada dərc olnunan bu çoxsaylı yazıları iki əsas istiqamətdə qruplaşdırmaq daha düzgün olardı. Azərbaycanın maraqlarını gözləyənləri, dövlətimizin demokratik dəyərlərə verdiyi qiyməti obyektiv şərh etmək istəyənləri birinci istiqamətə aid edə bilərik. Bu yazılar bir qayda olaraq pozitivdir. Bizi tənqid hədəfinə çevirmək istəyənlər, nəyin bahasına olursa-olsun qara yaxmağa çalışanlar ikinci istiqamətə aiddir.

Erməni işğalçılarının Qarabağdan qovulması, torpaqlarımızın sürətlə azad edilməsi ölkəmizdə keçirilən prezident seçkilərinə bütün dünyada ciddi marağın artmasına səbəb oldu. Qalib xalq, qalib ordu və qalib Prezident bu gün dünya mediasının diqqət mərkəzindədir. İnternet resurslarında müxtəlif nəşrləri vərəqləyən hər bir kəs artıq dünyada bizim fəqrli nüfuz sahibi olduğumuzu aşkar görə bilir. Bir sıra dövlət başçılarının, prezidentlərin təbriklərində bizim nə dərəcədə yüksək nüfuza sahib olduğumuzu aydın görmək mümkündür.

Almaniyanın "ZDF" telekanalı, Argentinanın "realpolitik.com.ar", İndoneziyanın "Radio Republik İndoneziya" radiosu, Rusiyanın "Vedomosti", Bəhreynin "newsofbahrain.com" portalı, Çilinin "el periodista" saytı və digər media orqanları seçkilərin gedişi, nəticələri, yerli və beynəlxalq müşahidəçilərin iştirakından və səsvermə prosesinin necə mükəmməl aparılmasından yazıblar.

Diqqət çəkən odur ki, bir çoxu beynəlxalq müşahidəçi olmaqla, minlərlə müşahidəçi, siyasi partiyaların təmsilçiləri və qeyri-hökumət təşkilatlarının üzvləri prosesin azad, şəffaf və demokratik şəraitdə keçdiyini təsdiqləyiblər. Vacib məqam ondan ibarətdir ki, bu seçkilər Azərbaycanın müstəqilliyinin bərpasından sonra bütün ölkə ərazisində baş tutan ilk seçkilər kimi tarixə düşəcək.

"ZDF" telekanalına müsahibəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dövlət başçısının bəzi fikirlərinin təhrifinə etiraz edərək məsələyə aydınlıq gətirmiş, bizim heç bir ölkəyə qarşı ərazi iddialarında olmadığımızı bildirmişdir.

Ümumiyyətlə, dünya mediasında seçkilərin belə diqqətlə izlənilməsi bu qənaətə gəlməyə imkan verir ki, Azərbaycan beynəlxalq aləmdə getdikcə daha yüksək nüfuz sahibinə çevrilir. Biz artıq dünya çapında əvvəlki illərlə müqayisədə mövqeyi daha da möhkəmlənmiş bir dövlətə çevrilmişik. Digər bir tərəfdən isə qalib sərkərdə kimi ölkədə Prezident İlham Əliyevlə mübarizə apara bilən siyasi xadim yoxdur. Uzun illər erməni faşistləri ilə mübarizə aparan, ordunu yeni nəsil texnologiyalarla savaşa hazırlayan Ali Baş Komandan nəinki Azərbaycanda, hətta bütün türkdilli xalqların və dünya çapında belə möhtəşəm nüfuza sahib olmuşdur. Azərbaycan xalqı əsrlərboyu öz tarixində ilk dəfə döyüşkən xalq titulunu geri qazana bilmişdir.

Rusiya Elmlər Akademiyasının Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər Milli Tədqiqat İnstitutunun Postsovet Araşdırmaları Mərkəzinin böyük elmi işçisi, tarix elmləri namizədi Stanislav Pritçin açıqlamasında bildirmişdir ki, İlham Əliyevin bu seçkilərdə qalib gəlməsi Azərbaycan üçün tarixi bir hadisədir: "Ona görə ki, İlham Əliyev Azərbaycanın işğalda olan torpaqlarını azad, suverenliyini bərpa edib". Politoloq belə hesab edir ki, işğaldan azad olunmuş torpaqların bərpası, ümumiyyətlə, Azərbaycan ərazisində müasir tikinti-quruculuq işlərinin görülməsi ona gətirib çıxaracaq ki, 5 ildən sonra Cənubi Qafqazda tamamilə başqa bir həyat olacaq.

O ki qaldı Azərbaycana qarşı bir neçə ölkənin və qurumun qərəzli münasibət sərgiləməsinə, ekspertlər rəsmi Bakının ərazi bütövlüyünü bərpa etməsini bəzi qurumların maraqları xaricində olması ilə əlaqələndiriblər.

Beynəlxalq Münasibətlər Akademiyasının rəhbəri ekspert Simon Kopadze seçkiləri belə şərh edib ki, bu seçkilər mühümdür. Çünki 30 ildən sonra ilk dəfə bütöv Azərbaycanda tarixi seçkilər keçirilmişdir: "30 ildir seçkilər bütöv Azərbaycanda keçirilmirdi. Bu dövrdə müəyyən rayonlar işğal olunub və seçkilərin indi keçirilməsi tam olaraq ona görə vacibdir ki, bu gün bu proses azad olunmuş ərazilərdə də keçirilir".

Bu seçkilər mənəvi baxımdan həm də Azərbaycan xalqının düşmən üzərində çaldığı möhtəşəm qələbənin təntənəsidir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

Gördüklərimiz, şahidi olduqlarımız şirin bir yuxudurmu, xəyaldırmı, ilahi?! Nə baş verir? Əlçatmaz hesab etdiyimiz arzular necə gerçəkliyə qovuşur?! Möcüzə Allaha məxsusdur, deyirlər. Allahmı yaratdı bu möcüzəni?! Yox! Yaradanın xeyir-duası, Müzəffər Ali Baş Komandan İlham Əliyevin güclü sərkərdə iradəsi ilə qəhrəman Azərbaycan əsgəri reallaşdırdı təşnəsi olduğumuz bu zəfəri.

# Sabahın xeyir, Azərbaycan!

Üzərinə götürdüyü xilaskarlıq missiyasını şərəflə yerinə yetirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqın dilində hər arzunun nəqarəti kimi səslənən qalib adını Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazdı, nankor, faşist xislətli qonşularımıza sinəmizə çəkdiyi çalın-çarpaz dağlara, ürəyimizə vurduğu yaralara məlhəm oldu. 30 il ərzində möhlətdən, xəcalətdən əyilən qəddimizi düzəltdi, könlümüzdən perik düşmüş sevinci, çöhrəmizdən qeybə çəkilmiş təbəssümü bizə qaytardı.

7 fevral prezident seçkilərində xalqımız sözün həqiqi mənasında gerçək bir bayram sevinci yaşadı. Seçkilərdə yüksək mütəşəkkillik nümunəsi göstərən qədirbilən xalq qəlbinin hökmü ilə öz doğru seçimini edərək xalqın və dövlətin taleyini qarşıdakı yeddi ildə yenidən özünün ən layiqli övladına - İlham Əliyevə etibar etdi.

Əslində, seçkiqabağı təşviqat kampaniyasında bir namizəd olaraq İlham Əliyevi təbliğ etməyə ehtiyac da yox idi. Hələ 20 il öncə hər bir ölkə vətəndaşının Prezidenti olacağını yüksək tribunadan gur səslə bəyan edən və hər zaman olduğu kimi sözünə sahib çıxan İlham Əliyev xalqın gözündə güclü sərkərdə, əsl xilaskar, qayğıkeş rəhbər kimi formalaşıb, könüllərdə məhəbbət və ehtiram yuvası qurub. İlham Əliyevin prezidentliyi dönəmində Azərbaycan ərazisinin 20 faizi işğal altında olan ölkədən dünyanı heyran qoyan 44 günlük bir savaşla düşməni diz çökdürüb ərazi bütövlüyünü təmin edən bir dövlətə çevrilib. Ermənistan silahlı qüvvələrinin işğalçılıq siyasəti nəticəsində yurdundan, rahat ev-eşiyindən didərgin salınan bir milyon soydaşımız qaçqın və məcburi köçkün kimi respublikanın bütün bölgələrinə səpələnərək çadır düşərgələrində, yük vaqonlarında, torpaq daxmalarda ağır məişət şəraitində məşəqqətlər yaşayıb. Məhz İlham Əliyevin prezidentliyi dövründə hər cür sosial infrastruktura malik çoxsaylı yeni qəsəbələr salınıb. Yeni qəsəbələrə köçürülüb mənzil rahatlığına qovuşan məcburi köçkünlərə İlham Əliyevin



dediyi sözlər yəqin ki, yaddaşlarda qalır: "Bu yeni qəsəbələr müvəqqətidir. Əmin olun ki, hər kəs tezliklə öz dədə-baba yurduna qayıdacaq. Biz ermənilərin dağıdıb viran qoyduqları kəndləri, şəhərləri yenidən, həm də əvvəlkindən də gözəl tikib öz sahiblərinə qaytaracağıq".

Bu gün dövlət başçısı həmin vədini də yerinə yetirir. İşğaldan azad olunmuş Qarabağda, Şərqi Zəngəzurda qürurverici hadisələr cərəyan edir. Müharibənin yaratdığı xarabalıqlar üzərində salınan yaraşıqlı, hər cür rahatlığı olan yaşayış məntəqələrinə böyük qayıdış davam edir. Bu yaxınlarda, qarlı-şaxtalı günlərdə Laçında olarkən ata yurdunu ziyarət edən Rəhim Əliyevlə görüşdük. Doğulduğu, qayğısız uşaqlıq illərini yaşadığı evi, həyəti göstərib duyğularını gizlədə bilmədi:

- Şəhərə bitişik olan kəndimizin adı Qarıkahadır. İkimərtəbəli evimiz vardı. İşğaldan sonra uçuq divarları qalmışdı. Kəndimizdə əksəriyyət qohum-əqrabadır. Ermənilərin kəndimizdə dağıtdığı evlərin çoxu bərpa olunub. Həm də yüksək zövqlə. Artıq xeyli ailə köçüb gəlib, burda yaşayır. Tikinti, abadlıq işlərində işçi qüvvəsinə ehtiyac çoxdur. Bizim evin də yenidən tikilməsi nəzərdə tutulur. Mən bir laçınlı kimi özümü xoşbəxt sayıram. Laçını bizə qaytaran Ali Baş Komandan İlham Əliyevə, qəhrəman Azərbaycan əsgərinə minnətdarlığımızın həddi-hüdudu yoxdur. Rayonumuzda vüsət alan genişmiqyaslı tikinti, abadlıq-quruculuq işlərinin hədəfi bölgəni müasir turizm mərkəzinə çevirməkdir. Böyük inşaat meydanına çevrilən Laçının çıraqban gecələri, qaynar gündüzləri ermənilərə əsl gözdağıdır.

Bu gün gözümüz önündə müstəqil Azərbaycan dövlətçiliyinin şanlı tarixi yazılır. Bu qürurverici salnamənin baş müəllifi İlham Əliyevdir. Dönüb son 20 ildə keçdiyimiz yola nəzər salaq. Haradan başladı bu yol? Haralara aparıb çıxardı bizi? Öz vətənində məcburi köçkünə çevrilən soydaşlarımız çadırlarda, yük vaqonlarında zillət çəkir, dövlətimiz beynəlxalq təzyiqlər, ikili standartlar məngənəsində sıxılır, əsəblərimiz tarıma çəkilirdi. Ermənilər Şuşada, Cıdır düzündə keflənib yallı gedir, Azərbaycanın dilbər guşələri olan Laçında, Kəlbəcərdə, Qubadlıda xumarlanır, hətta həyasızcasına "yeni müharibə yeni ərazilər" şüarı ilə bizi təhdid edirdilər.

Nəyi necə və nə zaman etməyi çox yaxşı bilən Müzəffər Ali Baş Komandan İlham Əliyev isə soyuqqanlıqla qarşıya qoyduğu hədəfə ən az itkilərlə çatmağı planlayırdı. Bilirdi ki, gözlənilən həlledici məqam uzaqda deyil. Nəhayət, o gün yetişdi. Ali Baş Komandan "hücum" düyməsini basdı. İgid oğullarımızın "dəmir yumruq"ları nifrətlə düyünləndi, intiqam istəyi ilə alışıb yanan ürəklər vulkan kimi püskürdü. 44 gün davam edən müharibənin hər günü zəfərlə naxışlandı. Qələbə soraqlı cəbhə xəbərləri gerçək bayram ovqatı yaradır, vətən sevdalı, yurd həsrətli ürəkləri sevinc selinə qərq edirdi.

Müharibə qansız-qadasız, qələbə qurbansız olmur. Ərazi bütövlüyümüzün bərpası uğrunda müqəddəs savaşda oğullarımız şəhidlik zirvəsinə ucaldı. Onların əziz xatirəsi xalqımız və dövlətimiz tərəfindən həmişə əziz tutulur, hörmət və ehtiramla yad olunur. Dövlət qayğısının dəyişməz ünvanı şəhid ailələri və müharibədə sağlamlığını itirmiş qazilərdir.

Bu günlər Azərbaycanın bütün regionlarında bayram ovqatı yaşanır. 7 fevral prezident seçkilərinin ilk nəticələri elan olunar-olunmaz insanlar meydanlara, küçələrə axışdılar. Hamı bir-birini təbrik edir, gözaydınlığı verirdi. Əlbəttə, İlham Əliyevin bu seçkidə mütləq səs çoxluğu ilə qalib gəlməsi gözlənilən idi. Amma hər kəs bu parlaq qələbədən aldığı sevinc payını bölüşmək, necə deyərlər, onun dadını çıxarmaq istəyirdi. Qoy olsun! Bu xalqın da sevinib gülmək haqqı var axı.

İlham Əliyev xalq, vətən və dövlət qarşısındakı tarixi xidmətləri, şərəflə reallaşdırdığı xilaskarlıq missiyası ilə bu qələbəni özünə haqq etmişdi. Bu qələbə Qarabağ zəfərinin davamı idi. Bu seçkidəki fərqli məqamlar sözün həqiqi mənasında qürurverici idi. Əvvəla, 30 illik fasilədən sonra seçki Azərbaycanın ərazi bütövlüyü şəraitində keçirilirdi. İkincisi və ən əsası, Qarabağ zəfərinin baş memarı İlham Əliyev ailə üzvləri ilə birlikdə işğaldan azad edilmiş, erməni separatçılarının şeytan yuvasına çevirdikləri Xankəndidə səs verdi. Bu, bütün dünyaya bir mesaj idi. Sülh, əməkdaşlıq, demokratiya mesajı.

Deyirlər, sonda sevinən qalibdir. Səbirli, dözümlü xalqımız illərin zülmünə, zillətinə təmkinlə dözüb inamını itirmədi, zülmət gecələrdən sonra parlaq günəşin doğacağına inandı. Və yanılmadı. Sonda sevindi. Etibar etdiyi, etimad göstərdiyi, hər zaman ətrafında sıx birləşdiyi qüdrətli oğlu İlham Əliyev müdrik siyasəti, yenilməz iradəsi, əsl sərkərdə hünəri ilə Azərbaycanı aydın sabahlara qovuşdurdu. Sabahın xeyir, Azərbaycan!

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

Azərbaycanın Cənubi Qafqazda yaratdığı geosiyasi reallıqlar Fransa başda olmaqla bir sıra Qərb dövlətlərini narahat edir. Qurduqları məkrli oyunların, verdikləri ədalətsiz qərarların, qəbul etdikləri qərəzli qətnamələrin kökündə də elə bu dayanır. Bilirlər ki, güclü dövlətə çevrilmiş Azərbaycanın məqsədi regionda sülhə, sabitliyə nail olmaqdır və bu istiqamətdə məqsədyönlü və ardıcıl siyasət yürüdür.



## Cənubi Qafqazda geosiyasi reallığın yaranması Parisi narahat edir

İşğalçı Ermənistan Cənubi Qafqazda münaqişə ocağı yaradanda, Qarabağda, Şərqi Zəngəzurda separatçılıq toxumu səpəndə, təcavüzkar ermənilər o yerlərin əzəli sakinləri olan azərbaycanlıları işgəncələr verərək qətlə yetirəndə, yurdundan qovanda, evlərini talayanda, od vurub yandıranda ya lal olan, ya da haqqı qoyub nahaqqı müdafiə edən Fransa kimi ermənipərəst Qərb dövlətləri rəhbərlərinin ozamankı mövqeləri də bədxahlıqlarından xəbər verirdi.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycanın təkbaşına, heç bir dövlətin yardımı olmadan işğala son qoyaraq ərazilərini işğaldan azad etməsi, 2023-cü ilin sentyabrında isə lokal xarakterli antiterror tədbirləri ilə bölgədəki separatçılıq yuvasını darmadağın edərək öz suverenliyinin tam bərpasına nail olması ilə barışa bilməyən ermənipərəst Qərb ölkələri, xüsusilə də onların arasında fəallığı ilə seçilən Fransa aranı qarışdırmaq üçün hiyləyə əl atır, yenidən nifaq yaratmağa çalışır. Rəsmi Paris Ermənistanı dəstəkləmək, yardım göstərmək adı ilə, əslində, Cənubi Qafqazda münaqişəni yenidən alovlandırmağa cəhd edir.

Makron hökuməti Azərbaycana qarşı işğalçılıq siyasəti yürütmüş, torpaqlarının iyirmi faizini otuz il müddətində əsarəti altında saxlamış, terrorlar, soyqırımları törətməklə minlərlə vətəndaşının faciəsinə səbəb olmuş və dəhşətli əməllərinə görə beynəlxalq hüquq çərçivəsində cəzalandırlılmamış Ermənistanı qınamaq əvəzinə ölkəmizə qarşı əsassız ittihamlar səsləndirir, "etnik təmizləmə"də günahlandırır.

Qarabağda separatizmin kökünün kəsilməsi iki ölkə - Azərbaycan və Ermənistan arasında sülhün bağlanmasına, bütün Cənubi Qafqazda sabitliyin yaranmasına real şərait yaradıb. Belə bir vaxtda Makron hökumətinin qondarma "etnik təmizləmə" ittihamı ilə ölkəmizi günahlandırmaq cəhdlərinin, Ermənistana silah tədarükü etməsinin səbəblərindən biri bu ölkədə erməni lobbisinin güclü təsiridirsə, digər səbəb də Parisin Cənubi Qafqazda sülhün yaranmasına mane olmaq, aranı qarışdırmaq marağıdır.

Fransanın tarixinə nəzər salanda bu cür ədalətsizliyinin haradan qaynaqlandığı məlum olur. 1954-1962-ci illərdə Əlcəzairdə 1,5 milyon insanı qətlə yetirən, 2 milyon insanı həbs düşərgələrinə göndərən, 8 min yaşayış məskənini yerlə yeksan edən, uzun illər yerli xalqı mina terroruna, soyqırımına məruz qoyan bu ölkə özü kimi işğalçıya əl uzadır, onu müdafiə edir. Hələ Vətən müharibəsinin davam etdiyi günlərdə göstərdiyi canfəşanlıqla işğalçı Ermənistanı biabırçı məğlubiyyətdən qurtara bilməyən rəsmi Paris müharibə başa çatar-çatmaz senatda Azərbaycan əleyhinə ədalətsiz qətnaməni qəbul etdi. Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasında (TŞ) Fransa işğalçı ermənilərin təəssübkeşi kimi çıxış etdi.

Bu ilin yanvarında isə Fransa Senatı tərəfindən Azərbaycana qarşı sanksiya tətbiq olunmasıyla bağlı qərəzli, heç bir hüquqi dəyəri olmayan daha bir qətnamə qəbul olundu.

Rəsmi Paris qərəzkarlığını Avropa Şurası Parlament Assambleyasındakı ermənipərəst siyasətçilərin vasitəsilə də davam etdirdi. Azərbaycana qarşı qarayaxma kampaniyası aparmaqla, yalan, böhtan dolu qətnamənin qəbul olunması ilə Ermənistanla Azərbaycan arasında real görünən sülhə zərbə vurmağa səy göstərdiyini gizlətmədi. Ən çox təəssüf doğuran məqam Avropa Şurası Parlament Assambleyasının Fransanın və Almaniyanın ermənipərəst siyasətçilərinin oyuncağına çevrilməsi oldu.

Azərbaycan 2001-ci ildə Avropa Şurasına daxil olanda məqsədi, gözləntisi Ermənistan-Azərbaycan münaqişəsinin həllinə bu qurumun töhfə verməsi idi. Lakin əfsuslar olsun ki, AŞPA işğalçı Ermənistanla bağlı heç vaxt ciddi addımlar atmadı, dəfələrlə Azərbaycana qarşı ikili standartlar və qərəz dolu qətnamələr qəbul etdi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi və bütün beynəlxalq ictimaiyyət işğal faktını tanısa da, Avropa Şurası bununla bağlı məqsədəyönlü addımlar atmadı.

Qarabağda ermənilər könüllü şəkildə bölgəni tərk edəndə 2023-cü ilin oktyabrında isə AŞPA-da ölkəmizi "etnik təmizləmə"də günahlandıran qərar qəbul edildi. Fransa daxil olmaqla bəzi Qərb dairələri göstərdilər ki, onlara Cənubi Qafqazda əlaltıya çevirdikləri Ermənistan lazımdır ki, istədikləri zaman fitnəkarlıqlarını həyata keçirə bilsinlər.

Fransa müxtəlif vasitələrlə ölkəmizə qarşı təzyiq mexanizmlərindən istifadə etməyə cəhd göstərir. Ancaq bunu Makron hökuməti də görür ki, Azərbaycanla təhdid dilində danışmaq yersizdir, onlar heç zaman məqsədlərinə nail ola bilməyəcəklər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Makron Azərbaycana təzyiq göstərməyin mümkünsüzlüyünü dərk edə bilmir

Fransanın Azərbaycana qarşı qərəzli davranışları və düşmənçilik siyasəti bir an belə səngimir. Bu gün Bakı ilə Paris arasındakı münasibətlərdə müşahidə olunan gərginliyin əsas səbəbi Makron hakimiyyətinin riyakar və ədalətsiz mövqeyidir. Rəsmi Paris uzun müddətdir ki, ermənilərə hər cür hərbi və diplomatik, eləcə də iqtisadi dəstək verməklə Azərbaycanla Ermənistan arasında sülhün əldə olunmasına əngəl törətməyə çalışır. Lakin bu situasiyada uduzan tərəf ölkəmizə qarşı hücumlarını dayandırmayan Fransanın özüdür. Təsadüfi deyil ki, bu ölkənin beynəlxalq imici və ona olan etimad az qala sıfra bərabərdir.

Bu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Fazil Mustafa deyib ki, Azərbaycan-Fransa münasibətlərindəki mövcud vəziyyət son 30 ildə ən aşağı səviyyədədir: "Bunun əsas səbəbkarı Fransa Prezidenti olsa da, təkcə Makron hökumətinin deyil, elə Fransanın yanında dayanan bütün qüvvələrin Azərbaycana qarşı qərəzli münasibətlərinin olması da var. Həmin qüvvələr Azərbaycanın müstəqil siyasət yürütməsi, öz haqlarının müdafiəsinə qalxması və torpaqlarını düşmən işğalından azad etməsi ilə barışmırlar. Onlar Azərbaycana siyasi təzyiqlər etməyə çalışsalar da, buna nail ola bilmirlər və bilməyəcəklər də. Bütün dünya şahidi olub ki, Azərbaycan tarixi gerçəklikləri dəyişməyə qadir böyük gücə sahibdir".

Deputat bildirib ki, bu gün Fransanın rəhbəri Makron olmur, kim olursa-olsun, Azərbaycana təzyiq göstərməyin mümkünsüzlüyünü anlamalıdırlar: "Onlar boş çabalardan əl çəkməlidirlər. Fransanın daxili problemlərini, siyasi-iqtisadi çətinliklərini həll etmək ölkə adına daha faydalı olar. Azərbaycan artıq güclü dövlətdir və istənilən çətinlikdən çıxış yolunu özü tapır və qətiyyətli mövqeyi ilə istədiyini diktə edə bilir. Yəni Azərbaycanın daxili işlərinə müdaxilə



etmək, regionda möhkəmlənmək üçün ucuz vasitələrdən istifadə etmək cəhdləri fayda verməz. Azərbaycan həm də sülh tərəfdarıdır, amma onunla təhdid dili ilə danışanlara da layiqli cavablarını verəcək gücə malikdir".

Fazil Mustafanın sözlərinə görə, Fransa həm Vətən müharibəsində, həm ötən ilin aprelində Laçın sərhəd-buraxılış məntəqəsinin təsis edilməsi zamanı Azərbaycana qarşı başlatdığı beynəlxalq qarayaxma kampaniyasında, eləcə də antiterror tədbirlərindən sonra aqressiv hücumlar fonunda Azərbaycana uduzub: "Ötən ilin dekabrında isə bu ölkənin casus şəbəkəsi ifşa edilib. Bununla da Fransanın təkcə Cənubi Qafqazda deyil, bütövlükdə Şərqi Avropada və Orta Asiyadakı mövqelərinə ciddi zərbə vurulub. Görünən odur ki, bütün bunlara rəğmən hücumlarını hələ də dayandırmayan Paris görünür ki, məğlubiyyətlərlə doymayıb".

Deputat sonda qeyd edib ki, Fransanın xüsusilə Vətən müharibəsindən sonra Azərbaycana ardıcıl hücumları heç bir nəticə verməyib: "Bu, bir daha onu sübut edir ki, Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqların geri dönüşü yoxdur və bu regionda istənilən beynəlxalq subyektin, eləcə də Fransanın maraqları yalnız Bakının iradəsi ilə təmin oluna bilər. Ona görə də Makronun Cənubi Qafqazda öz hökmranlığını qurmaq cəhdləri vaxt və məsrəf itkisindən başqa bir şey deyil".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Bütün məkrli oyunların "moderatoru" Fransadır

## Parisin hələ də ermənilərdən daha çox ermənilik etməsi təəccüb doğurmur

Azərbaycanın Vətən müharibəsindəki Zəfərini həzm edə bilməyən Fransa ermənipərəst siyasətini artıq açıq müstəviyə keçirib. Görünən odur ki, bu ölkəni ən çox qorxudan da Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasıdır. Elə buna görə də hər vəchlə regionda münaqişə ocağının qalmasına çalışır, hər kürsüdən Azərbaycan əleyhinə qarayaxma kampaniyalarına moderatorluq edir.

Bu xüsusda Ermənistanı silahlandırması, öz nümayəndələrini sərhədə göndərməsi də Parisin hansı məqsədə qulluq etdiyini açıq-aydın göstərir.

Milli Məclisin deputatı Anar İsgəndərov bu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə bildirib ki, ümumiyyətlə, Qərb 30 il ərzində Qarabağla, Azərbaycan torpaqlarının işğalı ilə bağlı ədalətli mövqe tutmayıb, fikir söyləməyib.

Deputat qeyd edib ki, bu sırada ən öndə gedən Fransa Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayan gündən onları müdafiə edərək daim haqq qazandırıb. "Bəraəti də bu olub ki, guya Fransada kifayət qədər erməni yaşayır və bütün bunların başında erməni lobbisi durur. Əslində, Fransa əvvəldən axıra kimi Ermənistanı müdafiə etməklə, ədalətli dövlət olmadığını ortaya qoydu. Ona görə də Azərbaycan 44 günlük Vətən müharibəsini uğurla başa çatdırarkən Fransanın nə qədər təhdid və təzyiqləri olsa da, bunlar bizə təsir etmədi. Bütün bu təhdidlər dövlət başçımız, Ali Baş Komandan İlham Əliyevi haqq yolundan döndərmədi, döndərə də bilməzdi", - deyə deputat əlavə edib.

İkinci Qarabağ müharibəsindən sonra da Fransanın ədalətsiz mövqeyindən əl çəkmədiyini vurğulayan A.İsgəndərov deyib ki, Paris hələ də ermənilərdən daha çox ermənilik edərək Hayastanı müdafiə edir. Azərbaycan-Ermənistan sərhədinə Fransadan hərbçilər göndərilib. Digər tərəfdən isə Fransa Ermənistanı silahlandırmaqla məşğuldur. Ancaq bütün bunlar əbəsdir, ona görə ki, dünya ancaq Fransadan ibarət deyil. Bu ölkənin bizə qarşı niyyəti, məqsədi məlumdur. Azərbaycan Fransa kimi dövlətlərə qarşı münasibətdə dost dövlətlərin yanındadır, həmçinin onlar da Azərbaycanın yanındadırlar.



Deputat vurğulayıb ki, Ermənistan nə qədər silahlansa da, məğlub dövlətdir: "Yeni cəhdlər olacaqsa, onda Ermənistan faciəli aqibətlə üzləşəcək. Nə zaman ki ermənilər Cənubi Qafqazda yox idi, belə problem də yox idi. Onlar regiona yerləşdirildikdən sonra problemlər artdı. Bunu həm Azərbaycan, həm Gürcüstan tərəfi, həm də dünya dövlətləri yaxşı dərk edirlər".

A.İsgəndərov sonda qeyd edib ki, məğlub Ermənistan Fransaya arxayın olub regionda əmin-amanlığı pozmamalıdır və öz gələcəyini düşünürsə, sülh müqaviləsinə getməlidir. İki ölkə arasında sülh bağlanmalıdır ki, Cənubi Qafqaz dünyanın ən sabit, təhlükəsiz, firavan bölgəsi kimi diqqəti çəksin.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Fransa Cənubi Qafqazdan çəkilsə, regionda sülh daha tez yaranar

Tarixən həmişə belə olub. Ölkə hansısa bir uğur qazananda dostları sevinər, düşmənləri xar olar. Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi, 2023-cü ildə təxminən 24 saat davam edən lokal antiterror tədbirləri ilə öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Son 200 illik tarixinin ən böyük uğurunu, Zəfərini qazandı. Bununla da dövlətimizin ərazisində 30 ildən artıq mövcud olmuş separatçı rejimə, qanunsuz silahlı birləşmələrə son qoyuldu. Azərbaycanın bu uğuruna, qələbəsinə dostları sevindi, düşmənləri isə xar oldu.

Azərbaycanın qazandığı uğurları həzm etməyən ölkələrdən biri də Fransadır. Paris ölkəmizin qan bahasına Qarabağda əldə etdiyi Zəfəri qəbul edə bilmir. Otuz ildən çox davam edən münaqişəyə məhz Azərbaycanın öz hərbi və diplomatik gücü ilə son qoyması, Cənubi Qafqazda sülh, inkişaf, barışıq üçün yeni səhifənin açılması ilə Paris heç cür barışmaq istəmir. Ona görə ki, bölgədə münaqişənin bu cür sonluqla yekunlaşmasına, Ermənistanla Azərbaycan arasında qalan məsələlərin həllinə və sülh sazişinin imzalanmasına nail olunması, Qarabağın erməni sakinlərinin reinteqrasiya prosesi Fransanın bölgə üzərində qurduğu çirkin planlarını alt-üst etdi. Bölgədə yaranmış reallıq Parisin əl-qolunu bağlayır, Qafqazda hərəkət etməsinə imkan vermir.

Fransanın bu yaramaz hərəkəti gözlənilən idi. Bir anlıq geri dönüb illərlə uzanan atəşkəs dövrünə diqqətlə nəzər salsaq, Fransanın regionda daim müharibə vəziyyətinin qalmasında maraqlı olduğunu bir daha aydın şəkildə görə bilərik. Bunun həm Qarabağ münaqişəsinin davam etdiyi 30 il ərzində, həm də İkinci Qarabağ müharibəsində və antiterror tədbirləri zamanı şahidi olmuşuq. Fransa Prezidenti Makron 44 günlük Vətən müharibəsində Azərbaycanın öz ərazilərini işğaldan azad etməsindən narahat olaraq aktiv döyüşlərin dayandırılması xahişi ilə Prezident İlham Əliyevə teztez zəng edirdi. Təbiidir ki, onun bu mənasız, məntiqsiz zəngləri Azərbaycan xalqının haqq işini dayandıra bilməzdi. Dayandırmadı da! Müzəffər Ali Baş Komandandan zənglərinə layiq olduğu cavabı alandan sonra Makron xalqımızın döyüşlərdəki uğurlarını qəbul edə bilmir və açıq mətnlə işğala, separatizmə dəstəyini nümayiş etdirirdi. Amma döyüşləri dayandırmağa bu cəhdlərinin də gücü çatmadı. Ermənini xilas etmək üçün bütün çabaları iflasa uğradıqdan sonra isə Paris sülh masasında yer almağa çalışdı. Döyüşlərdə tərəfini saxlaya bilmədiyi ermənilərə masada arxa durmaq istədi. Əvvəlki cəhdlər kimi, bu dəfə də Fransa çirkin məqsədinə çatmadı.

Böyük dövlətlərin bir-biri ilə dostluğu, əməkdaşlığı başa düşüləndir, qəbul ediləndir. Amma kiçik bir ölkə ilə böyük bir dövlətin dostluğunu anlamaq, başa düşmək və qəbul etmək bir qədər çətin məsələdi. Belə bir dostluq çox eybəcər görünür. Fransa ilə Ermənistanın dostluğu da buna bənzəyir. Çünki Fransa ilə Ermənistanın iqtisadi və siyasi çəkisi müqayisəyəgəlməz dərəcədə bir-birindən fərqlənir.




Fransa iqtisadiyyatının həcminə görə Avropa İttifaqının ikinci ən böyük dövlətidir. Ermənistan isə Cənubi Qafqazda ən acınacaqlı vəziyyətdə olan forpost dövlətdir. Bununla belə, Fransa və Ermənistan bütün parametrlər baxımından birbirindən kəskin fərqlənsələr də, dostluq edirlər. Belə böyük uyğunsuzluğu görəndən sonra fikirləşirsən ki, Ermənistan kimi bir dövlətlə dostluq etmək Fransanın nəyinə lazımdır? Prezident Emmanuel Makron həmişə çıxışlarında Ermənistanın arxasında həm maddi, həm də siyasi cəhətdən dayanacağına söz verib. Verdiyi sözün də üstündə dayanıb. Fransa parlamentində 44 günlük Vətən müharibəsi dövründə və postmüharibə mərhələsində bir neçə dəfə Azərbaycan əleyhinə qərəzli qətnamələr qəbul olunub. Emmanuel Makronun BMT Təhlükəsizlik Şurasındakı qərəzini də hamımız yaxşı xatırlayırıq. Fransa indiyədək terrorçu Ermənistanın Azərbaycana qarşı əsassız iddialarını BMT TŞ-də müzakirələrə çıxarıb və hər dəfə də istədiyi elə istək olaraq qalıb.

Fransanın Ermənistanın arxasında durduğunu bütün dünya bilir və görür. Dünya birliyi bilir ki, Paris Ermənistandakı separatçıları, işğalçıları dəstəkləyir. Birtərəfli mövqe tutan, daim erməninin tərəfini saxlayan Fransanın Azərbaycan və Ermənistan liderlərinin görüşündə, ümumiyyətlə, iki ölkə arasında başlayan sülhyaratma prosesində iştirak etməyə mənəvi haqqı varmı? Yəqin ki, bu sual kimə verilsə, "yox" cavabı alar. Danışıqlarda iştirak etməyə mənəvi haqqı olmayan Emmanuel Makron nə üçün boş və mənasız sözləri və zəngləri ilə gün keçirir. Əgər Fransa erməniləri bu qədər çox istəyirsə, onların sabahından narahatdırsa, qoy hamısını yığıb aparıb töksün Fransanın ərazisinə. Orada nə qədər lazımdırsa, qayğılarına qalsın. Azərbaycandan uzaq dursun, ölkəmizin daxili işlərinə qarışmasın.

Tarixdən məlumdur ki, Fransa heç bir ölkəyə xoş niyyətlə getmir. Bunun nümunəsi Afrikadır. Tarixi hərbi cinayətlərlə, qanlı əməllərlə dolu olan Fransa özünün müstəmləkəçilik siyasətindən bu gün də əl çəkmək istəmir. Müstəmləkə illərində Fransa silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini kütləvi surətdə qətlə yetirib. Artıq Afrikadan qovulan Fransa özü üçün yeni ərazilər axtarır. Bu məqsədlə Ermənistan vasitəsilə regionda möhkəmlənməyə can atır. Fransanın Ermənistanla eybəcər görsənən "dostluğu"nun arxasında da məhz bu amil dayanır. Paris onu da yaxşı anlayır ki, Azərbaycan ona Cənubi Qafqaz regionunu Afrikaya çevirməyə imkan verməyəcək. Göründüyü kimi, Cənubi Qafqazda Fransaya yer yoxdur və heç vaxt da olmayacaq. Qoy Paris birdəfəlik gözlərini bu regiondan çəksin. Ondan sonra Cənubi Qafqaza sülh daha tez gələr.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Üçüncü minilliyin nəhəng mühəndis qurğusu

## BTC-nin təməlini Heydər Əliyev qoydu, İlham Əliyev isə bu kəməri möhtəşəm dəhlizlərə qovuşdurdu

Regionun neft ixracı arteriyası - Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri 18 ilə yaxındır tam bir sistem kimi təhlükəsiz və ahəngdar surətdə fəaliyyət göstərir. Təməli Ulu Öndər tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən yeni dəhlizlərə qovuşdurulan, zirvələrə çatan BTC bu gün təkcə Azərbaycana deyil, bütün regiona böyük fayda, xeyir-bərəkət gətirir.



Zirvə demişkən, BTC sözün birbaşa mənasında da çox yüksəklərə qalxır. Belə ki, kəmər 1768 kilometrlik marşrutu boyu bir neçə dağ silsiləsi qət edir, o cümlədən 2830 metr hündürlükdə özünün ən yüksək nöqtəsinə çatır, eləcə də 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətti, eni 500 metrədək olan Ceyhan çayının keçidi, 1500-dən artıq su hövzəsi ilə kəsişir. Ceyhana yaxınlaşarkən yenidən dəniz səviyyəsinə enir.

BTC-yə həmçinin üçüncü minilliyin nəhəng mühəndis qurğusu deyirlər. Çünki bu boru xətti bütün Avrasiya məkanında mövcud olan analoji kəmərlər arasında öz unikallığı ilə seçilir. BTC haqlı olaraq dünya enerji təhlükəsizliyinin əsas elementlərindən biri sayılır.

BTC Ümummilli Lider Heydər Əliyevin şah əsərlərindən biridir və Ulu Öndərin adını şərəflə daşıyır. Bu layihənin uğur salnaməsi Prezident İlham Əliyev tərəfindən ardıcıl davam etdirilir.

BTC çox sınaqlardan keçib. Məlum olduğu kimi, istər ölkəmizin daxilində, istərsə də xaricdə bir sıra qüvvələr müxtəlif əsassız bəhanələrlə onun çəkilişinə mane olmağa cəhd göstərirdilər. Lakin Ulu Öndərin səyləri və dünyadakı siyasi nüfuzu sayəsində maneələrin hamısı dəf olundu. Təməli 2002-ci il sentyabrın 18-də qoyulan kəmərin inşaat işləri ümumilikdə bir neçə il davam etdi. Belə ki, xəttin Azərbaycan hissəsində tikinti 2004-cü ilin sentyabrında sona çatdı. Həmin ilin oktyabrında isə kəmərin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsinə həsr olunmuş "Qızıl qaynaq" mərasimi keçirildi.

2005-ci ilın mayında BTC-nin Azərbaycan, oktyabrında Gürcüstan hissəsi Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verildi. Kəmər eləcə də dövlətimizin başçısının iştirakı ilə tam bir sistem kimi 2006-cı ilin iyul ayında istismara daxil oldu. BTC-nin Ceyhan terminalına çatdırdığı xam neftlə ilk tanker isə 2006-cı il iyunun 4-də yüklənmişdi. O vaxt təqribən 600 min barel "Azəri-Çıraq-Günəşli" nefti "British Hawthorn" tankerinə vurularaq Ceyhandan dünya bazarlarına göndərilmişdi.

BTC Xəzər regionundan Aralıq dənizinə təhlükəsiz və məsuliyyətli şəkildə xam neft ixrac etmək üçün çəkilib. Kəmər Azərbaycanda 443, Gürcüstanda 249, Türkiyədə 1076 kilometr məsafə qət edir. Ölkəmizdə 13 rayondan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafa rayonlarından keçir. Gürcüstanda 7 bölgənin - Qardabani, Marneuli, Tetritskaro, Tsalka, Borjomi, Axaltsixe və Agideni rayonlarının ərazisi boyu uzanır. Xəttin Türkiyədə keçdiyi 9 rayon isə Ərdahan, Qars, Ərzurum, Ərzincan, Sivas, Kayseri, Qəhrəman Maraş, Osmaniyə və Adanadır.

BTC-nin gündəlik ötürücülük gücü 2009-cu ilin yazınadək bir milyon barel idi, həmin vaxtdan indiyədək isə 1,2 milyon barel təşkil edir. Keçdiyi ərazilərin coğrafiyasından asılı olaraq onun borularının diametri 46, 42 və 34 düymdür. Üç tranzit ölkə ərazisində kəmərin 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var. Baş nasos stansiyası Səngəçal terminalında yerləşir. Ölkəmizdəki daha bir stansiya Yevlax rayonu ərazisindədir. Növbəti iki stansiya Gürcüstanda və dördü Türkiyədə fəaliyyət göstərir.

Prezident İlham Əliyev BTC-nin istifadəyə verilməsinin mühüm əhəmiyyət daşıdığını qeyd edərək deyib: "Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha inamla inteqrasiya edəcəkdir".

İndi bunlar reallıqdır. Layihənin operatoru olan bp şirkətinin məlumatına görə, istismara veriləndən 2023-cü ilin ilk üç rübü ərzində BTC üzrə əməliyyat xərclərinə təxminən 86 milyon dollar, əsaslı xərclərə isə 25 milyon dollar vəsait sərf olunub. Sentyabr ayının sonunadək kəmər vasitəsilə ümumilikdə təqribən 554 milyon ton (4,2 milyard barel) xam neft nəql edilib və Ceyhanda 5482 tankerə yüklənərək dünya bazarlarına göndərilib. BTC-nin ümumilkdə 4 milyard barel neft ixracına nail olması əlamətdar bir uğur kimi keçən il yanvarın 18-də qeyd edilib.

Üç rüb ərzində BTC vasitəsilə ixrac olunmuş təqribən 23 milyon ton (təxminən 171 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 238 tankerə yüklənib və yola salınıb. Hazırda BTC boru kəməri əsasən Azərbaycandan "Azəri-Çıraq-Günəşli" nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan və Türkmənistan) də nəql olunur.

BTC-nin əhəmiyyəti həm də onun özündən sonra neçə-neçə nəhəng layihəyə yol açmasındadır. Prezident İlham Əliyevin dediyi kimi: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi nəticəsində biz artıq pəncərədən başlayaraq böyük qapı açdıq. Azərbaycanı beynəlxalq enerji ailəsinə daxil edə bildik. Həm siyasi, həm iqtisadi baxımdan böyük uğurlar əldə edə bilmişik".

Kəmər Bosfor və Dardanel boğazlarından yan keçməklə həmçinin ekoloji riskləri azaldır. Boruları bütün marşrut boyu torpaq altında basdırılmış bu kəmər, necə deyərlər, səssiz-səmirsiz, ətraf mühitə ziyan vurmadan və insanlara narahatlıq gətirmədən işini davam etdirir.

...İndi qışın, necə deyərlər, oğlan çağıdır. Bakıda havalar mülayim keçsə də, BTC-nin qət etdiyi bir çox ərazi qarla-buzla örtülüb. Lakin BTC üçün heç bir maneə yoxdur. Xatırladaq ki, kəmərin bir hissəsi keçən il Türkiyənin zəlzələ baş verən bölgələrindən keçir. Bununla belə o zaman neftin axını təhlükəsiz davam etmişdi. Çünki tikinti zamanı xəttin möhkəm boruları həm də etibarlı şəkildə örtüklənmişdi. Bir sözlə, BTC bütün sınaqlardan şərəflə çıxır.

*Flora SADIQLI, "Azərbaycan"*

# Gələcəyimiz günəşli olacaq

Azərbaycanda baharın və payızın ömrü qış fəsli ilə müqayisədə daha çoxdur. Bu üzdən qışdan az sonra istilərlə mübarizəyə başlayırıq. Hətta günəş öz odlu nəfəsi ilə yeri-göyü yandırarkən düşünürük ki, kaş bu istilər tez qurtaraydı. Amma fikirləşmirik ki, bu günəş istisinin həyatımızı, ekologiyamızı dəyişəcək qədər qüdrəti var.

İndi bu, artıq reallığa çevrilib. Bu gün dünyanın çox ölkəsində günəş enerjisindən geniş-boluna istifadə olunur. Mütəxəssislərin hesablamalarına görə, hər dəqiqə yerə saçılan günəş zərrələri bəşəriyyətin illik enerji tələbatını ödəmək üçün yetərlidir. Hələ ötən əsrin 70-ci illərində SSRİ-də çox geniş olmasa da, günəş-elektrik stansiyalarından səhralıq yerlərdəki yaşayış məskənlərində istifadə olunurdu. Buna baxmayaraq, son illərə qədər bu enerjinin iqtisadi faydası o qədər də diqqət çəkmirdi, əsasən ekoloqlar üçün maraqlı və faydalı görünürdü. Bu gün artıq dünyada günəş əsas enerji mənbələrindən hesab olunur və ondan istifadə etməyə meyil sürətlə artır.

Yerləşdiyi coğrafi əraziyə görə Azərbaycan günəşli ölkədir, istilik və elektrik enerjisinin alınması üçün hər cür imkanı var. Demək olar ki, binaların hər birinin damında günəş panelləri yerləşdirmək mümkündür. Mütəxəssislərin fikrincə, məsələn, ölkə üzrə 1 milyon sosial və ya ictimai əhəmiyyətli binanın damında belə panellər quraşdırmaqla hər birindən 10 kilovat, ümumilikdə təxminən 1000 meqavat elektrik enerjisi əldə etmək olar. Bu da bir ildə təxminən 1 milyard kubmetr təbii qaza qənaət olunması deməkdir. Azərbaycanın təbii iqlim şəraiti günəş enerjisindən istifadə etməklə elektrik və istilik enerjisinin istehsalını artırmağa da geniş imkanlar açır. Belə ki, ölkə ərazisində günəş şüalanmasının davamiyyəti 2400-3200 saatdır. Alternativ və bərpaolunan enerji mənbələri hesabına quraşdırılacaq yeni generasiya güclərində günəş enerjisinin xüsusi çəkisi isə 73 faiz (günəş-istilik 58, günəş-elektrik 15 faiz) təşkil edir. Beləliklə, Azərbaycanda günəş enerjisinin iqtisadi potensialı 20,000 meqavat həcmində qiymətləndirilir.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin imzaladığı 2021-ci il 3 mart tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncama əsasən, Qarabağ və Şərqi-Zəngəzurda günəş, külək, termal, geotermal və digər bərpaolunan enerji potensialından istifadə etmək nəzərdə tutulub. "Yaşıl enerji zonası"nın yaradılması çərçivəsində işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, enerji səmərəliliyi tədbirləri, elektrik nəqliyyat vasitələrindən istifadə, tikililərin damlarında bərpaolunan enerji qurğularının (xüsusən günəş panellərinin) qurulması, həmçinin küçələrin və yolların işıqlandırılmasında günəş enerjisi əsaslı LED lampalardan, eləcə də istilik, soyutma və isti su təchizatında bərpaolunan enerji texnologiyalarından istifadə, "ağıllı enerji" idarəetmə texnologiyalarının tətbiqi, tullantıların enerji məqsədli idarə edilməsi kimi tədbirlər nəzərdə tutulub.

Ümumiyyətlə, Azərbaycanın bərpaolunan enerji sahəsində böyük planları var. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində biz "yaşıl enerji" ixracını da planlaşdırırıq. Həmin planı həyata keçirmək üçün Azərbaycanda daxili istehlakdan çox "yaşıl elektrik enerjisi" istehsal olunacaq. Bu, daha çox günəş enerjisi hesabına reallaşacaq. Ötən il Qaradağ Günəş-Elektrik Stansiyasının istifadəyə verilməsi də məhz bu məqsədə xidmət edir. Stansiya MDB məkanında ən böyük qurğudur.

Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin inşa etdiyi stansiya 230 MVt gücündədir. 262 milyon dollar xarici sərmayə hesabına tikilən stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət olunması nəzərdə tutulur.

Bütün görülən işlərin, reallaşdırılan layihələrin həyata keçirilməsində təbii ki, Prezident İlham Əliyevin qətiyyəti, iradəsi və iqtisadi siyasəti mühüm yer tutur. Azərbaycanın, o cümlədən işğaldan azad olunmuş ərazilərin "yaşıl zona" elan edilməsi məhz İlham Əliyev siyasətinin reallığıdır. Dünyanın alov içində olduğu, iqlim böhranlarının baş verdiyi bir zamanda COP29-un Azərbaycanda keçirilməsinin qərara alınması da Prezident İlham Əliyevin nüfuzu, dünyada söz sahibi olması ilə birbaşa bağlıdır.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*



# "Akıncı" gücümüzə güc qatacaq

Vətən müharibəsindən sonra Azərbaycanda ordu quruculuğu prosesi yeni müstəviyə qədəm qoyub və daha geniş vüsət alıb. Təsadüfi deyil ki, bu gün Silahlı Qüvvələrimizin adı dünyanın ən güclü orduları sırasında çəkilir. Ordumuzun bu səviyyəyə yüksəlməsinin təməlində isə ötən illər ərzində bu sahədə həyata keçirilən mühüm islahatlar, planlı və ardıcıl şəkildə həyata keçirilmiş işlər durur.

Bu il fevralın 7-də keçirilən prezident seçkilərində yenidən xalqımızın yekdil qərarı ilə dövlət başçısı seçilən İlham Əliyevin də hər zaman vurğuladığı kimi, bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür.

### Müasir ordu quruculuğu

Torpaqlarımızın işğal altında olduğu dövrdə ordu quruculuğu Azərbaycan dövlətinin qarşısına qoyduğu bir nömrəli prioritet idi və bu istiqamətdə hazırlıq işləri görülürdü. Bütün bunların nəticəsidir ki, şanlı ordumuz cəmi 44 gün ərzində istər havada, istərsə də quruda düşmənin canlı qüvvəsini, hərbi texnikasını darmadağın edərək Zəfər qazandı. Eyni zamanda Azərbaycanın adını həm də ilk "smart müharibə" aparan ölkə kimi dünyanın hərb salnaməsinə qızıl hərflərlə həkk etdi. Hər ötən gün Azərbaycan Silahlı Qüvvələri daha da güclənir. Son üç il ərzində həyata keçirilən islahatlar, yeni silahlı birləşmələrin yaradılması, müasir silahlar və texnika ilə təchizat, hərbi təlimlər və sair ordumuzun döyüş qabiliyyətini yüksəldən əsas amillərdir.

Xatırladaq ki, 2024-2031-ci illərdə milli təhlükəsizlik və müasir ordu quruculuğu sahəsində yeni hədəflər müəyyənləşdirilib. Bunlar - Azərbaycanın bütün sahələrdə təhlükəsizliyinin, suverenliyinin, ərazi bütövlüyünün və konstitusiya quruluşunun hər cür təsirlərdən qorunması, müasir müdafiə sənayesi və infrastrukturun davamlı inkişaf etdirilməsi, milli təhlükəsizlik potensialının artırılması, dövlətin müdafiə qabiliyyətinin daha da gücləndirilməsidir. O da təsadüfi deyil ki, dövlət büdcəsindən ən çox vəsait də məhz ordu quruculuğuna ayrılır.

Vətən savaşında qüdrətini döyüş meydanında göstərən Azərbaycan Ordusunun maddi-texniki bazası da bu gün ən müasir standartlar səviyyəsinə çatdırılır. Eyni zamanda da Silahlı Qüvvələrimizin arsenalı Azərbaycanın müdafiə sənayesinin istehsal etdiyi hərbi texnika və silah-sursatlarla yanaşı, dost ölkələrdən, xüsusilə qardaş Türkiyənin hərbi sənayesinin məhsulları, o cümlədən də silahlı pilotsuz uçuş aparatları ilə daha da zənginləşdirilir.

### "Akıncı" - düşmənin daha bir qənimi

44 günlük Vətən müharibəsində ölkəmiz müasir hərbi sənayeyə malik Türkiyənin "BAYKAR Texnoloji" şirkətinin "Bayraktar TB2" pilotsuz uçuş aparatlarından məharətlə istifadə etdi, düşmənin mövqelərini, hərbi və canlı qüvvəsini məhv etdi. Vətən müharibəsindən sonra isə qardaş ölkə Türkiyə daha bir yeni PUA-sını məhz Azərbaycandan dünyaya tanıtdı. 2022-ci il mayın 26-29-da Bakıda ilk dəfə keçirilən "TEKNOFEST-Azərbaycan" festivalında Türkiyə "Akıncı" adı verdiyi PUA-sını dünyaya nümayiş etdirdi. Qeyd edək ki, "Akıncı" Azərbaycana Türkiyənin Təkirdağ əyalətinin Çorlu rayonundan səmaya qalxaraq Gürcüstan üzərindən keçməklə təxminən 2 min kilometr məsafəni qət edərək gəlmişdi.

Bu il fevralın 9-da isə Türkiyənin "Baykar" şirkətinin "Akıncı" hücum PUA-sı Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində silahlanmaya qəbul edildi. Bununla bağlı keçirilən mərasimdə Prezident İlham Əliyev və oğlu Heydər Əliyev, "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar "Akıncı" hücum PUA-larının uçuşunu izlədilər. "Akıncı" hücum PUA-sının havaya qalxmasını izlədikdən sonra idarəetmə məntəqəsinə gələn İlham Əliyev PUA-nın idarəolunmasını praktiki həyata keçirdi. PUA-nın yerə enməsini izləyən Prezident uçuş vasitəsinin üzərinə xatirə imzasını çəkdi.

"Akıncı" PUA-ları digər vasitələrlə birlikdə döyüş əməliyyatlarında vəziyyətə radikal təsiretmə imkanlarına malikdir. "Bayraktar TB2" PUA-larının sonrakı nəsli hesab edilən "Akıncı" həm də Türkiyənin hərbi sənayesinin sürətli inkişafının göstəricisidir. Əgər "Bayraktar TB2"-lər taktiki PUA hesab edilirsə, "Akıncı" PUA-ları operativ, taktiki və strateji vəzifələrin yerinə yetirilməsi üçün nəzərdə tutulur.

"Akıncı" PUA-ları Azərbaycan və Türkiyəyə qarşı olan qüvvələrə gözdağı, güc birliyinin nümayişidir. Bu həm də onun göstəricisidir ki, hərbi sahədə bütün istiqamətlərdə hərbi potensialını artıran, o cümlədən arsenalını gücləndirən Azərbaycan Ordusu istənilən güclərə qarşı layiqli mübarizə apararaq qalib gəlmək qüdrətində, əzmindədir.



*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 10 fevral (Bazar ertəsi günü) tarixli 110-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Düşənbə, 9 cəmadiyələvvəl sənə 1337.
10 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ağadadaş və Ələkbər Məhəmmədovlar özlərinin istəkli qardaşı **Nəcəfqulu Məhəmmədovun** şubatın [fevralın] 9-uncu gecəsində fəcianə [faciəvi] bir surətdə qətl edildiyini öz dost və qövm-əqrəbalarına kamali-hüznlə [böyük hüznlə] xəbər verirlər.

Dəfn günü əlahiddə elan ediləcəkdir.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Mina xanım uşaqları ilə öz mehriban və istəkli şövhəri [əri] **Nəcəfqulu Məhəmmədovun** şubatın 9-uncu gecəsində zalım qatillər tərəfindən öz evində fəcianə bir surətdə qətl edildiyini yəs [kədər] və ələmlə öz dost-aşna və qövm-əqrəbalarına xəbər verir.

Dəfn günü əlahiddə elan ediləcəkdir.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Şərq-Qafqaz Neft Ticarəti və Səhmdaran [Səhmdarlar] şirkətinin baş kantoru xidmətkarları özlərinin unudulmaz və mehriban müdirləri **Nəcəfqulu Məhəmmədovun** şubatın 9-uncu gecəsində öz evində zalım qatillər tərəfindən fəcianə bir surətdə qətl edildiyini kamali-hüzn və təəssürlə [böyük hüzn və kədərlə] xəbər verirlər.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əli bəy və Sona xanım uşaqları öz əziz yoldaşları **Nəcəfqulu Məhəmmədovun** şubatın 9-uncu gecəsi öz evində cəbbar [zülümkar] və zalım qatillər əli ilə fəcianə qətl edildiyini yəs və ələmlə öz dost-aşnalarına hüzn-ələmlə xəbər verirlər.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Şərq-Qafqaz Neft Ticarəti və Səhmdaran şirkəti idarəsi öz müdiri (direktoru) **Nəcəfqulu Məhəmmədovun** zalım qatillər əli ilə şubatın 9-uncu gecəsi öz evində fəcianə qətl edildiyini hüzn və təəssürlə ümuma elan edir.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Şərq-Qafqaz Neft Ticarəti və Səhmdaran şirkətinin neft və yağ zavodlarının və neft skladının müdiri, xidmətkar və əmələləri [işçiləri] özlərinin əziz və mehriban baş müdirləri olan **Nəcəfqulu Məhəmmədovun** şubatın 9-uncu gecəsində öz evində fəcianə bir surətdə qətl edildiyini kamali-hüznlə ümuma elan edirlər.

## YANLIŞ BİR AVAZ

İstihalə zamanlarında, yəni bir haldan digər bir hala keçmək zamanlarında hökumət başında durmaqdan daha məsul, camaat işi görməkdən daha müşkül bir iş təsəvvür olunmasın.

Hər şey yerindən tərpənmiş, hər hal digərgun olmuş [dəyişmiş]. Yalnız hökumət müəssisələri, məmurları, idarələri deyil, hər bir şey dəyişmiş; yalnız maddiyyat deyil, mənəviyyat da alt-üst olmuşdur. Əxlaq başqa, nəzəriyyə başqa, hətta namus və eşq məfhumları, məhəbbət və nifrət mənaları da başqalaşmışdır. Böylə bir zamanda cəmiyyəti razı salmaq, məm- nun edə bilmək qədər təhlükəli və müşkül bir iş təsəvvür olunmasın.

İştə böylə müşkül bir vəziyyətdə, böylə məsuliyyətli zamanda Azərbaycan Məclisi-Məbusanı müqəddərati-milləti [millətin taleyini] əlinə almış, Cümhuriyyət gəmisini bu qaynar və daşar bir vəziyyətdə olan tarix dəryasında üzdürərək Məclisi-Məbusan kənarına gətirmək yükünü yüklənmişdir.

Fətəli xan Xoyskinin hökuməti təşkil olunduğu zaman, zaman və məkanın iqtizasını [tələbini, ehtiyacını] ölçərək “Müsa vat”, bitərəflər, sosialistlər və “Əhrar” fraksiyonları, milli əqəliyyət [azlıq] nümayəndələri hökumətə etimadla tərzi-hərəkətlərini bəyan etdilər. Firqə məqsədi deyil, millət və dövlət nəzəriyyəsi xatirinə bir çox nöqsanlara göz örtməyi müvafiq gördülər. Yalnız “İttihad” firqəsi başqa bir rəydə qaldı. Fətəli xanın təbirincə “daşını cibində” saxladı.

O zamanlar mərkəz firqələri, bilxassə [xüsusilə] “Müsavat”la bərabər sosialistlər də cəhd edir, Parlamana girmək istəməyən qeyri-müslüm sosialistlərə qandırmaq istəyirlərdi ki, Azərbaycan Parlamanı xaricində bir idarə, bir çarə yoxdur. Bu nöqteyi-nəzər üstündə duran türk sosialistləri həqiqətən də bir dövlət nəzəriyyəsi və iş zehniyyəti göstərirlərdi. Firqə propaqandasından, firqə məqsədi güdməkdən ziyadə iş və məmləkət xatiri güdülürdü.

Azərbaycan istiqlalı nöqteyi-nəzərində duran demokratik firqələr böylə sabit bir nöqteyi-nəzər təqibi ilə nəhayət bütün müariz [müxalif] firqələrin də Azərbaycan Parlamanını tanımasına səbəb oldular.

Əvvəlcə türk sosialistlərinə “müsavatçı” sosialist namı [adı] taxan “yoldaşlar” artıq türk sosialistləri ilə birləşmək və anlaşmaqdan bəhs edən məqalələr yazmağa başladılar. Bunun təsiri ilə bizim sosialistlər də məəttəəssüf [təəssüf ki], yanlış bir avaz (ton) götürməyə, əyri bir yola sapmağa başladılar.

“Parlaman demokratik görünmək istəyirsə də, deyildir” – deyə başqalarının nəqəratını təkrarlamaqla zənn etdilər ki, məqsədəmüvafiq bir iş görürlər. Firqə məqsədi, propaqanda həvəsi, məmləkət mənafeyi, iş ciddiyyətinə faiq [üstün] gəlməyə başladı.

Zatən – dedilər – biz bu cür Məclisi-Məbusan düzəltmənin tərəfdarı deyildik. Bunu “hakim firqələr” yaratdılar – deyə şikayətləndilər. Halbuki Məclisi-Məbusan qanunnaməsini Azərbaycan Şurayi-Millisi onların iştirakı ilə yazmış və onların dəxi təsdiqi ilə nəşr eyləmişdir.

Tutalım ki, Parlaman onların istədiyi kimi qurulaydı. Nəticə nə ola bilərdi? Vilayətlərdən, komitələrdən, şəhərlərdən adam çağırılmayacaq, 44 adamlıq firqə siyahıları bir fərz iki bərabər artırılacaqdı. O zaman 20 “Müsavat” əvəzinə 40, 10 bitərəf əvəzinə 20, 4 “İttihad” əvəzinə 8, 11 sosialist əvəzinə 22 sosialist olacaqdı. Əcəba 22 sosialist, bu “həqiqi demok-ratlar” 120 kişilik [nəfərlik] bir məclisdə əksəriyyət təşkil edə biləcəklərmiydi? Yaxud 40 nəfərlik bir “Müsavat” sosia-listlər və yaxud bitərəflərlə əqdi-ittifaq etmədən [ittifaqa girmədən] bir mərkəz vücuda gətirə biləcəkmiydi? Təbii ki, etməyəcəkdi. O halda sosialistlər bittəb’ [təbii olaraq] kəndilərindən daha mötədil olanlarla bir ittifaq bağlamalı idilər. Bu nöqteyi-nəzərdən ilk ittifaq bağlaya biləcəkləri firqə “Müsavat” olacaqdı.

Halbuki “Müsavat”ı baltalamağa başlamışlardır. Bu baltalamaq bəlkə də sosialist propaqandası yapmaq üçün işə yarar, fəqət məmləkət işi üçün zənn etməyiz ki, faydası olsun.

Əcəba, sosialistlərimiz ümumi intixaba [seçkiyə] bu qədər ümidvar ikən zənn edirlərmi ki, sosialist bir əksəriyyət toplaya bilsinlər? Zənn etməm. Madam ki, bu zənn yoxdur, o halda bugünkü, yarınkı və ehtimal ki, daha o biri günkü ittifaqdaşlarını nahaq yerə tanımamazlığa gəlməyirlərmi?

Yoxsa bu günün “menşeviki” yarının “bolşeviki” deyə mövcud olan nəzəriyyə bizim sosialistlərimiz haqqında damı doğrudur?

Biz buna inanmaq istəməyiz.

Biz qətiyyən arzu etməriz ki, [Pepinov] Əhməd bəyin idarə eylədiyi “Hümmət”, [Nərimanov] Nəriman bəyin idarə eylədiyi “Hümmət” kimi tənqidat və mübarizələrində feodal və klerikal [dini, dinin təsirini gücləndirməyə çalışan] bir cərəyan müməssilləri [təmsilçiləri] olan sağları unudub, demokratik mərkəzlə eylədiyi mübarizəni zamanın təhəmmül edəmməyəcəyi əndazə xaricinə çıxarsın.

O halda ümid edəlim ki, Parlamanımızın sol cinahını təşkil edən sosialistlərimizdə son günlərdə görülən yanlış avaz həman fürsət var ikən təshih olunar.

*M. Ə.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 10-uncu iclas. İkinci gün.

**Sədr** - İclası açaraq, Məhəmməd ağa Vəkilovun qubernatorluqda qalaraq məbusluqdan istefa verdiyini və Seyidov [Mirhidayət] ilə Tağıyev Əşrəfin iki aydan bəri gəlmədiklərindən məbusluqdan xaric hesab edildiklərini bəyanla fraksiyalardan xahiş edir ki, çıxan məbusların əvəzinə sairlərini göndərsinlər.

**Ağamalov** (Hümmət) - Dünən nazirlərdən birisi dedi ki, hər şeydən ötrü sorğu vermək olmaz. Nazirin sözündən böylə çıxdı ki, sorğu vermək üçün bəzi şərait [şərtlər] mövcud olmalıdır. Əzcümlə [o cümlədən], məsələn, o vaxt sorğu verərlər ki, hökumətin ümumi siyasəti xalqa zərər ola, daha məsələn, bir naçalnik rüşvət alıb bu barədə sorğu verməzlər.

Bəli, Nəzarətin [Nazirliyin] siyasəti öylə olmalıdır ki, xalqa ondan zərər dəyməsin. Amma bizim Nəzarətlərimizin siyasəti böylə deyildir, zərəri var və nə qədər bu siyasət dəyişməyib, böylə də olacaqdır. Bu siyasət nə siyasətdir? Buna böyük diqqət vermək lazımdır. Bu siyasət indi deyil, türklər buraya qədəm qoyandan başlayıb davam edir və bir müddət də edəcəkdir. Bu siyasət xalqı qorxuda saxlamaq siyasətidir. Şimdiki siyasət, sabiq hökumətin siyasəti, türklərin gəlməsi və onların hərəkətləri həp biri-birinə bağlıdır. Biz burada yoxduq, amma eşidirdik ki, türklər ağır yumruqlarını fəhlə və kəndlilər üzərinə qoyub, onları sıxmışlar. Tərəfi-müqabil dirilmiş, suvarılmış yanmış ot kimi yenidən göyərmişdir. O vaxt Hökumət tikildi, fəqət Parlaman çağırılmadı, çünki Parlaman xalq səsi idi. Əgər Hökuməti Parlaman tiksəydi, böylə olmazdı, amma Parlaman tikmədi. Nuri paşanın qanadı altında tikildi, adını da qoydular... Nə bilim Azərbaycan Cümhuriyyəti. Bu siyasətin ibtidasını [təməlini] o ağalar qoydular ki, indi də gedir. Bu hökumət də o hökumətin tayıdır. Bir məsəl var deyərlər erməninin yaxşısı olmaz, amma bu erməni o ermənidən yaxşı olar. *(Abbasqulu Kazımzadə yerindən: Siz də yaxşı sosialistsiniz!)* Bəli! Bu hökumət o hökumətin tayıdır. Bunun siyasəti onunku kimidir. Bu siyasət də ibarətdir camaatı əzməkdən. Türklərin zamanında qoyulan siyasət bizim hürriyyət və istiqlalımıza ziddir. *(M. Əmin yerindən: Sağ ol!)* Çünki bu siyasət fəhlə və əkinçini əzir, ölüm verir. O yerdə ki, camaatın əksəri zillətdə oldu, o millətin gücü olmaz. Odur ki, biz deyiriz: Həqiqi istiqlal şəraitində yaşamaq istəyənlər həmişə camaatın asayişini təmin etməyə çalışmalıdırlar, nəinki əqəliyyəti [azlığı]. Mən yenə deyirəm, bu hökumət böylə gəlib bir müddət böylə də davam edəcəkdir. Şimdi məndən soruşa bilərsiniz ki, hökumət pis isə nə üçün sosialistlər onu qəbul etmişlərdir? Bunun cavabında deyirəm ki, baxdıq gördük hər tərəfdə işlər fənadır, hər tərəf düşməndir. *(Mərkəzdən və sağdan: Bravo!)* Siyasət barəsində yoldaşım müfəssəl danışacaqdır. Ancaq indi mən bunu demək istəyirəm ki, məmurlar böylə zənn edirlər ki, qüvvəni quldurlarda, qaçaqlarda, adam öldürənlərdə tapmaq olar. *(Məhəmməd Əmin yerindən: Hamı məmurlarmı böylədirlər?)* Bəli! *(Ümumi gülüş)* Amma camaat qulduru hökumət yanında görəndə hökumətin zəifliyinə isnad verir. Avropada adətdir, bir adamı qulluğa qəbul etdikdə ondan attestat istəyirlər. Bizim də attestatımız oğurluq, quldurluq, adam öldürməkdir. Gəncə tərəfdə polislər və strajniklər böylə adamlardandır.

Bizdə bəzi yerlərdə şimdi bir adət var. Hər kəs şikayət etsə, onu döyürlər, xüsusən qulluqçudan heç vaxt şikayət etmək olmaz. Yüzbaşıdan pristava, pristavdan naçalnikə, xülasə, bir qulluqçudan böyüyünə şikayət etmək qadağandır.

Bir də Nikolay vaxtında, heç hürriyyət olmayan zaman yenə bir kəndxuda seçkisi var idi. Şimdi bu da götürülmüşdür. Mən Qazaxda olanda camaat məscid qabağına yığılmışdı. Yüzbaşı məsələsi vardı. Dedim yüzbaşınız pis isə yenisini seçin. Dedilər necə seçək ki, neçə min manat alıb Mahmudu təyin etmişlərdir.

Şimdi gələk sud [məhkəmə] məsələsinə: məhkəmə işlərinin həpsi polis əlindədir. Sudyalar [hakimlər] bekarçılıqdan alış-verişə qurşanmışlardır. Sud yoxdur.

Keçirəm dünkü sorğu məsələsinə. Sorğuda deyilir ki, məmurlar rüşvət alırlar. Biz də təsdiq ediriz ki, böylədir.

Sonra polis məmurlarının fəna hərəkətindən iki misal gətirərək deyir ki: Rüşvətxorluq yalnız Qazaxda deyil, hər yerdə var. Nazirlər bunu bizdən yaxşı bilirlər. Bunun qabağını almaq, çarə qılmaq lazımdır. Lakin çarə bu deyil ki, hökuməti çıxarasan. Bu hökuməti dəyişsən də iş dəyişməz, çünki Həsən keçəl, ya keçəl Həsən. Hökuməti dəyişmək lazım deyil, siyasətin ruhunu dəyişmək lazımdır. Biz burada hökumətə etimad məsələsindən bəhs etmiriz, çünki ümidimiz yoxdur ki, sonra gələn hökumət bundan yaxşı olsun. Bəs nə etməli? Mən deyirəm xəyanətdə tutulan məmurların həpsinə cəza lazım deyil, var-yoxunu əlindən alıb 8 ay bundan qabaqkı halına salmaq lazımdır. Bunun üçün Parlamanda iki komisyon təşkil edilsin. Biri istintaq, digəri qanun verən komisyon ki, cinayət açıldıqda xainlər milyonçu da olsa milyonları əllərindən alınıb 6 ay əvvəlki hallarına salınsınlar. Yoxsa nə hökumət yaşaya bilər, nə biz.

**Sultanməcid Qənizadə** - Nazirlərdən birisinin dediyindən böylə çıxdı ki, bu işlər həp türklər gələndən bəri başlanmışdır. Deməli türklərdən əvvəl heç kəs hinə soxulmayırmış, biz istədiyimizi bu uca kürsüdən danışa bilirmişik. Natiq öz insafı ilə desin, doğurdan da böyləmiydi?

Mən bu barədə çox danışmayacağam, öz insaflarına buraxıram. Qoy onların cavabını da öz vicdanları versin. Amma mən deyirəm ki, həmin bu istiqlal və hürriyyət biz azərbaycanlılara türklərin əli ilə əta edilmişdir. Azərbaycan, Gürcüstan və Ermənistan hökumətlərinin öz rəsmi kağızları ilə isbat edirəm ki, nəinki Azərbaycan, hətta Gürcüstan və Ermənistana da istiqlaliyyəti türklər vermişlərdir. (Sağdan: Sağ ol!) Burada deyirlər ki, rüşvətxorluq və sui-istemal talçokunu (hərəkətini) türklər vermişlərdir və elmi-təbii [fizika] qanununa görə həman təhrik sövqü ilə indi də davam edir. Fəqət, məlumunuzdur ki, o qanuna görə hər talçokun hərəkətini bir əks-talçok saxlar. Şimdi əgər o talçok türklərdəndisə və türkdən böyük bir qüvvə varsa, buyursun bir əks-talçok çıxarsın və birincini dayandırsın. Mən bu danışıqlara Krılovun məşhur sözü ilə cavab verərəm ki, bu adamlar o şeyə oxşayırlar ki, bir meyvədən yağlanır, fəqət o meyvənin haradan düşdüyünü bilmək istəməyir. Biləks [əksinə] bu gün məmləkətdə xəyanət və cinayət varsa, ondandır ki, həman qüvvə getmişdir. Şimdi biz gərək çalışaq qara qüvvələri rəf və dəf edək [aradan qaldıraq və uzaqlaşdıraq]. Ancaq o halda millətpərəstlik dili ilə bu minbərdə dediyiniz kimi bayrağımız ucalar, Cümhuriyyətimiz yaşar.

*Yenə var*

## TƏƏSSÜRAT

Üç günlük bir “müharibə”nin şahidi olduq.

Müharibə Parlaman zalında vaqe olub sağ tərəfdən “İttihad” və sol tərəfdən “İttifaq” fraksiyalarının hökumətə qarşı hücumu ilə başlandı.

Hücum nagəhani [qəfil, gözlənilməz] idi.

Bu səbəbdən idi ki, bixəbər hökumət, həngamənin əvvəllərində özünü “müharibə” vəziyyətinə sala bilməyib, “dalbadal” vurulan zərbələri rəddü bədəl edə bilməyirdi [zərbəni dəf edərək özü zərbə endirə bilməyirdi].

Halbuki müxaliflərin bez “kəməndləri” hökuməti dolaşdırdığı halda, neft “atəşləri” də yandırıb, buğda “güllələri” də yağış kimi yağırdı.

Sənaye və Ticarət vəziri [naziri] müavini – ki hücumların əvvəlki hədəf və nişanəsi bu idi – müxaliflər qarşısında müqavimət edə bilməyib ricətə [qaçmağa] məcbur oldu. Müxaliflər onu təqib edib qova-qova Daxiliyyə Vəzarətinə [Nazirliyinə] yaxınlaşdılar. Daxiliyyə vəziri öz Vəzarətini düşmən hücumları qarşısında görüb, tez müdafiəyə qalxdı və mümkün olduğu qədər cansipəranə bir surətdə müharibəyə girişdi. Lakin amansız Qarabəylinin “İttihad” tərəfindən vurduğu şiddətli zərbələri o qədər müəssir [təsirli] idi ki, müdafiəyə macal vermədi. O idi ki, Daxiliyyə Vəzarəti darmadağın olub nə qubernator qaldı, nə naçalnik, nə pristav, nə qaradavoy... Bu meydani-müharibədə [müharibə meydanında] “küştə”lərdən püştələr [cəsədlərdən təpəciklər] əmələ gəldi.

Hökumətin mühüm səngərləri olan Daxiliyyə Vəzarəti əldən gedəndən sonra sair vəzarətlər dəxi müdafiəsiz qalıb, bir-bir müxalif hücumlarının qurbanı olurdular.

Əhval fəna oldu. Ümum hökumət təhlükə içində idi. Ona görə hökumət bir növ özünü düzəldənə qədər kənardan bir kömək lazım idi ki, müxaliflərin başını qatışdırıb hökumətə fürsət versin.

O idi ki, “Müsavat” firqəsi Məhəmməd Əmin Rəsulzadənin təhti-komandasında [komandası altında] olaraq böyük bir kömək göndərdi ki, tez gedib hökumətin canını qurtarsın, vəilla [yoxsa] “böhran” qorxusu hamını əndişəyə salmaqda idi.

Məhəmməd Əmin vaqedə [həqiqətdə] böyük qoçaqlıq göstərdi. Yetişən kimi müxalifləri çevirmə üsulu ilə əhatə edib, qaçıb qurtarmaq yollarını kəsdi. Ondan sonra müxalifləri bir-bir döyməyə başladı. Əvvəlki zərbələr sol “İttifaq”ın başına vuruldu. Bunların sərkərdələri olan Ağamalızadə yoldaş “ya Əli!” çağırmağa məcbur oldu.

Lakin köməksiz müsəlmanları sosial[ist]-daşnak hökumətizalimələsinin pənceyi-qəddaranəsindən xilas edən türklərdən narazılıq büruzə verən bir şəxsə Əli kömək durardımı?!

“İttifaq” basıldıqdan sönra növbət “İttihad”ınkı idi. Bunların baş komandanları olan Qarabəyli cənabları ehtiyatsız olaraq özünə aid bir taqım “qara xəbərləri” yada salmaqla öz-özünü tutub Məhəmməd Əminin əlinə verdi...

Müxaliflər basıldıqlarını sezib və qaçmaq yollarını bağlı görüb, Sədiyi-əleyhir-rəhmənin:

“Vəqte-zərurət çu nəmanəd qoriz
Dəst begir əz səre şəmşiretiz”

kəlamını yada salıb hökumətdən əl çəkdilər və “Müsavat”a qarşı “şəmşiritiz” [iti qılınc] çəkdilər. Lakin müsavatçılar qorxmadılar. Çünki Məhəmməd Əminin şücaətinə əmin idilər. Filhəqiqə [həqiqətən də] Məhəmməd Əmin Rəsulzadə bir nəreyi-yarəsulallah [Ya Rəsulallah nərəsi] çəkib: “Əgər türkləri Qafqaza gətirdən və Azərbaycanı türk qəhrəmanlarının əli ilə sosial[ist]-daşnak “samasud”larından [linçlərindən, zülümlərindən] xilas edən – siz deyən kimi – yalnız “Müsavat” oldusa, o halda müsavatçılar bununla ancaq fəxr edə bilərlər!” – deyib, bir həmlədə məğlub və məqhur [qəhr olmuş] etdi.

Bu tərəfdən dəxi hökumət fürsətdən istifadə ilə özünü düzəldib və müharib [savaşçı] bir hala salıb, müxaliflərə qarşı əks-hücumlara başladı. İş böylə olduqda “İttifaq” və “İttihad”ın əhvalı, hökumətin əvvəlki halından da betər oldu. Doktor Qarabəyli çox “əlac”lar axtardı ki, zərbələrdən hasil olan yaralarını sağaltsın. Lakin əlacpəzir olmadı [əlac tapmadı]. Bu cürə yaraları sağaltmaq üçün “cərrah” lazım idi. Ağamalızadənin, camaatı qəhqəhə ilə güldürmələri də gülmədən başqa bir mənfəət vermədi.

Bilaxirə [axırda] hökumət “Müsavat” köməyi ilə qalib gəlib, “böhran” zail [yox] oldu və məmləkətimiz böyük bir bəladan qurtuldu.

Doğrudan, bu nə iş idi?

İçimiz və çölümüz pusquda duran gizli və aşkara düşmənlərlə dolu olduğu bir halda “İttihad” firqəsinin bu nazik zamanda hökuməti yıxmaqdan məqsədi nə idi?

Hərçi bada bad deyib xüsusi intiqam almaq, yoxsa məmləkətə mənfəət yetirmək niyyətilə “bacarıqsız” hökuməti düşürüb “bacarıqlı”sını qoymaq?

Əgər intiqam qəsdi imişsə, vay olsun bizim halımıza ki, müqəddəratımızı “hərçi bada bad”a qurban etmək məqsədli fikir sahiblərimiz varmış!...

Əgər “bacarıqsız” və “bacarıqlı” söhbəti isə, bu halda ki, istiqlaliyyətimiz hələ rəsmən tamam deyildir, hökumətin bacarığını – Fətəli xan Xoyski demişkən – Tağıyev fabrikasının bez arşını ilə ölçmək olmaz, bəs nə ilə ölçmək olar?

Zənnimcə tomsonların və milnlərin: “Azərbaycanda ancaq Azərbaycan Hökuməti tanınacaqdır” məzmunlu sözlərinin, kimin səy və çalışması və aqilanə və müdəbbiranə [ağıllı və uzaqgörən] politikası nəticəsi olduğu keyfiyyətinin əhəmiyyətifövqəladəsi ilə ölçmək gərəkdir.

Ola bilsin ki, “İttihad” fraks[iy]asının “bezi düz ölçə biləcək” kandidatları var; fəqət bu kandidatlar, bugünkü siyasət və vəziyyətin nə qədər nazik və rəqiqliyini də [incəliyin və həssaslığını da] layiqi ilə ölçə bilərlərmi? Və hərgah bu gün Azərbaycan məmləkətinin halı “İttihad”çıların sözlərinə görə “cəhənnəm”dirsə, əcəba bu “cəhənnəmi” döndərib də “cənnət” halına sala biləcək adamları varmı ki, bunları düşürüb də onları qoyaq?

Və bir də vaqedə “bez” oğurlayanlar, rüşvətxorlar və sair cinayət sahibləri varsa və şikayət bunun üstündə isə, o halda o cürə xainləri hökumət əli ilə tutdurub məhkəməyə vermək lazımdır, daha hökuməti itələyib yıxmağın mənası nədir?!

*Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

**İngiltərənin məlumati-rəsmiyyəsi**

Birinci Könüllü Süvari Qolordusu komandanı general Pokrovskinin məktubuna nəzərən general, Mozdok şəhərini işğal ilə bolşeviklərdən 10 min əsir tutmuşdur. Fevralın 3-də Çerdonnının da işğalı gözlənir. Buradan qoşunların bir hissəsi Qudermesə, 2-nci hissəsi isə Kizlyara getməli idi.

Fevralın 6-da general Kolesnikov iki top, bir neçə pulemyotla bir dəstə qoşunu Staro-Klavdovskiyə götürmüşdür. Onun yerdə qalan qüvvəsi fevralın 7-8-ində Qroznıya göndəriləcəkdir.

- Dağıstan Hökumətinin məlumati-rəsmiyyəsinə görə, dağıstanlıların dəstəsi Aksayın altında hərbə hazırdırlar.

**İngilis təyyarələri**

Fevralın 3-də Şamilqalada (Petrovsk) olan ingilis təyyarəçiləri yarım diviziya miqdarında olan bolşevik qoşunları üzərinə bomba tökmüşlərdir. Fevralın 5-ində isə Qroznıda olan qışlaların [kazarmaların] üzərinə bomba tökülmüş və orada yanğın başlamışdır. Qroznının qərbi cəhətində dəmiryola və Naurskinin yaxınlığına bomba atmışlardır.

**Türkiyədə böhrani-vüzəra**

Odessa - İstanbuldan verilən xəbərlərə nəzərən, [Əhməd] Tofiq paşa kabinəsi istefa vermişdir.

**Spartakların qaçması**

Son spartak çıxışında iştirak etmiş Berlinin sabiq qalabəyisi Exkordn İsveçə qaçmışdır. Hökumət tərəfindən bu vaxta qədər həbs edilməmiş olan sair spartak başçıları da qaçmaq fikrindədirlər.

* Riqa - Libavadan xəbər verildiyinə nəzərən, ingilis gəmiləri Libava iskələsindən [limanından] getmişlərdir. Litvanın burjuaz hökuməti Libavadadır. Rusiya ordusunun sabiq afserləri silah altına dəvət edilmişlərdir.

* Orenburq – (3 fevral) Beş günlük fasilədən sonra, dünən bolşeviklərin izdihamlı iclasları vaqe oldu. İclasda intixab edilmiş [seçilmiş] komissiyaya şura intixabı [seçilməsi] mühəvvəl [həvalə] edilmişdir.

* Paris - Şimali Rusiya Hökuməti başçısı Çaykovski, Berqen təriqi [yolu] ilə Parisə Sülh Konfransına əzimət eyləmişdir [yola düşmüşdür]. Çaykovski Rusiyada bolşeviklərlə mübarizə barəsində Vilsonla müşavirədə bulunacaqdır.

* General Dot ilə Peter Kolber Transvaal və Oranj cümhuriyyətləri namından [adından] burlara istiqlaliyyət verilməsi barəsində Vilsona bəyannamə təqdim etməli olduqlarından, Cənubi Afrika hökumətləri bu generalların Avropaya getmələrini qadağan eyləmişdir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 10 fevral (Bazar ertəsi günü) tarixli 110-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## SÜLH ƏTRAFINDA

İstanbul – Nyu-Yorkdan xəbər verilir ki, Amerika Parlamanı Cümhuriyyətçi firqəsinin nümayəndəsi senator Lodj xarici işlərə baxan komissiyaya öz firqəsi namından zeyldəki [aşağıdakı] sülh şərtnaməsini təqdim eyləmişdir:

1) Mərkəzi Avropa dövlətləri bütün hərbi xərcləri ödəməlidirlər.
2) Ümumi və xüsusi müəssisələrə sualtı müharibəsindən verilən zərərlər hakəza [habelə] həman dövlətlər tərəfindən verilməlidir.
3) Müharibə zamanında dinc əhaliyə yetişən zərərlər hakəza verilməlidir.
4) Mərkəzi Avropa dövlətləri tərəfindən Müttəfiqlərin bütün məsarifati-hərbiyyələri [hərbi xərcləri] və birinci növbətdə Belçika, Fransa və Serbiyanın dava xərcləri verilməlidir. Bu məbləği verənədək Mərkəzi dövlətlərin maliyyatı [maliyyəsi] Müttəfiqlərin kontrolu altında olmalıdır.
5) Elzas-Loren Fransaya qaytarılmalıdır.
6) İtaliyanın iddia etdiyi yerləri qaytarılmalıdır.
7) Bir neçə türk əyalətləri türklərdən alınıb Müttəfiqlərin təhti-himayəsində [himayəsi altında] olmalıdır.
8) Dardanel Müttəfiqlərin kontrolu altında olmalıdır.
9) Serbiya, Albaniya, Romaniya və Yunanistan özlərinin milli ittihadını [birliyini] vücuda gətirməlidirlər.
10) Lehistan [Polşa], cənubi slavlar və çexslovaklar müstəqil olmalıdırlar.
11) Rusiyada asayiş bərpa edilməli, Almaniyanın Rusiya işlərinə müdaxilə etməməsi üçün təminat alınmalıdır.
12) Almaniya müstəmləkələri Almaniyaya qaytarılmamalıdırlar.
13) Kill və Helqoland kanalları Müttəfiqlərin kontrolu altında olmalıdır.
14) Brest-Litovsk və Bükreş əhdnamələri [müqavilələri] ləğv edilməlidir.
15) Mərkəzi dövlətlərin hərbi gəmiləri Müttəfiqlərə verilməlidir.
16) Mərkəzi dövlətlər tərk-silah edilməlidir.
17) Sülh şəraitinə [şərtlərinə] əməl edilənədək Mərkəzi dövlətlər qitələrindən [hissələrindən] bəziləri Müttəfiqlər tərəfindən istila edilməlidir.
18) Yalnız Kayzeri deyil, Lahey Konfransının qətnaməsinə xələl yetirənlərin hamısı məhkəməyə verilməlidir.
19) Beynəlmiləl hakəm [arbitr] və Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] təsis edilməlidir. Mərkəzi dövlətlər sülh şərtnaməsini əmələ gətirməyincə və öz qitələrinə azadlıq verməyincə bu müəssisələrə buraxılmayacaqlardır.

## BAKI XƏBƏRLƏRİ

**Əsgərliyə dair**

Balaxanı-Sabunçu polis müdiri tərəfindən təhti-idarəsində [idarəsi altında] bulunan cəmi kəndlərin kəndxudalarına 5 şubat tarixi ilə aşağıda surəti yazılan təmimnamə [yazılı göstəriş] göndərilmişdir:

Bu axırıncı günlərdə görürəm ki, kəndxudalar əsgərlik işlərində çox səhlənkarlıq edirlər. Məsələn əsgərləri istənilən gündə gətirməyib və çoxusunu heç də gətirmirlər və gətirmədiklərinin səbəbini yazıb bildirmirlər. Əsgərlərlə bərabər özləri də gəlməyirlər. Halbuki Hökumətimizin əvvəlinci və mühüm işi əsgərlik məsələsidir. Kəndxudalar bu böyük işi səhl [asan, bəsit] sayırlar. Ona görə cəmi kəndxudalara əmr edirəm ki, əsgərlik işləri hər bir qulluqdan əvvəl və mühüm olan o[n]ların vəzifəsidir. Kamali-diqqətlə əmələ gətirib, heç bir vəchlə təxəllüf eyləməsinlər [zidd getməsinlər; işdən yayınmasınlar] və onları xəbərdar eyləyirəm ki, hərgah, bu barədə cüzi bir xilafi-qanun hərəkət və səhlənkarlıq olunarsa, Hökumətin və cənab Hərbiyyə nazirinin mənə verdiyi ixtiyara görə onları ən şiddətli cəza və tənbehə düçar edəcəyəm və həmçinin müqərrər eyləyirəm [qərara alıram] ki, nə surətlə olubsa hərbi komitələrin yazıb göstərmədikləri əsgərlik sinnindəki [yaşındakı] cavanların siyahısını 5 günə qədər yazıb mənə pişnihad [təqdim] eyləyəsiniz və bu müddət keçəndən sonra, hərgah bir nəfər gizlədilmiş cavan məlum olarsa, komitəylə bərabər kəndxudalar da qanunun ən şiddətli cəzasına giriftar olacaqlar.

*Balaxanı-Sabunçu polis müdiri:*
*Lütfəli bəy Əmircanov*

* 8 şubat 1919, şənbə günü saat 2 bədəzzəval [günortadan sonra] Sabunçu-Ramanı-Zabrat-Balaxanı məntəqələri mədənlərində çalışan müsəlman fəhlələri tərəfindən bavəsiqə intixab edilmiş [vəsiqə ilə seçilmiş] nümayəndələr Balaxanı mədənlər mərkəzi "Müsavat" şöbəsi idarəsində heyəti-idarə əzası məiyyəti ilə [idarə heyəti üzvlərinin iştirakı ilə] mitinq quraraq:

1) Parlamanla münasibətimiz;
2) Fəhlə Vəkilləri Şurası [Fəhlə Deputatları Soveti] və bələdiyyə seçkilərinə nəzərimiz məsələləri müzakirə edildi.

Nəticədə:

1) Ümum müsəlman işçiləri tərəfindən Parlamana etimad və etimadnamə təqdim edilməsi təhti-qərara alındıqdan sonra;
2) Seçkilər xüsusunda zirdə [aşağıda] yazılmış qərar qəbul edildi:

Biz Azərbaycan müsəlman işçiləri, milli Parlamanımız və Parlaman müqabilində məsul Hökumətimiz və Hökumət Şurasında Məsai Nəzarətimiz [Əmək Nazirliyimiz] mövcud olduğundan, Fəhlə Vəkilləri Şurasına ehtiyacımız yoxdur. Bələdiyyə seçkisi isə Hökumət tərəfindən demokratik üsulla bələdiyyə seçkisi xüsusunda təşəbbüsatda bulunmaq üçün vəqti-lüzumunda [lazım olan vaxtda] Parlaman vasitəsilə tədbirlər görülməyi mümkündür. Əqəliyyət [azlıq] təşkil edən vətəndaşlarımızın məzkur [deyilən] seçkilərdən məqsədləri iqtisad nöqteyi-nəzərindənsə, Fəhlələr İttifaqı kifayətdir. Bir daha şura intixabına [seçkisinə] lüzum yoxdur. Əgər yenə siyasi intriqalar çevirməksə, o vaxt bilmiş olmalıdırlar ki, biz müsəl man işçiləri, Azərbaycan istiqlalına müzirr [zərərli] olan bütün maddələri dəf etməkdə tam heysiyyətimizlə mücahidə edəcəyiz [cəhd edəcəyik, mübarizə aparacağıq].

*Mitinq sədri: Rəhim bəy Cahangirzadə*
*Katib: Yusifzadə Əbdürrəhim*

## CƏMİYYƏTİ-XEYRİYYƏ

Cümə günü, şubatın 7-si, gündüz saat 2 radələrində Şəhər Dumasının zalında Cəmiyyəti-Xeyriyyənin ümumi iclası oldu. Hazirun [iştirak edənlər] 50 nəfərdən ziyadə idilər.

İclas ikinci dəfə çağırıldığından müftü, şeyxülislam, qazı və sair üləma [din alimləri] və sair əşxas [şəxslər] hazır idilər.

Əliağa Həsənovun sədarəti ilə məclis açılır. Həsənzadə cənabları halımıza dair müxtəsər bir nitq söyləyib ümumi iclasa bir sədr seçilməsini təklif edir. Əksəriyyətlə Qasım Qasımzadə intixab olunur. Qasım Qasımzadə cənabları müfəssəl gözəl bir nitq ilə füqəranın indiki halını təsvir və Cəmiyyəti-Xeyriyyənin dağılmış, yanmış binasının yenidən təmir olunmasının tövsiyəsi və zəkatın verilməsi barəsində təkidatda bulunub, nədənsə bu barədə danışan yoxdur deyir. Bir vaxtda ki, cəmi işlər yatıb, məxluqun bir qədəri varlanıb, bir çoxu acından həlak olmaq dərəcəsinə gəliblər, yaxşı olardı ki, yeni intixab olunacaq möhtərəm idarə üzvləri cidd-cəhd edib bir çox milyonlar qazanmış ağalardan ianə cəm edib Cəmiyyəti-Xeyriyyənin binasını yenidən təmir etməklə bərabər dülgərlər, bənnalar və qeyri fəhlələr orada işləyib aclıq bəlasından bir növ xilas olsunlar və bədəhu [sonra], sədr bir katibi-ümumi [ümumi katib] iclasa dəvət edir. Əksəriyyətlə İbad Əlizadə intixab olunur.

Sədrdən sonra bir neçə nəfər nitq söyləyib idarə intixabına şüru edilir [başlanır]. Əksəriyyətlə cənab Hacı Zeynalabdin Tağıyev fəxri sədr və üləmalardan isə müftü Mustafa əfəndi [Əfəndizadə], Axund Molla Ağa [Ağaəlizadə], Ağa Mirməhəmmədkərim [Mircəfərzadə] və Axund Əbdürrəhim [Hadizadə] idarəyə fəxri üzv intixab olunurlar. Sonra örtülü seçki ilə 12 nəfərdən ibarət zeyldəki [aşağıdakı] şəxslər idarə üzvü intixab olunurlar:

Əsədulla Əhmədzadə, İsmayıl bəy Səfərəlizadə, Qasım Qasımzadə, Əbdüləli bəy Əmircanzadə, Qəni Məhəmmədzadə, Musa bəy Əmircanzadə, Hacı Qasımzadə, Mirzə Əsədullazadə, Məhəmmədəli Salehzadə, Yusif Mehdizadə, Abbas Eyvazzadə, Mehdi bəy Hacınski və Ağa Qədirzadə.

İdarəyə kandidat intixab olunur. Təftiş komitəsinə isə açıq seçki ilə əksəriyyətlə 4 nəfər – Abbasəli Kərimzadə, Yusif Hüseynzadə, Yusif Əhmədzadə və Mahmud bəy Axundzadə intixab olunurlar.

Üləmalar ilə əğniyaların [varlıların] yekdigərinə [bir-birlərinə] söz verdiyindən, ələlxüsus Ağa Mirməhəmmədkərim ağanın "Olmasın ki, yenə tənbəllik edib hər kəs öz evində rahat oturaq, zaman işləmək və hümmət zamanıdır və qeyrə" söyləməyindən ümidvaram bir an qəflət etməyib iclasda söylənən gözəl nitqlər və fikirlər qövldən feilə [sözdən işə] gələ və füqəranın halı nəzərə alınıb bir növ yaxşılaşdırıla və zalımlar əli ilə yanmış "İsmailiyyə" binası tez bir zamanda təmir olunub dağdar olmuş [dağlanmış] ürəklərə təsəlli ola. Hümmətül-rical təqləül-cibal.

*M. Ə. Qasımzadə*

## DAĞLI MƏHƏLLƏSİ

Bakının bir guşəsində "Dağlı məhəlləsi" namı [adı] ilə məruf [bilinən] bir camaat yaşayır ki, nədənsə unudulmuş və bəlkə siyahıdan cızılmış və bir guşeyi-nisyana [unudulma guşəsinə] atılıb qalmışlardır. Sanki bu zavallı dağlılar o qədər mənfur, o qədər vəhşi imişlər ki, bunları islah etmək bir yana dursun, hətta hallarına yanmaq, dərdlərinə bir çarə aramaq da böyük bir qəbahətədd [hesab] olunurmuş ki, nə Şəhər İdarəsi, nə Mərkəzi Ev Komitəsi və nə də demokrat deyə fəryad edən ictimaiyyunlar [sosialistlər] bunların adlarını belə eşitmək istəməyirlər.

Müstəbid hökumət zamanında "padişahımız urusdur" deyə tən qəzaya verib bir növlə günlərimizi keçirirdik. İnqilabdan sonra da "hökumət bolşevikdir, divan yox, divanxana yox" deyə hərə başına çarə aramaq fikrində oldu.

Təşəkkürlər olsun ki, bu gün Azərbaycan ismində bir türk, bir islam hökumətimiz vardır və lazım görülərsə, qanımızla onun istiqlaliyyətini müdafiə edəcəyiz.

Bu gün Azərbaycan qeydkeşləri də fəlakət və cəhalət içində boğulub qalan bir Dağlı camaatı dəxi olduğunu bilməlidirlər. Dərdimizi söyləyəcək, halımızı dinləyəcək bir fəryadrəsimiz [fəryadımıza çatan] olar ümidi ilə qəzetə ilə də olsa ələmlərimizi bildirəlim. Fəqət, bu barədə müfəssəl məlumatı sonraya qoyub da hələlik bir qaç mühüm məsələlərlə iktifa [kifayət] edirəm.

1) Neyçün Dağlı məhəlləsində polis tərəfindən bir qaç nəzarətçi bulunmayır ki, qəbristanlığın ağac xaçlarını qarət edib putu 10 manata satanlara cəzası verilməyir?

2) Neyçün tamam şəhəri qorxuya, təşvişə salan müsri [yoluxucu] xəstəliklərin dəfinə çalışanlar zəhmət qəbul edib bir dəfə də olsa Dağlı məhəlləsinə nəzarət yetirməyirlər? Biləks [əksinə], şəhərdən zibili daşıyıb Dağlı məhəlləsinin yanındakı qar ambarlarına tökürlər.

3) Hər yeri işıqlandırmaq istəyirlər. Bu barədə Bələdiyyə ilə Sentrodomun da [Mərkəzi Ev Komitəsinin də] çalışmaları bəllidir. Lakin dağlılar işıqdan da məhrum. Onlar ki, xərcləri də özlərindən, bir il bundan əqdəm [qabaq] Dumaya ərizəylə müraciət edərək işıq istəmişlərdi. Səbəb nə isə onlara işıq verilməyir!

4) Hər yerə baxırsan ev komitələri nizam və qayda üzrə, fəqət Dağlı məhəlləsinə gələndə hərə özü üçün bir siyahı düzəldərək komitə sədri olmuşdur.

Əgər Mərkəzi Ev Komitəsi bunlardan bir şey gözləyirsə, onda bunları nizam və qaydaya salmalıyız. Yoxsa, qadın və çocuqlardan ibarət komitə sədrlərindən bir fayda bəkləməklə çarə olammaz.

Dağlı məhəlləsindəki ev komitələri təzədən təşkil olunmalı, iş bilən bacarıqlı adamları aralarından seçməli və onlardan lazımi vaxtında məlumat tələb olunmalı, vəilla [yoxsa] hər kəs özü üçün komitə olub keyfi istədiyini yaparsa, nə bu gün əsgərlikdən qaçıb gələn vətən və millət xainlərini bulmaq olar və nə də əyri-oğruların qədəri azalar və nə də camaat adına ərzaq alıb-satanların təmahı əksilər.

Müxtəsər, dağlı məhəlləsinin halına bir canı yanan, islahına çalışan bulunarsa, bugünkü cahil dağlılardan gələcəkdə Azərbaycan üçün mənfəət verən sağlam vücud əmələ gələcəyinə ümid etmək olar.

*Dağlı*

## AZƏRBAYCANDA

**Böyük və Kiçik Dəhnə qəryələri [kəndləri]**
(Şəki uyezdi)

Bizim bu iki yekdigərinə [bir-birinə] mərbut [bağlı] 2 min xanəni havi [evdən ibarət] Böyük və Kiçik Dəhnə nam köylərimiz elm və maarifcə pək geridədirlər. Hal-hazırda nə bir ibtidai (qız və erkək) məktəb və mədrəsələrimiz və nə də adi bir məhkəmə (sud) xanələrimiz vardır. Əvvəlləri hökumət tərəfindən məcburiyyətlə təmin edilmiş məhkəmələrimiz (sudlarımız) və məktəblərimiz (şkolalarımız) vardı. Qız və erkək çocuqlarımız türkcə və rusca hər gün təlimlər alırdılar. Şimdi isə məsum çocuqlarımız səfil və sərgərdan tozlu və çamırlı küçələrdə oynamaqla, atılıb və düşməklə gün keçirirlər.

Və bir dəxi biri digərinin haqq və muzdunu verməkdən imtina edərsə, bir idarə və məhkəmə yoxdur ki, ona şikayətdə bulunub bu zavallı məzlumun haqq və muzdu alınıb kəndinə iadə olunsun [qaytarılsın].

Hal-hazırda 6 nəfər böyük ruhani alimlərimiz vardır və bir nəfər də Türkiyədə təhsil etmiş gənc müəllimimiz vardır ki, bihümmət camaat bunları daima avaralıqda qoyub əsla vəz və nəsihətlərinə etina etməyirlər.

Keçən sənələrdə zavallı alimlərimiz üz suyu tökərək camaatımızın taxıl xırmanlarını dolanıb zəkat (üşr) toplayırdılar. Ta sənəvi [illik] ailə azuqələrini kifayətcə hüsula gətirirdilər. Bu sənə isə camaatımızın hökumət tərəfindən üşrləri tamam toplanıb Şəki şəhərinə göndərildi. Bu bəhanə edilərək alim şəxslərimizə maaş verilməyir.

Alişan Azərbaycan Parlaman üzvləri hüzuri-səadətlərinə bu məruzəni təqdimə cəsarətlə, ziyadəsiylə təmənnada bulunuruz ki, Şəki uyezdinin ümum köylüləri əsrarına [sirlərinə] vaqif, yəni hər dəftərxana camaatından ən mötəbər bir şəxs sənəvi [illik] maaşla müdir intixab edilib [seçilib], Şəki şəhərində "köylülər müdirləri" namı ilə bir idarəxana təşkilinə müsaidə verilsin. Bu şəxslər daima köylülərin dini, milli və sair mühüm ehtiyaclarını nəzəri-etinaya alıb sərfi-hümmətlərini məcburiyyətlə camaatlarına icra edib lazımi binagüzarlığında bulunsunlar [lazımi addımları atsınlar]. Zira, Şəki məmurları köylülərin lazımi binagüzarlığında daima qüsur göstərirlər.

*Nəsrəddin Məsumzadə*

**Cavanşir qəzasında**

Fevralın 7-sində Tərtərdən Daxiliyyə nazirinə böylə bir teleqraf göndərilmişdir:

Fevralın 3-də 30 nəfər müsəlləh [silahlı] Ağdərə ermənisi Dursun və Xaçaturun başçılığı ilə Qatallıların malqarasını aparmışlardır. Ermənilərlə müsəlmanlar arasında atışmalar başlanıb, Qurban Allahverdi oğlu yaralanmışdır. Bir inək ölmüşdür. Nəticədə mal sürüsü ermənilərdən alınmışdır. Bu əhval Şuşadakı ingilis komandanlığına məlum edilmişdir. Nə qədər ki, dinc əhali arasından Zaxarbəyovlar rədd edilməmişlər bu işlərin intəhası [sonu] olmayacaqdır.

*Mahal naçalniki:*
*Məlikabbasov [Bəhram bəy]*

## TEATRO VƏ MUSİQİ

Mərhum cavan artistimiz Surxay Allahverdiyevin cənazəsi Mixaylovski xəstəxanadan götürülüb Hacıbəyli Qardaşları Müdiriyyəti və artist və artistkaları müşayiəti ilə qəbristana aparılıb dəfn edildi.

Mərhumun qəbri üstündə artist və artistkalar cərgə ilə durub "Uyma dünyaya sən çox da ey dili-qafil" nəğməsini tərənnüm etdikdən sonra müdiriyyət tərəfindən Zülfüqar bəy dəxi bir nitq söyləyib fatihəxan oldular [Fatihə oxudular, dua etdilər]. Səhnə yoldaşları mərhumun vəfatı münasibətilə 600 manata qədər öz aralarında para toplayıb onun dəfninə xərc etdilər.

Artistlərimizdən Sarabski ilə Ağdamski cənabları bir müddət idi ki, naxoş idilər. İndi Sarabski sağalıb ayağa durubdur. Ağdamski isə sağalmaq üzrədir.

Üzeyir bəy Hacıbəyli cənabları tərəfindən "Dağıstan" namında bir balet rəqsi təsnif edilmişdir. Rəqs Hacıbəyli müdiriyyəti artistləri tərəfindən hazırlanıb bu günlərdə mövqeyi-tamaşaya vəz ediləcəkdir [qoyulacaqdır].

## İDARƏYƏ MƏKTUB

**Cəmiyyəti-Xeyriyyəyə dair**

Keçən gün şubatın 8-də axşam saat 6-da müsəlman Cəmiyyəti-Xeyriyyəsinin birinci iclası vaqe oldu. Neçə mühüm məsələlər qət və həll olandan sonra, Cəmiyyəti-Xeyriyyənin sədri Qasım Qasımov cənabları mərhumə validəsi və mərhumə qayınanası üçün ehsan babından Cəmiyyəti-Xeyriyyənin nəfinə [xeyrinə] 5 min manat ianə mərhəmət edib cəmiyyət idarəsinin savabdidi [razılığı] ilə füqəraya təqsim olunmağını [paylanmasını] rica etdi və həman halda İsmayıl bəy Səfərəliyev cənabları 2 min manat məclisə təqdim edib ittila [xəbər] verdi ki, şirni məclisində min manat Əliabbas Sultanov və min manat Həsən Ağayev cənabları füqəraya təqsim olunmaq üçün Cəmiyyəti-Xeyriyyə nəfinə ianə veriblər.

Bu qisim ianələri camaatıma ittila verib xahiş ediriz ki, ehsanatda və ya toy məclislərində Cəmiyyəti-Xeyriyyənin nəfini dəxi nəzərə alıb imkan qədərində ianə verməklə bəzli-hümmət etsinlər [hümmət sərf etsinlər] ki, Cəmiyyəti-Xeyriyyə füqəranın güzəran və məişətlərinin təmin və təxfifinə [yüngülləşdirilməsinə] sərf etsin.

*Şeyxülislam Axund Ağa Ağaəlizadə*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9-2-yə və axşam 4-7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca divar təqvimi satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

**Elan**

Mart hadisatından bu anadək qapalı qalan Ramanı Müstəhliklər Cəmiyyəti "Camaat" dükanı bununla hamı üzvlərinə xəbər verir ki, həmin fevral ayının 4-ündə, saat 2-də, cümə günü Ramanı kənd divanxanası olan binada vaqe olacaq iclasa təşrif gətirsinlər.

Müzakirə olunacaq məsələlər məlum olacaq. İclas 4-üncü dəfə çağrıldığına görə hər nə üzv gəlsə qanuni hesab olacaq.

*2678*

## OPERA
## AXŞAM TAMAŞASI

"Mikado" teatrosunda Malakan bağının yanında
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli müdiriyyəti düşənbə
[bazar ertəsi] günü cəmadiyələvvəl ayının 9-unda
1337 sənəsi (fevralın 10-unda 1919 sənədə)
"Mikado" teatrosunda
müdiriyyətin aktyorları tərəfindən
bu mövsümdə üçüncü dəfə olaraq təntənəli
bir surətdə mövqeyitamaşaya qoyulacaqdır
Üzeyir bəy Hacıbəylinin yazmış olduğu məşhur
**O OLMASIN BU OLSUN**
operettası 4 pərdədə.
Məşhədi İbadın rolunu bu mövsümdə birinci dəfə olaraq
məşhur artist
Ələkbər Hüseynzadə, hammalın rolunu
Rza Darablı ifa edəcəkdir.
Xor, oyunçu qızlar və qeyriləri.
Böyük musiqi orkestri Müslüm bəyin
təhti-idarəsində [idarəsi altında].
Biletlər indidən teatrın kassasında
satılmaqdadır. Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Dirijor: Müslüm bəy Maqomayev.
Müdir: Üzeyir bəy Hacıbəyli.

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***İnna lillahi və inna ileyhi raciun***

"İnna lillahi və inna ileyhi raciun": "Həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq". Bu ifadə, "Quran"ın Bəqərə surəsinin 156-cı ayəsinin bir hissəsidir. Ayə belədir: "O kəslər ki, başlarına bir müsibət gəldikdə, həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq, deyərlər."

***Yanlış bir avaz***

"…məmləkət xatiri güdülürdü": qəzetdə "güdülürdü" yerinə "görülürdü" getmişdir.

"M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

***Təəssürat***

"Halbuki müxaliflərin bez «kəməndləri» hökuməti dolaşdırdığı halda, neft «atəşləri» də yandırıb, buğda «güllələri» də yağış kimi yağırdı.": bez (parça) paylanmasında qanunsuzluq iddiaları, qanunsuz neft ticarəti və Türk Komandanlığının tədarük etdiyi buğda ehtiyatının dağıdılması haqqında sorğular nəzərdə tutulur.

"Ağamalızadə": qəzetdə "Ağaəlizadə" getmişdir.

"Sədiyi-əleyhir-rəhmənin": "Sədinin – ona rəhmət olsun". XIII əsrdə yaşamış fars şairi Şirazlı Sədi nəzərdə tutulur.

"Vəqte-zərurət çu nəmanəd qoriz / Dəst begir əz səre şəmşiretiz": (farsca) "Qaçmaq yolu bağlanıbsa, zəruri olanda / İti qılıncın qəbzəsindən yapış."

"…məmləkətimiz böyük bir bəladan qurtuldu.": qəzetdə "bir" yerinə "bu" getmişdir.

"Hərçi bada bad": necə qurtaracağı bəlli olmayan bir işə girişdikdə işlədilən ifadə; "nə olar, olar".

"Üzeyir": bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

***Teleqraf xəbərləri***

"General Dot": güman ki, general Luis Bota olmalıdır.

"Transvaal və Orajn cümhuriyyətləri": XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Afrikanın cənubunda mövcud olmuş müstəqil dövlətlər olan Transvaal (yaxud Cənubi Afrika Respublikası) ilə Oranj Dövləti (yaxud Azad Oranj Dövləti) nəzərdə tutulur.

"Burlar" [Boere]: Cənubi Afrika afrikanerlərinin subetnik qrupu.

"senator Lodj": Amerikanın siyasi xadimi Henri Kebot Lodj nəzərdə tutulur. Qəzetdə "Lodj" yerinə "Dojd" getmişdir.

"Mərkəzi Avropa dövlətləri": Birinci Dünya müharibəsinin tərəflərindən biri olan İttifaq Dövlətləri (Almaniya, Avstriya-Macarıstan, Osmanlı İmperiyası, Bolqarıstan) nəzərdə tutulur.

"Müttəfiqlər": I Dünya müharibəsinin tərəflərindən biri olan Antanta bloku (Böyük Britaniya, Fransa, Rusiya) nəzərdə tutulur.

"Kayzer": Alman imperatoru II Vilhelm nəzərdə tutulur.

***Cəmiyyəti-Xeyriyyə***

"Hümmətül-rical təqləül-cibal": "Kişilərin hümməti dağları yerindən oynadar" (ərəbcə)

***Azərbaycanda***

"Qatallıların": güman ki, "Qapanlıların" olmalıdır və Tərtərin Qapanlı kəndinin sakinləri nəzərdə tutulmuşdur.

***Elan***

"İclas 4-cü dəfə çağrıldığına görə…": güman ki, "2-ci dəfə" olmalıdır.






# Gənclik






Gənclər siyasəti

**Xalqın, dövlətin ən böyük ümidi gənclərdir. Çünki hansı sənət sahəsini seçməsindən asılı olmayaraq, ailəsinə və ölkəsinə faydalı olan, bacarıqlı, işgüzar, dürüst gənclər yalnız bugünkü uğurlarda müstəsna rol oynamırlar, onlar həm də gələcəyə gedən yolun davamçılarıdırlar.**




## Onlar ölkəmizin daha işıqlı gələcəyinə səs verdilər

Bir həqiqət də var. Hərtərəfli bilik qazanan, ən məşhur universitetlərdə, akademiyalarda təhsil alan, yüksəkixtisaslı kadr kimi tanınan, lakin xalqına, dövlətinə xeyirli övlad olmayanlar da hər bir dövrdə olub. Belələri təkcə özlərini düşünüb, mənfəətlərini güdüblər. Necə deyərlər, öz işıqları ilə yalnız öz yollarını işıqlandırıblar. Vətəni sevməyin əsas göstəricisi isə ona faydalı olmaq, dövlətini qorumaq, xalqının mənəvi sərvətlərinə sahib çıxmağı bacarmaqdır.

Elələri də var ki, xalqına sevgidən dəm vurur, gəlişi gözəl ifadələr işlədirlər. Onlar hamıdan çox göz önündə olmağı, ağızdolusu danışmağı xoşlayırlar. Amma vətən sevgisini göstərmək üçün fədakarlıq lazım gələndə meydanda görünmürlər. O vaxt hər kəsin əsl kimliyi ortaya çıxır. Ancaq nə tarix, nə də xalq unutqandır.

Ermənistanın otuz ilədək davam edən işğalı Azərbaycan xalqının səbrini sınağa çəkmişdi. 1990-cı illərdən torpaqlarının iyirmi faizi erməni qəsbkarları tərəfindən zəbt olunmuşdu, Qarabağına, Şərqi Zəngəzuruna həsrət idi. Bildiyi o idi ki, həmin yerlər düşmən tapdağı altındadır. Erməni vandalları təbiətinin gözəlliyi dillər əzbəri olan o bölgələri xarabalığa çevirmişdilər, Azərbaycan xalqının tarixini əks etdirən qədim abidələri vəhşicəsinə dağıtmışdılar. Qarabağ və Şərqi Zəngəzurun əzəli sakinləri olan azərbaycanlıların evlərini, yurdlarını yerlə yeksan etmişdilər.

Qarabağ və Şərqi Zəngəzur təcavüzkar ermənilər tərəfindən qəsb ediləndə hələ ağlıkəsməz uşaq olanlar da, işğal illərində dünyaya gələnlər də eyni nisgillə, eyni qübarla yaşayırdılar. Odur ki, 2020-ci il sentyabrın 27-də, Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsinin ilk günündə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qismən səfərbərlik əmri ilə ölkəmizin bütün bölgələrindən gənclər hərbi komissarlıqlara müraciət etdilər. Onların hər biri israrla cəbhəyə getmək, işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı döyüşlərdə iştirak edərək Qarabağ və Şərqi Zəngəzur torpaqlarını azadlığına qovuşdurmaq, şəhidlərimizin qisasını almaq istəyirdilər. Bu ruhla döyüşlərə yollanan gənclərimiz düşmənin otuz ilə yaxın qurduğu və alınmaz saydığı istehkamlarını darmadağın etdi, döyüşçülərini işğal altında saxladıqları ərazilərimizdə ağır məğlubiyyətə uğratdılar.

İkinci Qarabağ müharibəsindən sonra Prezident İlham Əliyev Şuşaya səfəri çərçivəsində Cıdır düzündə olarkən gənclərimizin vətənpərvərliyini yüksək dəyərləndirərək vurğuladı: "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib".

Həmin gənclər İkinci Vətən müharibəsindən sonra da düşmənin hiylə və təxribatlarına qarşı mübarizədə ön sıralarda dayandılar. 2020-ci ildə qazandığımız Zəfərdən sonra da Azərbaycan torpaqlarında Ermənistanın təxribatlar, terrorlar törətməkdə davam etməsi, təbii sərvətlərimizdən gözlərini çəkməməsi xalqımızı hiddətləndirirdi. 2022-ci il dekabrın 12-də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii ehtiyatların qanunsuz istismarına etiraz olaraq Laçın-Şuşa yolunda etiraz aksiyası başladı. Etirazçılar "Qızılbulaq" qızıl yatağında və "Dəmirli" mis-molibden yatağında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edirdilər. Dinc aksiya havanın soyuq, şaxtalı günlərində aylarla davam etdi. Etirazçılar Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Ekoloji cinayətə son!" və sair şüarlar səsləndirirlər. Tələbləri yerinə yetirilənədək davam etdirilən aksiya iştirakçılarının arasında gənclər xüsusi fəallıqları ilə seçilirdilər.

Ötən ilin sentyabrında Azərbaycan Ordusunun apardığı lokal xarakterli antiterror əməliyyatları nəticəsində Qarabağda qalmış Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri və separatçılar məğlub edildi. Ölkəmizin suverenliyinin tam bərpa olunmasında neçə-neçə gənc zabit və əsgərimiz misilsiz igidlik göstərdi.

Fevralın 7-də prezident seçkilərində gənclərin fəallığı bir daha onların dövlətimiz, xalqımız üçün çox əhəmiyyətli məsələlərdə diqqət və həssaslığının nümunəsi oldu. Onlar bu seçkilərin Azərbaycanın bütün ərazilərində keçirilməsinin qüruru ilə öz səsvermə hüquqlarından istifadə etdilər. Minlərlə gənc isə Zəfər seçkisində ilk dəfə səs verməyin sevincini və həyəcanını yaşadı.

Prezident seçkiləri ilə bağlı səsvermə təkcə ölkəmizdə keçirilmədi. Azərbaycanın hüdudlarından kənarda yaşayan həmvətənlərimiz, o cümlədən xaricdə təhsil alan, çalışan gənclərimiz də böyük iftixar hissi, fərəhlə bu prosesdə iştirak etdlər. Azərbaycanlı gənclərin hər biri ölkəmizin gələcəyi naminə, qüdrətli Azərbaycanın tərəqqisi və çiçəklənməsi üçün səs verdilər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Tarix yazan oğullar

## "Ən böyük arzumuz Şuşa uğrunda döyüşüb qələbə qazanmaq idi"



**"Mən anadan olanda Ermənistan Qarabağı işğal edib torpaqlarımızı xarabazara çevirmişdi. Bir milyona yaxın insanımız tarixi torpaqlarımızdan didərgin salınmışdı. Qarabağın tacı gözəl Şuşa düşmən işğalı altında idi... Hər dəfə televiziyada qaçqın düşərgələrini göstərəndə, Xocalı faciəsi zamanı başı müsibətlər çəkmiş soydaşlarımıza qulaq asanda, o dəhşətli faciə haqqında məktəbdə müəllimlərimin, evdə valideynlərimin söhbətlərini dinləyəndə uşaq olsam da, qəzəblənirdim. Sanki od tutub yanırdım. Tez böyümək, hərbi xidmətdə olmaq, soydaşlarımızın qısasını almaq istəyirdim. İndi çox xoşbəxtəm. Çünki istəyim həyata keçib. Hərbi xidmətimin ilk günündən XTQ-də qulluq etmişəm. Qürurluyam ki, Şuşanı azad edən, Şuşaya ilk girən qrupun tərkibində mən də olmuşam".**

Redaksiyamızın qonağı, XTQ-nin sabiq döyüşçüsü, Vətən müharibəsi iştirakçısı, qazi Vaqif Vilayət oğlu Cəbrayılov həyat hekayəsini danışır. Vaqif 1996-cı il mayın 1-də Sabirabad rayonunun Nizami kəndində anadan olub. 2003-2014-cü illərdə Nizami kənd orta məktəbində təhsil alıb. 2017-ci ildə həqiqi hərbi xidmətə çağırılıb.

Vaqif deyir ki, kiçik yaşlarımdan arzum XTQ-də qulluq etmək olub. Allahım dualarımı qəbul etmişdi. Təlimlər çətin olsa da, arzuladığım yerdə xidmət keçdiyim üçün çox sevinirdim. Hərbi xidməti başa vurduqdan sonra ordu sıralarında qalıb MAXE kimi qulluq etdim.

Vaqif Cəbrayılov 44 günlik Vətən müharibəsi zamanı Kəlbəcərin, Cəbrayılın, Xocavəndin, Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edib. O günləri xatırlayaraq deyir: "Müharibə başlayan gün komandanlığın əmri ilə Murova gedərək Ömər aşırımı istiqamətində döyüşlərə başladıq. İlk döyüşdə strateji əhəmiyyətli " Canavar 1" , "Canavar 2" postlarını, eyni zamanda strateji əhəmiyyətli bir yüksəkliyi işğalçılardan azad etdik. Susuzluq istiqamətində irəliləyib növbəti əmri də uğurla icra etdik. Susuzluq istiqamətində döyüş tapşırığını yerinə yetirdikdən sonra növbəti əmr gəldi. Dərhal əmrə uyğun hərəkətə başladıq. Geri dönərkən yaxınlığıma minaatan mərmisi düşdü. Mən sol gözümdən ağır yaralandım. Gəncə şəhərində yerləşən 230 saylı hospitala təxliyə olundum. Üç gün orada müalicə olunduqdan sonra Silahlı Qüvvələrin Baş Kliniki Hospitalına göndərildim. Gözümdən əməliyyat olunduğum günün səhərisi yenidən cəbhəyə yola düşdüm. Döyüşə qoşulanda Hadrut qəsəbəsi bölmələrimiz tərəfindən azad olunsa da, dörd yol adlanan ərazidə döyüş əməliyyatları hələ də davam edirdi. Oradan başlanan döyüş yolum Şuşayadək davam etdi. Xocavəndin və Xocalının kəndlərinin azad olunması uğrunda gedən döyüşlərin hamısında iştirak etmişəm".

Vaqif deyir ki, XTQ-nin hər bir döyüşçüsünün arzusu Şuşanın işğaldan azad olunması uğrunda döyüşmək idi.

Vaqif Cəbrayılovun Vətən müharibəsində göstərdiyı qəhrəmanlıqlar dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək "Azərbyacan bayrağı" ordeni, "İgidliyə görə", "Şücaətə görə", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Hazırda Sosial Müdafiə Nazirliyinin DOST agentliyində baş təlimatçı vəzifəsində çalışan Vaqif Cəbrayılovun bir oğlu var.

Vaqif deyir ki, xoşbəxtəm ki, oğlum müstəqil, azad Azərbaycanın vətəndaşı olaraq qayğısız böyüyür. Xoşbəxtəm ki, torpaqlarımızın azad olunması uğrunda can qoyan döyüşçülərin sırasında mən də olmuşam.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Şahdağda keçirilən "Heydər Əliyev Kuboku" turnirinin qalibləri məlum olub

**"Şahdağ" Turizm Mərkəzində keçirilən həvəskar xizəkçilər arasında "Heydər Əliyev Kuboku" turnirinə yekun vurulub.**




Altı yaş kateqoriyasında çıxış edən həvəskar xizəkçilərin mükafatlandırma mərasimi keçirilib. 18-25 yaş kişilər arasında Ramiz Ağayev 1-ci, Cəmil Qarayev 2-ci, Arif Aşurbəyov isə 3-cü yerə layiq görülüb. 26-45 yaş kateqoriyalı kişilər arasında Rəşad Mədətov 1-ci, Amir Abdullayev 2-ci, Emin Rəsulov isə 3-cü olub. Qadınlar arasında Anna Vəliyeva 1-ci, Günay Abdullayeva isə 2-ci yerə layiq görülüb.

Qaliblər "Şahdağ" Turizm Mərkəzi və Qış İdman Növləri Federasiyası tərəfindən medallar və diplomlarla təltif olunub.

## Naxçıvanda ilk dəfə "Yaşıl məktəb" layihəsi həyata keçiriləcək

**Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həmçinin Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə və "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunan "Yaşıl məktəb" layihəsi həyata keçiriləcək.**




Təhsil Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, "Yaşıl məktəb" layihəsinə fevralın 15-dən start veriləcək və dekabrın sonuna qədər olan dövrü əhatə edəcək.

Layihə çərçivəsində muxtar respublikanın ümumtəhsil müəssisələrinin ərazilərində reyleфə uyğun 10 min meyvə və dekorativ ağacların əkilməsi nəzərdə tutulur.

Ağacəkmə aksiyaları könüllü olaraq tədris müəssisələrinin kollektivlərinin, valideynlərin, həmçinin könüllülərin və digər ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçiriləcək.

Qeyd edək ki, "Yaşıl məktəb" layihəsinin məqsədi ətraf mühitin qorunması, şagird və tələbələrdə təbiətə qayğı hissini, ekoloji mədəniyyəti və maarifləndirməni inkişaf etdirməkdən ibarətdir.

Dünyaya çağırış

## Gənc tədqiqatçının uğurları






**Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini Aytən Zamanova ABŞ-nin Harvard Universitetinin Harvard Kennedy School tərəfindən təşkil edilən idarəçilər üçün "Leadership for the 21st Century" (XXI əsrdə Liderlik) adlı xüsusi təhsil proqramında iştirak etmək hüququ qazanmışdır. Aytən xanım bu ilin yanvarında müvafiq proqramda iştirak edərək təhsilini uğurla başa vurmuş və Harvard Universiteti Harvard Kennedi Məktəbinin xüsusi sertifikatı ilə təltif edilmişdir.**

İdarəçilər üçün nəzərdə tutulmuş bu proqrama ABŞ, Avstraliya, Braziliya, Argentina, Fransa, Böyük Britaniya, Yaponiya, Tayvan, Kenya, Yunanıstan, BƏƏ, Albaniya, Çin, İspaniya, Almaniya, İtaliya, Hindistan, Qətər və digər ölkələrdən 85 rəhbər vəzifəli şəxs və mütəxəssis qatılıb. Proqram müddətinin nisbətən qısa olmasına baxmayaraq, tədris prosesi kifayət qədər intensivliyi, öyrədiciliyi və səmərəliliyi ilə seçilib.

A.Zamanova "Leadership Challenge" və "Immunity to Change" mövzularında təqdimatlar etmiş və proqramda xüsusi fəallığına görə Harvard Kennedi Məktəbinin xüsusi təşəkkürünə layiq görülmüşdür.

Proqramın maraqlı və qürurverici məqamlarından biri də dərslərdən birinin Türkiyə Cümhuriyyətinin banisi, Böyük Öndər Mustafa Kamal Atatürkün liderliyinə həsr edilməsidir. A.Zamanova hesab edir ki, artıq uzun müddətdir dünyanın ən aparıcı universitetlərindən birində - Harvard Universitetində Atatürk Liderliyi mövzusunda dərsin keçirilməsi və öyrədilməsi hər bir türk övladı üçün təsvirəgəlməz qürurdur.

Proqramın təşkilatçıları və Harvard Kennedi Məktəbinin dekanı sözügedən proqramda ilk dəfə Azərbaycandan nümayəndənin iştirakını yüksək qiymətləndirmiş və məmnunluğunu bildirmişdir.

A.Zamanova mühazirə zamanı professorun: "Auditoriyada türk varmı?" sualına cavab vermək üçün söz alaraq Atatürkün türk dünyası üçün kim olduğunu, təxminən 100 nəfərlik və kifayət qədər multikultural Harvard Universiteti auditoriyasında danışdığı zaman yaşadığı qüruru da bizimlə paylaşmaqdan xüsusilə məmnun olduğunu bildirdi.

Aytən Zamanova proqramda iştirakını eksklüziv bir imkan, qiymətli təcrübə kimi dəyərləndirdi. Bu təcrübənin şəxsi və peşəkar inkişafında əvəzsiz rolu olduğunu vurğulayaraq, Harvard Kennedi Məktəbində əldə etdiyi təcrübəsindən maksimum yararlanacağını bildirdi.

Qeyd etmək yerinə düşər ki, Aytən Zamanova Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin bakalavriat və magistratura səviyyələrini fərqlənmə diplomları ilə bitirib. Birləşmiş Krallığın Robert Qordon Universitetində Neft, Qaz və Alternativ Enerji Hüququ ixtisaslaşması üzrə yüksək səviyyədə magistratura təhsili almış və magistr dərəcəsinə layiq görülmüşdür. Onu da oxucuların diqqətinə çatdıraq ki, hüquq elm sahəsi üzrə tamamladığı fəlsəfə doktorluğu dissertasiyasını müdafiə üçün BDU nəzdində Dissertasiya Şurasına təqdim etmişdir.

*Bəxtiyar ƏZİZLİ,*
*"Azərbaycan"*

Sağlam nəsil, sağlam gələcək

## Qalib Liderə sevgi ilə...

Ölkəmizdə 7 fevral prezident seçkiləri çox mütəşəkkil, demokratik və şəffaf şəraitdə keçdi. Qalib Azərbaycan xalqı bu seçkilərdə fəal iştirak edərək yekdilliklə ona xoşbəxt gələcək, işıqlı sabahlar bəxş edəcək qalib Liderinə - cənab İlham Əliyevə səs verdi. Cəmiyyətimizin aparıcı qüvvəsi olan gənclərimiz də xalqımızın taleyində böyük əhəmiyyət kəsb edən seçkilərdə fəal iştirak etdilər. Bir daha bütün dünyaya sübut olundu ki, onlar cəmiyyətin, ölkənin aparıcı qüvvəsidirlər.



Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal Rayon Mərkəzləşmiş Kitabxana Sisteminin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası, 2 nömrəli kitabxana filialı, Yasamal rayon Heydər Əliyev Mərkəzi və "Gəncliyə Yardım Fondu"nun birgə təşkilatçılığı ilə Yasamal rayon Heydər Əliyev Mərkəzində 7 fevral prezident seçkilərində ilk dəfə iştirak edən gənclərin bir qrupu ilə görüş keçirilib.

Yasamal Rayon Mərkəzləşmiş Kitabxana Sisteminin direktoru, tarix üzrə fəlsəfə doktoru Lətifə Məmmədova tədbiri açaraq prezident seçkilərində ilk dəfə iştirak etmiş gəncləri salamladı. Onları böyük tarixi əhəmiyyət kəsb edən seçkilərdə iştiraklarına görə təbrik etdi. Xüsusi olaraq vurğuladı ki, şəhidlərimizin əksəriyyəti də gənclərdir. Torpaqlarımızın azadlığı uğrunda vuruşan və bu yolda canından keçən oğullar heç vaxt unudulmayacaqlar. Çünki onlar ölümləri ilə ölümsüzlüyə qovuşublar, şəhidlik zirvəsinə ucalıblar.

2 nömrəli kitabxana filialının müdiri vəzifəsini icra edən İradə Hüseynova gənclərə müraciət edərək dedi ki, sizlər ölkəmizin tükənməz qüvvəsisiniz. Gənclik ömrü elmə, biliyə sərf olunmalıdır. 7 fevral prezident seçkilərində gənclərin fəallığını xüsusi vurğulayan İradə Hüseynova bu təbəqənin cəmiyyətin aparıcı qüvvəsi olduğunu söylədi. Yasamal rayon Heydər Əliyev Mərkəzinin böyük elmi işçisi Arifə Mustafayeva "Prezident qayğısı ilə əhatə olunan Azərbaycan gəncliyi" mövzusunda məruzə etdi.

"Gəncliyə Yardım Fondu" qeyri-hökumət təşkilatının aparıcı məsləhətçisi Şahalı Cəlilov ilk dəfə prezident seçkilərində iştirak edən gəncləri salamlayaraq dedi: "Şükürlər olsun ki, gənclərimiz vətənpərvər ruhda böyüyürlər. Onlar qəhrəman olduqlarını 44 günlük Vətən müharibəsində bir daha göstərdilər. 7 fevral prezident seçkilərində gənclərin fəal iştirakı hamının diqqətini cəlb etdi. İlk dəfə prezident seçkilərində iştirak etdiyiniz və ən layiqli namizədə səs verdiyiniz günü yəqin ki, heç vaxt unutmayacaqsınız".

Bakı Dövlət Universitetinin Fizika fakültəsinin I kurs tələbəsi Sənubər Qurbanova dedi ki, təhsil ocağının tədbirlərində yaxından iştirak edir: "Vətənimə ürəkdən bağlıyam. Tarixdən yaxşı bilirik ki, dövlətimizi ayağa qaldıran, müstəqilliyimizi gücləndirən və inkişaf etdirən Ümummillli Lider Heydər Əliyev olmuşdur. Onun gəncliyə verdiyi qiyməti biz heç vaxt unutmayacağıq. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev hakimiyyətə gəldiyi gündən ölkəmizin gənclərinə böyük diqqət və qayğı göstərir. Əlbəttə ki, bu, çox qürurvericidir. Bu günlərdə həyatımın ən xoşbəxt gününü yaşadım. 18 yaşım tamam olduğuna görə fevral ayının 7-də keçirilən prezident seçkilərində iştirak etdim. Daim gəncliyə böyük diqqət və qayğı göstərən, 30 ilə yaxın düşmən əsarətində qalmış torpaqlarımızı erməni işğalçılarından azad edən Prezident İlham Əliyevə səs verdim. Bir gənc kimi Prezidentimizə inanıram. Əminəm ki, xalqın böyük dəstəyi və sevgisi ilə seçilən Prezident İlham Əliyev yürütdüyü uğurlu siyasəti ilə daim Azərbaycanı zəfərlərə qovuşduracaq".

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin I kurs tələbəsi Nərgiz Orucova: "Seçimim Müzəffər Ali Baş Komandan İlham Əliyev oldu. Prezidentimizin apardığı uğurlu siyasəti və gündən-günə güclənən ordusu ilə 30 ilə yaxın düşmən tapdağında qalmış Qarabağı, eləcə də başqa ərazilərimizi azad etdi. Prezident İlham Əliyev gənclərə diqqət və qayğı göstərir, onlara sabahımızın qurucuları kimi baxır. Biz gənclər 7 fevral prezident seçkilərində sabahımızın Prezidenti İlham Əliyevə, xoşbəxt gələcəyimizə səs verdik".

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin I kurs tələbəsi Mehriban İbrahimli, Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin I kurs tələbəsi Cəmil Xudayarlı çıxışlarında 7 fevral prezident seçkilərində ilk dəfə olaraq iştirak etdiklərini bildirdilər. Xüsusi olaraq vurğuladılar ki, səsvermədə iştirak edərək xalqımıza Qələbə sevincini yaşadan, yüz minlərlə soydaşımızın yurd həsrətinə son qoyan, Azərbaycan tarixində yeni səhifələr açan Qalib Liderə səs veriblər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Qızılca hələ təhlükə olaraq qalır

Avropada qızılcaya yoluxma halları kəskin artıb. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, 2023-cü ildə Avropa regionunda 30 mindən çox qızılcaya yoluxma hadisəsi qeydə alınıb.



ÜST-nin məlumatında, ABŞ və Böyük Britaniya kimi ölkələrdə qızılcanın daha sürətlə yayılması qeyd olunub. Uşaqların sağlamlığına sarsıdıcı təsir göstərən qızılca bəzi hallarda ölümcül nəticələrə gətirib çıxarır. Xəstəlik uşaqların immun sistemlərinin zəifləməsinə səbəb olur, onları bir çox yoluxucu xəstəliklərə, o cümlədən pnevmoniyaya qarşı daha həssas edir.

Qızılca ilə bağlı mütəxəssislər arasında fikir ayrılığı da müşahidə edilir. Bəziləri virusun formasını dəyişdiyinə görə ağırlaşmalara səbəb olduğunu bildirsələr də, bir qismi bu fikirlə razılaşmır, bunların şişirdilmiş məlumat olduğunu qeyd edirlər.

2023-cü ilin sonlarından respublikamızda da qızılcanın yayılmasında artım müşahidə olunur.

### Qızılca idarə olunan infeksiyalar qrupuna daxildir

İnfeksionist Aytən Ziyadovanın sözlərinə görə, qızılca ilə bağlı müraciətlərin sayında artım olsa da, bu, narahatedici səviyyədə deyil: "İdarə olunan infeksiyalar qrupuna daxil olan qızılca çox asanlıqla yayılan və ciddi fəsadlar yarada bilən infeksiyadır. Xəstəliyin ötürülməsi havadamcı yolu ilə baş verir. Öskürmə, asqırma zamanı qızılca virusu yuxarı tənəffüs yollarının selik hissəcikləri vasitəsilə ətraf mühitə ifraz olunur və hava axını ilə böyük məsafələrə yayılır. Virus ətraf mühitdə 2 saat aktiv qala bilir".

A.Ziyadova yoluxmanın səpgilərin əmələ gəlməsindən 4-5 gün əvvəl və 5 gün sonra baş verə biləcəyini bildirib: "Qızılcanın klinik mənzərəsində 3 dövr ayırd edilir: başlanğıc, səpkilər və piqmentasiya. Xəstəliyin başlanğıc dövrü bədən temperaturunun 38,5-39°C-yə qədər artması və dirəncli olması, yuxarı tənəffüs yollarının və konyunktivanın zədələnməsi ilə səciyyələnir. Zökəm, boğazda ağrı və quru öskürək müşahidə olunur. İşıqdan qorxma, konyunktivanın hiperemiyası, göz qapaqlarının şişkinliyi müşahidə olunur. Səpgi dövrü xəstəliyin 4-5-ci günündən başlanır. İlk səpki elementləri qulaqarxası, burun darağında xırda ləkələr şəklində meydana çıxır ki, onların da ölçüləri sürətlə böyüyür. Bir sutka ərzində səpgi üzdə, boyunda yayılır, sonrakı günlərdə bədənə keçərək yuxarı və aşağı ətraflarda qeyd olunur".

### Adətən 6 aya qədər körpələr qızılcaya yoluxmurlar

İnfeksionist qeyd edib ki, adətən 6 aya qədər körpələr qızılcaya yoluxmurlar, çünki onlara anadan antitellər ötürülür: "Lakin əgər anada antikor yoxdursa, heç bir qoruyuculuqdan söz gedə bilməz. Ana xəstəliyi özü keçirdikdə və ya peyvənd olunduqda yetərli sayda antikor qazanır. Sonra da onu bətnindəki körpəyə ötürür".

A.Ziyadova bildirib ki, qızılca zamanı ağırlaşmalar xəstəliyin istənilən dövründə baş verə bilər: "Ona görə də antitellərə sahib olmayan şəxslər, hamilələr, uşaqlar, yaşlılar və xroniki xəstəliyi olanlar risk qrupuna daxildirlər. Qızılcadan qorunmaq üçün peyvənd tövsiyə edilir. O, xəstəliyin ağırlaşmasının 97-98 faiz qarşısını alır".

Mütəxəssisin sözlərinə görə, xəstəliyin əlamətlərini, xüsusən düşməyən hərarəti özündə müşahidə edən şəxslər həkimə müraciət etməlidirlər. Belə ki, orqanizmin həssas olduğu bir vaxtda qəbul edilən dərmanların dozasının xüsusi önəmi var. Ona görə müalicə məhz infeksionist tərəfindən aparılmalıdır.

A.Ziyadova qızılca zamanı qidalanmanın hər kəs, xüsusilə də uşaqlar üçün önəmli olduğunu vurğulayıb: "Xəstəliklərə yoluxma və onları ağır keçirmə əksər hallarda immun sisteminin zəifləməsi ilə əlaqədar olur. Tərkibində A vitamini olan qidalar infeksiyalara qarşı müqaviməti artırır, diareya, pnevmoniya, zülal-enerji çatışmazlığı kimi ikincili ağırlaşmalarla bağlı ölümləri azaldır. A vitamini bir çox heyvan və bitki mənşəli qidalarda müxtəlif miqdarda olur. Dənli bitkilər, qırmızı və ağ ət, dəniz məhsulları, narıncı və sarı rəngli meyvə-tərəvəzlər, süd və ondan hazırlanan məmulatlar xüsusilə A vitamini və A vitamini prekursorlarının mühüm mənbələridir. Xəstəlik zamanı orqanizmin susuzlaşmasının qarşısını almaq üçün bol maye qəbul etmək vacibdir".

Qızılca və onun kimi yoluxucu xəstəliklər hava-damcı yolu ilə yayıldığı üçün tənəffüs yollarını qoruyan tibbi maskalardan, gigiyenik vasitələrdən istifadə etmək lazımdır. Profilaktik tədbirlərə əməl edərək, qida rasionunu təbii məhsullarla zənginləşdirərək xəstəliklərdən qorunmaq və ya onların gedişatını yüngülləşdirmək mümkündür.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# GDU-nun tələbələri "İlin Tələbə Gənclər Təşkilatı" mükafatına layiq görülüblər



Azərbaycan Gənclər Fondunun dəstəyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının təşkilatçılığı ilə Bakı Gənclər Mərkəzində keçirilən tələbə gənclər təşkilatlarının respublika forumunda Gəncə Dövlət Universiteti 2023-cü ildə respublika ərazisində fəaliyyət göstərən ali təhsil müəssisələri arasında fərqləndiyinə və tələbə-gənclərin inkişafı istiqamətində xüsusi xidmətlərinə görə "İlin Tələbə Gənclər Təşkilatı" mükafatına layiq görülüb.

Bu münasibətlə Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov universitetin Tələbə Gənclər Təşkilatının sədri Fuad Dadaşovla görüşmüş, gəncləri təbrik edərək onlara xoş arzularını çatdırmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbycan"***

# Füzulidə torpaq uçqunu altında qalan şəxs xilas edilib



Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə Füzuli şəhəri ərazisində torpaq uçqunu nəticəsində vətəndaşın uçqun atında qalması barədə məlumat daxil olub.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, məlumatla əlaqədar dərhal FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri əraziyə cəlb olunub. Hadisə yerində əməliyyat şəraiti qiymətləndirilərkən məlum olub ki, yeraltı qaz boru xəttində bərpa işləri aparılan zaman baş vermiş torpaq uçqunu nəticəsində bir nəfər uçqun altında qalıb.

Həyata keçirilən təcili və təxirəsalınmaz tədbirlər nəticəsində vətəndaş uçqun altından çıxarılaraq xilas edilib.

# Ölkə ərazisində hava əsasən yağmursuz keçəcək

Azərbaycanda fevralın 12-nə gözlənilən hava proqnozu açıqlanıb.



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Axşam bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi əsəcək, səhər cənub küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 11-16° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 765 millimetr civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° isti, bəzi yerlərdə 2°-dək şaxta, gündüz 13-18° isti olacağı ehtimalı var.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 8-13° isti olacağı ehtimal edilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti, bəzi yerlərdə 15-17° isti olacaq.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 18-23° isti olacağı proqnozlaşdırılır.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-9°, gündüz 16-21° isti, dağlarda gecə 1-6°, gündüz 10-15° isti olacağı bildirilir.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 18-23° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-12°, gündüz 18-23° isti, dağlarda gecə 8-12°, gündüz 15-20° isti olacaq.

# ABŞ-nin Türkiyəyə "F-16"ların satışı ilə bağlı mühüm mərhələ tamamlanıb

ABŞ-nin Türkiyəyə "F-16" qırıcı təyyarələrin satışı ilə bağlı mühüm mərhələ fevralın 10-da tamamlanıb. Konqresdə dəyərləndirmə və etiraz mərhələsi başa çatıb.



AZƏRTAC xəbər verir ki, ABŞ Dövlət Departamentinin yanvarın 26-da Konqresə göndərdiyi rəsmi bildirişdən sonra başlayan 15 günlük araşdırma və etiraz müddətində yalnız Kentukki senatoru Rand Paul Senata etirazını təqdim edib. Paulun təqdim etdiyi qanun layihəsi Senatın Xarici Əlaqələr Komitəsinə göndərilsə də, orada qanun layihəsi ilə bağlı heç bir tədbir görülməyib. Bununla da ABŞ Silah İxracına Nəzarət Qanununa uyğun olaraq müvafiq qurumlar arasında satış prosesinin başlaması üçün heç bir maneə qalmadı.

Qeyd edək ki, həm Senat, həm də Nümayəndələr Palatasının xarici əlaqələr komitələri bildirişin edildiyi gün verdikləri açıqlamalarda "F-16"ların Türkiyəyə satışını təsdiqlədiklərini söyləyiblər.

Xatırladaq ki, Türkiyə ABŞ-dən 40 yeni "F-16" Block 70 döyüş təyyarəsi və inventarında olan 79 təyyarə üçün modernizasiya dəsti tələb edir. Ötən il Konqresin bəzi üzvləri "F-16"ların satışını şərtləndirən əlavə maddələri ABŞ Müdafiə Nazirliyinin büdcə qanun layihəsindən çıxarmışdılar.

# Filippində torpaq sürüşməsi nəticəsində ölənlərin sayı 54-ə çatıb

Filippinin cənubundakı Davao de Oro əyalətində baş verən torpaq sürüşməsi nəticəsində ölənlərin sayı 54-ə çatıb, daha 63 nəfər isə hələ də itkin düşmüş hesab olunur. AZƏRTAC xəbər verir ki, bu barədə "ABS-CBN News" məlumat yayıb.

Bildirilib ki, yerli hakimiyyət orqanlarının məlumatına görə, təxminən 9 hektar ərazidə aparılan axtarış-xilasetmə əməliyyatlarına hərbçilər də daxil olmaqla, 500-ə yaxın canlı qüvvə cəlb edilib. Sürüşmənin hündürlüyü 30-50 metr arasında olub.

# Viktor ORBAN: "Qərb ölkələrinin qlobal iqtisadiyyatda dominantlıq dövrü başa çatıb"

"Qərb ölkələrinin qlobal iqtisadiyyatda dominantlıq dövrü başa çatdı, onun ağırlıq mərkəzi Qərbdən Asiya-Sakit Okean regionuna keçir".



AZƏRTAC "Die Presse" qəzetinə istinadla xəbər verir ki, bu barədə Macarıstanın Baş naziri Viktor Orban Avstriyanın keçmiş Kansleri Volfqanq Şussellə görüşündə bildirib.

"Biz qlobal iqtisadiyyatda dövrü dəyişiklik yaşayırıq, bu, hər 500 ildən bir baş verə biləcək hadisədir. Qərbin dominantlığı sona çatdı. Biz etiraf etdik ki, qlobal ticarət sistemimizdə bizdən daha böyük və güclü ölkələr var. Qlobal iqtisadiyyatın ağırlıq mərkəzi - pul və mənfəət mərkəzi Qərbdən Asiyaya doğru dəyişir. Qlobal iqtisadiyyatın özəyi artıq transatlantik deyil, Trans-Sakit Okean regionundadır", - deyə qəzet Orbanın sözlərindən sitat gətirir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3934
Sifariş 285

Qiyməti 60 qəpik